# 20 Yanvar Ümumxalq Hüzn Günüdür

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 12 (30416) 20 yanvar 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Prezident 20 Yanvar faciəsi ilə əlaqədar paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

## 20 Yanvar – faciənin müstəqil dövlətçilik yaşantısı



**Hər bir xalqın taleyində dövlətçilik ruhunun sübutu kimi qiymətləndirilən ağır hadisə və proseslərin yaşanması, müəyyən mənada, məntiqi qanunauyğunluq sayıla bilər. Bu mənada 20 Yanvar faciəsi birləşdirici faktordur. Millətimizi birləşdirən tarixi yaşantıdır. Elə bir yaşantı ki, qürur və fəxarət mənbəyimizdir.**

Bəli, 20 Yanvar faciəsi nə qədər dəhşətli xarakter daşısa da, xalqı sanki cilalayır, onda bütövləşmək əzmi yaradır. Bu əzm dövlətçilik çırpıntımızın, obrazlı desək, ilk qaranquşudur.

Qətiyyətlə demək olar ki, 20 Yanvar faciə yaşantımızın dövlət müstəqilliyi ruhuna kökləndiyi şanlı tariximizdir. Mətanət, mübarizə və direniş salnaməmizin nəsillərə örnək qalacaq müqəddəs nümunəsidir.

*(ardı 4-cü səhifədə)*



## “Nə nişangaha gəlirlər…”

### İrəvana verilən silah-sursat ölkəmizə təhlükə törədəcəyi təqdirdə məhv ediləcək

**Ermənistan hökuməti sözdə hər zaman regionda təhlükəsizliyin və əmin-amanlığın, o cümlədən Azərbaycanla sülh müqaviləsinin imzalanmasının tərəfdarı olduğundan bəhs edir, “Sülhün kəsişməsi” kimi təşəbbüslər irəli sürür, əməldə isə buna zidd mövqe nümayiş etdirir. Əslində, rəsmi İrəvanın bu davranışı bizi təəccübləndirmir.**



Biz hayların ötən onilliklər ərzində dəfələrlə oxşar addımlarının şahidi olmuşuq. Hələ Azərbaycanla danışıqların aparıldığı dövrdə onların razılaşdırılan məsələlərdən son anda geri çəkilmələri, verdikləri vədləri yerinə yetirmədikləri, yumşaq desək, cığallıq etmələri az olmayıb. İrəvanda hakimiyyətlər dəyişsə də, yanaşma dəyişmir.

Rəsmi İrəvanın regionda sülhdə maraqlı olmadığı bugünlərdə özünü bir daha nümayiş etdirib. Belə ki, İran ərazisindən Ermənistana texnika yüklənmiş maşın karvanının hərəkəti qeydə alınıb. Bununla bağlı “Caliber.az” saytı operativ çəkiliş kadrları əldə edib. Məlumata görə, 2024-cü il yanvarın 17-də, saat 17:50-də İran İslam Respublikasının Culfa yaşayış məntəqəsi ərazisindən Nurduz qəsəbəsinə doğru üzəri müşəmbə çadırla örtülmüş naməlum yük daşıyan 2 ədəd “HINO” markalı avtomaşının hərəkəti qeydə alınıb. Saat 19:55-20:15 radələrində həmin karvanın Nurduz sərhəd-buraxılış məntəqəsindən Ermənistan Respublikasının Ağarək gömrük-keçid məntəqəsinə, saat 21:17-21:31 radələrində isə Mehri yaşayış məntəqəsindən Lehvaz kəndinə doğru istiqamətləndiyi müşahidə olunub.

*(ardı 3-cü səhifədə)*

## Bakı–Supsa boru kəməri etibarlı ixrac marşrutudur




Səhifə ⇨ 8

## Ermənipərəst sinxronluqda başlıca məqsəd

### Yaxud Fransa hakimiyyəti və mediasının anti-Azərbaycan motivlərinə nəzər

**Görünür, Fransa mediası ölkə hakimiyyətinin anti-Azərbaycan kampaniyasına xüsusi “rəng çalarları” qatmaqda israrlıdır. Hər halda, məsələyə başqa cür ad qoymaq mümkün deyil. Yada salaq ki, bir neçə gün əvvəl Fransanın nüfuzlu “La Point” jurnalı Ermənistan-Azərbaycan sərhədindəki vəziyyətlə bağlı “Qaçılmaz müharibə” başlıqlı reportaj hazırlamışdı. Reportajda aşkar təxribat yolu tutularaq Qarabağın Azərbaycan Ordusu tərəfindən, guya, işğal olunduğu bildirilmişdi. Eləcə də yüz mindən çox Qarabağ ermənisinin öz doğma torpağını məcburən tərk etməsi kimi cəfəng məntiq irəli sürülmüşdü.**



Bəli, aydındır ki, “Le Point” qərəzli, saxta sentimentallığa əsaslanmış məqaləsi ilə təkcə ermənipərəstlik etmir, jurnal, eyni zamanda, Fransanın hakimiyyət dairələrinin anti-Azərbaycan sifarişlərini yerinə yetirir. Əslində, hazırda fransız mediası ilə hakimiyyəti arasında sırf ermənipərəstlik xüsusunda sinxromlaşdırılmış, koordinasiyalı birgə fəaliyyət mövcuddur. Bu fikri ona görə bildiririk ki, “Le Point” jurnalı tək deyil.

Məsələn, Fransanın “Fiqaro” jurnalının direktor müavini Jan-Kristof Buisson özünün “X” sosial şəbəkəsindəki hesabında yazdıqları ilə “Le Point”dakı həmkarlarının düşüncələrini təkrarlamaqdadır. Əgər ikinci Azərbaycanın Ermənistanın cənub sərhədlərinə doğru hücuma hazırlaşdığını bildirirdisə, “Fiqaro”nun direktor müavini daha da “irəli” gedib. O yazıb ki, guya, ölkəmiz Ermənistanın paytaxtı İrəvanı ələ keçirməyə hazırlaşır.

Həqiqətən də, ortada Fransa dövləti və mediası adına son dərəcə rəzil bir mənzərə var. Əlbəttə, hər iki qütb məsələyə rəzillik prizmasından baxmaya bilər. Çünki qlobal maraq və mənafelər olduğu halda, onlar söz azadlığına da, insan hüquqlarına da, elə beynəlxalq hüquq normalarının özünə də asanlıqla tüpürməyi bacarırlar. Bu öz yerində.

*(ardı 3-cü səhifədə)*

## “Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 yanvar tarixli 4264 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 yanvar tarixli 4264 nömrəli Sərəncamının 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsinin tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Təşkilat Komitəsinin sədri**

Samir Nuriyev – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri

**Təşkilat Komitəsinin üzvləri:**

Muxtar Babayev – Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti

Ceyhun Bayramov – Azərbaycan Respublikasının xarici işlər naziri

Mikayıl Cabbarov – Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Vilayət Eyvazov – Azərbaycan Respublikasının daxili işlər naziri

Anar Ələkbərov – Azərbaycan Respublikası Prezidentinin köməkçisi

Fərəh Əliyeva – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri

Emin Əmrullayev – Azərbaycan Respublikasının elm və təhsil naziri

Hikmət Hacıyev – Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri

Kəmaləddin Heydərov –Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Teymur Musayev – Azərbaycan Respublikasının səhiyyə naziri

Rəşad Nəbiyev – Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

Arif Səmədov – Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi

Pərviz Şahbazov – Azərbaycan Respublikasının energetika naziri

Samir Şərifov – Azərbaycan Respublikasının maliyyə naziri

Nigar Arpadarai – Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Şahin Bağırov – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

Vüqar Əhmədov – “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri

Ruslan Əliyev – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyinin baş direktoru

Aygün Əliyeva – Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru

Səbinə Əliyeva – Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman)

Eldar Əzizov – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

Sevinc Fətaliyeva – Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Vüsal Hüseynov – Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi

İlhamə Qədimova – Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Anar Quliyev – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Elçin Quliyev – Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi

Vüqar Qurbanov – Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru

Ülvi Mehdiyev – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

Saleh Məmmədov – Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri

Zaur Mikayılov – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri

Bahar Muradova – Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

Zakiyyə Mustafayeva – Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini

Əli Nağıyev – Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Fuad Nağıyev – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Balababa Rzayev – “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti

Samir Rzayev – “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti

Firuzə Sultanzadə – “EkoSfera” Sosial Ekoloji Mərkəzi İdarə Heyətinin sədri

Umayra Tağıyeva – Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Mariana Vasileva – Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Səadət Yusifova – Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 yanvar 2024-cü il**

## Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə multikultural dəyərlərin daha da inkişaf etdirilməsi və yüksək tolerantlıq mühitinin qorunması məqsədilə **qərara alıram:**

**1.** Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350,0 (üç yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350,0 (üç yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350,0 (üç yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 350,0 (üç yüz əlli) min manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 yanvar 2024-cü il**

## “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I) 2-ci hissəsinin on beşinci – on səkkizinci abzasları müvafiq olaraq on doqquzuncu – iyirmi ikinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda on beşinci – on səkkizinci abzaslar əlavə edilsin:

“həmin Məcəllənin 487-5.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər:

qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi bölgü üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və onun rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalar və xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri istisna olmaqla, digər qeyri-kommersiya qurumlarına münasibətdə isə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi;

kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə, publik hüquqi şəxslərə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti;

dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 yanvar 2024-cü il**

## “Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 557 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə “1–3” rəqəmləri “1–4” rəqəmləri ilə, “inzibati ərazisində” sözləri “və Salyan rayonunun inzibati ərazilərində” sözləri ilə əvəz olunsun və həmin hissəyə “əlavələrdəki” sözündən sonra “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi” sözləri əlavə edilsin;

1.2. 5.1-ci və 5.2-ci bəndlərdə “1–3” rəqəmləri “1–4” rəqəmləri ilə əvəz edilsin;

1.3. həmin Fərmana 1 nömrəli əlavə – Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi “Bakı şəhəri, Qaradağ rayonu inzibati ərazisində yerləşən Azad İqtisadi Zonaya ayrılması nəzərdə tutulan (I hissə) 433,0 hektar torpaq sahəsinin yerquruluşu planı” yeni redaksiyada verilsin;

1.4. həmin Fərmana aşağıdakı məzmunda 4 nömrəli əlavə – Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi “Bakı şəhəri, Qaradağ rayonu və Salyan rayonu inzibati əraziləri daxilində yerləşən sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar, ehtiyat fondu torpaqları və kənd təsərrüfatı təyinatlı torpaqlar kateqoriyasına aid, dövlət mülkiyyətində olan ərazidən Ələt azad iqtisadi zonasına ayrılması nəzərdə tutulan (IV hissə) 4312,56 hektar torpaq sahəsinin yerquruluşu planı” əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 yanvar 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 324 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə”nin 8.13-2-ci və 8.13-3-cü yarımbəndlərində “olimpiya idman komplekslərinin” sözləri “idman obyektlərinin” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 yanvar 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419 (Cild I) ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.2.3-cü yarımbənddə “cinayət əməllərinə və ya fahişəliyə” sözləri “cinayətkar fəaliyyətə, fahişəliyə, pornoqrafiya tamaşalarında iştirak etməyə” sözləri ilə əvəz edilsin.

**2.** 2.7.12-ci yarımbəndə “insan alverinin” sözlərindən sonra “, həmçinin cinsi istismarın və ya cinsi zorakılığın” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 yanvar 2024-cü il**

## “Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 146 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 146 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 362 (Cild I) 2-ci və 3-cü hissələrində “olimpiya idman komplekslərinin” sözləri “idman obyektlərinin” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 yanvar 2024-cü il**

# Ermənipərəst sinxronluqda başlıca məqsəd



(əvvəli 1-ci səhifədə)

Başlıca məqam ondan ibarətdir ki, istər fransız mediası, istərsə də Fransa siyasiləri anti-Azərbaycan ritorikasını diri tutmaqla, iki məqsədə nail olmağı düşünürlər. Birinci məqsəd dünya miqyasında ölkəmizə qarşı antipatiya formalaşdırmaqdır. Paris çalışır ki, beynəlxalq aləm total şəkildə ölkəmizlə mübarizəyə səfərbər olsun. İkinci məqsəd isə Ermənistanın özünü Azərbaycanla yeni müharibəyə hazırlaşdırmaqdır. Hesab edirik ki, hazırda ikinci məqsəd daha “vacibdir”.

Fransa dairələri çox yaxşı anlayırlar ki, 44 günlük müharibədən sonra Ermənistanda Azərbaycanla bağlı qorxu var. Yəni, müharibənin nəticələri həmin vaxtadək erməni cəmiyyətindəki stereotipləri sındırıb. Axı ermənilər özlərini döyüşkən, mübariz xalq, azərbaycanlıları ticarətçilər kimi qələmə verirdilər. İndi Fransa çalışır ki, ermənilərə onların, guya, qəhrəman olduqlarını aşılasın. Məsələn, “Le Point”un reportajında fikirlərinə istinad etdiyi Gevorq adlı 61 yaşlı müharibə veteranı belə deyir: “Qorxu ölüb, Ermənistan isə diridir”. Sözügedən reportajdakı daha bir məqama diqqət yetirək. Orada Ermənistandakı Qarabağ erməniləri ilə söhbət əksini tapır və bildirilir: “Bu adamların qəzəb və müqavimətlərini görmək üçün erməni dilini bilmək lazım deyil”.

Göründüyü kimi, Fransanın Ermənistanı Azərbaycanla müharibəyə təhrik etmək məqsədindəki başlıca motiv erməni cəmiyyətindəki qorxunu aradan qaldırmaqdır. Buna görə də Gevork kimi saxta müharibə qəhrəmanı obrazı uydurulur və beləliklə, Paris İrəvanı illüziya bataqlığına çəkir. İllüziya yaratmanın ideoloji tərəfini təmin edən fransız mediasıdırsa, siyasi baxımdan bu işə Fransanın hakimiyyət orqanları ilə yanaşı, ölkənin Senatı da girişib.

Bəli, Fransa Senatı Ermənistanın ərazi bütövlüyünü dəstəkləyən qətnamə qəbul edirsə, deməli, Paris “La Point”un və “Fiqaro”nun xəttini davam etdirir, yaxud əksinə. Yəni, yuxarıda da bildirdiyimiz kimi, Azərbaycanın Ermənistan üzərinə hücumu məntiqi formalaşdırılır, bununla bağlı erməni cəmiyyətindəki qorxunun təbii müqavimətlə əvəzlənməsinə çalışılır. Mövcud durumda sözügedən qətnamə, bir növ, Bakının potensial təcavüz planına münasibətdə beynəlxalq immunitet qismində meydana çıxır. Ölkə iqtidarı isə sanki katalizator funksiyasını yerinə yetirir. Ermənistan hakimiyyətinə gəldikdə, o, avantürizmindən əl çəkmir. İrəvan Parisin direktivlərini yerinə yetirməklə, qeyri-konstruktiv mövqe tutmaqda, Azərbaycanla sülh prosesini əngəlləyir və mövcud istiqamətdəki barışmazlıq xətti yeni müharibə perspektivi doğurur.

Nəzərə alaq ki, Azərbaycanın Ermənistana hücum məntiqi, bir qayda olaraq, Azərbaycan tərəfindən səslənmiş bəyanatlardan sonra dövriyyəyə girir. Yəni, Bakı reallıqları vurğulayır, prinsipial və haqlı baxışlarını ortaya qoyur, obyektiv tələblərini səsləndirir. Nəticədə İrəvanda bütün bunların işğal xəbərdarlığı olduğu deyilir.

Diqqət yetirək, “Fiqaro” jurnalının direktor müavini Jan-Kristof Buisson Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsindəki motivləri əsas götürür. Söhbət dövlətimizin başçısının 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından bir gün sonra, dəqiq desək, mayın 29-da İrəvanın Ermənistana paytaxt olaraq verilməsi kimi tarixi faktı diqqətə çatdırmasından gedir. J.Buisson bu fikri Ermənistanın paytaxtını ələ keçirmək niyyəti adlandırır. Halbuki, məsələnin qoyuluşu yanlışdır, aşkar təxribat və manipulyasiyadır. Təxribat və manipulyasiyada isə belə demək mümkünsə, qorxu yaratmaq məqsədi təxminən budur: baxın, Azərbaycan gəlib sizin paytaxtınızı ələ keçirəcək. Yəni, müharibə edin ki, Bakı istəyinə çatmasın. Deməli, “La Point”un reportajındakı Gevorkun “qorxuya qalib gəlmək” əzminin də, habelə “Qarabağ ermənilərinin gözlərindəki qəzəb və hiddətin” də məramı aydındır.

Qeyd edək ki, Fransa Ermənistana yalnız ideoloji dəstək vermir, eyni zamanda, ölkəni silahlandırır da. Əvvəllər erməni cəmiyyətində belə fikir formalaşmışdı ki, Parisin qətnamələri mənasız kağız parçasından başqa bir şey deyil. O da bildirilirdi ki, Fransa NATO ölkəsidir və o, heç bir halda Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Ermənistanı silah-sursatla təchiz etməyəcək. Hazırda rəsmi Paris bu deyimi heçə endirmiş durumdadır. Çünki Fransa-Ermənistan hərbi əməkdaşlığı artıq real fazaya daxil olub. Görünür, fransızlar Cənubi Qafqazla bağlı ambisiyalarını əməli iş müstəvisinə daşımağa qol çırmayıblar. Hazırda görünən budur ki, istər Fransa Senatının qətnaməsi, istərsə də ölkə mediasının canfəşanlığı İrəvanın silah-sursatla təminatına bəraət qazandırmağa yönəlib. Yəni, onlar göstərmək istəyirlər ki, İrəvana hərbi yardım ermənilərin “Bakının zülmündən xilası üçündür”. Azərbaycanın Ermənistana hücum edəcəyinə dair fikrin qabardılmasındakı başlıca niyyət də məhz budur.

Sonda onu da deyək ki, Fransa Cənubi Qafqazda sülh mühitinin qərarlaşmasına yol verməməkdə israrlıdır. Nəzərə alaq ki, hazırda regionda qərarlaşacaq sülh Fransanın qlobal maraqlarını təmin edilməmiş saxlayan perspektiv vəd edir. Bu səbəbdən Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə başlayacağını ehtimal etmək mümkündür. Əlbəttə, əsas məsələ həmin müharibədən sonrakı vəziyyətin necə olmasıdır. Nə demək olar, mümkündür ki, uzaqgörən, təəssübkeş fransız dairələri müstəqil Ermənistan dövlətçiliyinin yoxluğu məntiqini hesablayıblar. Bəlkə, ermənilər və erməni diasporu Fransanın özünü də bezdirdiyindən, ölkə hakimiyyəti bu məsələnin tamamilə sıradan çıxmasına, yəni Ermənistanın məhvinə çalışır. Hesab edirik ki, bu məqamı, ilk növbədə, erməni cəmiyyəti düşünməlidir. Düşünməli və nəticə çıxarmalıdır. Çünki, necə deyərlər, olan Ermənistana olacaq.

*Ə.RÜSTƏMOV*
*XQ*

# “Nə nişangaha gəlirlər...”



(əvvəli 1-ci səhifədə)

Sayt daşınmanın sutkanın qaranlıq vaxtında həyata keçirilməsini, yükün özünün isə açıq-aşkar gizlədilməsi məqsədilə çadırla örtüldüyünü nəzərə alaraq, onun hərbi təyinatlı olmasının şübhə doğurmadığını vurğulayıb.

“Caliber.az” əsas məsələyə, yəni bu dəfə kimin “daşlar ölkəsi”nə silah tədarük etmək qərarına gəldiyinə aydınlıq gətirməyə çalışır. Qeyd edir ki, burada bir neçə variant var: “Siyahıda birinci yerdə Rusiyadır. Bir neçə gün əvvəl Nikol Paşinyanın partiyasının nümayəndəsi, istefada olan general Qaqik Melkonyan Ermənistana Rusiya silahlarının növbəti partiyasının gətirildiyini uca səslə bəyan etdi. O, eyni zamanda, Moskvanın İrəvana konkret olaraq nə çatdırdığı barədə danışmaqdan vaz keçdi”.

Sayt xatırladır ki, Paşinyan və onun tərəfdarları dəfələrlə Rusiyanı İrəvanın artıq pulunu ödədiyi silahları çatdırmaqdan imtinada ittiham ediblər. Mövcud kontekstdə güman etmək olar ki, Rusiya tərəfi nəhayət, pulu ödənilmiş texnika və silahları Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzrə müttəfiqinə ötürmək qərarına gəlib. Yaxud da Rusiya səfiri Sergey Kopırkinin ötən ilin dekabrında TASS-a müsahibəsində qeyd etdiyi kimi, İrandan Ermənistana rus hərbi texnikasının yeni partiyası gedib. “İmzalanmış sazişlərin demək olar ki, hamısı ya vaxtında və yüksək keyfiyyətlə icra olunub, ya da icrasının son mərhələsindədir. Moskva və İrəvan, həmçinin, yeni sazişlərin bağlanmasını müzakirə edirlər. Habelə, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlıq sahəsində yeni sazişlər də müzakirə olunur”, – deyə səfir bildirmişdi.

Sayt xatırladır ki, hətta 44 günlük Vətən müharibəsi zamanı Rusiyanın silah-sursatı və texnikası Ermənistana İran ərazisindən keçirilməklə daşınırdı: “Ehtimal etmək olar ki, Rusiya tərəfi əvvəlki yolla getməyə qərar verib və yenidən İran vasitəsilə Ermənistana yeni silah partiyası göndərib. Və burada Moskvaya tamamilə ağlabatan sual ünvanlanır: əgər o, İrəvanı silahlandırmaqda davam edirsə, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün özünü vasitəçi kimi necə təqdim edir?”

Qeyd edək ki, ikinci variant Hindistandır. Ermənistanın Hindistanla hərbi-texniki əməkdaşlığı aktiv şəkildə inkişaf etdirəcəyini N.Paşinyan özü 2022-ci ildə parlamentin tribunasından, özü də yüksək səslə açıqlayıb. Ermənistan Hindistan istehsalı olan reaktiv yaylım atəş sistemlərinə, özüyeriyən artilleriya qurğularına, tank əleyhinə idarə olunan raketlərə, artilleriya radarlarına, pilotsuz uçuş aparatları ilə mübarizə sistemlərinə və hətta raketlərin alınmasına ciddi maraq göstərir. Belə ki, “Economic Times” qəzeti Ermənistan və Hindistanın silah tədarükü ilə bağlı bir sıra sazişlər imzaladığını yazıb. Məqalədə deyilir ki, sazişlərin ümumi dəyəri təxminən 245 milyon ABŞ dolları təşkil edir. Bura dörd ədəd “PINAKA” reaktiv yaylım atəş sistemi və onun avadanlığı daxildir. Hindistan kütləvi informasiya vasitələrinin məlumatına görə, sifarişdə idarə olunan raketlərin çatdırılması da yer alıb. 2022-ci ilin oktyabrında Hindistanın “The Print” qəzeti bu siyahıya “AKASH” zenit-raket kompleksini də əlavə edib.

2022-ci ilin noyabrında Ermənistan Hindistandan, təxminən, 160 milyon dollara 155 millimetrlik özüyeriyən artilleriya sistemi sifariş edib. Siyahı Ermənistan müdafiə nazirinin müavini Karen Brutyanın 2023-cü ilin fevralında Hindistana səfərindən sonra genişlənməyə başlayıb. Bundan əlavə, İrəvan havadan buraxılan orta mənzilli “BrahMos” raketləri və yerüstü yaxın mənzilli “Pralay” taktiki ballistik raketləri almağa hazırlaşır. Güman etmək olar ki, millətçi Narendra Modinin hökuməti Ermənistanı silahlandırmaqda davam edəcək.

Nəhayət, Ermənistanı silahlandırmaq işinə bu dəfə İranın özünün girişdiyini istisna etmək olmaz. Məlumdur ki, Tehran Zəngəzur dəhlizi və Cənubi Qafqazda sərhədlərin dəyişdirilməsinin onun “qırmızı xətti” olması ilə bağlı mütəmadi hədələyici bəyanatlar verir. Ehtimal etmək olar ki, müxtəlif istiqamətlərdə (Yəmən, Suriya, Livan, İraq, Qəzza, indi də Pakistan) proksi (vəkalət) müharibələr aparan İslam respublikası Ermənistanın silahlandırılmasının onun ərazisinə qoşun yeritməkdən daha məqsədəuyğun olduğuna qərar verib. Ermənistanın silahlandırılması qərarı Tehranda Azərbaycanın Türkiyə və İsraillə artan hərbi-texniki əməkdaşlığına cavab kimi qəbul oluna bilər. Görünür, üstəlik, Pakistanın da Azərbaycana dost ölkə olduğunu nəzərə alıblar. Necə deyərlər, düşmənimin düşməni mənim dostumdur.

Ancaq Ermənistan rəhbərliyi bilməlidir ki, Azərbaycan Ordusu indi 44 günlük Vətən müharibəsində olduğundan daha güclü və qüdrətlidir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu barədə fikirlərini bir neçə dəfə açıqlayıb. Əgər Ermənistanın Birinci Qarabağ müharibəsindən sonra qurduğu ordu 44 gün ərzində darmadağın edildisə, İrəvanın ötən bir neçə il ərzində komplektləşdirilməsinə çalışdığı ordunu, aldığı silah-sursatı məhv etmək çox da çətin olmayacaq. Azərbaycan Ordusu yüksək vətənpərvərliyini və peşəkarlığını lokal xarakterli antiterror tədbirləri zamanı bir daha nümayiş etdirdi. İrəvan, hansı mənbədən silah-sursat almasından asılı olmayaraq, bilməlidir ki, yenidən revanşist hisslər baş qaldıracağı təqdirdə, dərhal adekvat cavab alacaq. Sonda həm Ermənistanı silahlandıranlara, həm də rəsmi İrəvana Prezident İlham Əliyevin yanvarın 10-da yerli telekanallara müsahibə zamanı səsləndirdiyi bu sözləri xatırlatmaq istəyirik: “Ona görə biz heç vaxt sakitləşməməliyik və mən, xatırlayırsınızsa, İkinci Qarabağ müharibəsindən sonra demişdim və bunu da etdik, biz daha güclü ordu yaratmalıyıq. Biz son üç il ərzində böyük yol keçmişik. İndi bunların hamısını demək yəqin ki, düzgün olmaz, amma mətbuatda olan məlumat kifayətdir. Yeni silahlı birləşmələr antiterror tədbirlərində çox önəmli rol oynamışdılar, yeni texnika, yeni sursatlar, ən müasir avadanlıq. Mən artıq bunu demişəm, bu il müdafiə sənayesi kompleksinin nəzdində olan zavodlarımıza həm dövlət, həm özəl sektor tərəfindən ən azı bir milyard manat investisiya qoyulacaq. Yəni, biz özümüzü daha böyük həcmdə lazım olan vasitələrlə təmin edəcəyik. Yəni, biz heç vaxt sakitləşə bilmərik. Bizim ordu quruculuğu prosesi davam edəcək və Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə yaransa, o Fransanın sınıq-salxaq “Bastion” maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik”.

Zənnimizcə, Ermənistanın və ona silah tədarük edənlərin bu fikirlərdən nəticə çıxarmasında fayda vardır.

*Səxavət HƏMİD*
*XQ*

**Ekspert rəyi**

**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**



– Hazırda Ermənistanı silahlandıran ölkələr Rusiya, Hindistan, Yunanıstan və Fransadır. Biz bu prosesdə İranın da müəyyən şəkildə rol oynadığını istisna etmirik. Ancaq İran faktoru daha çox tranzitlə bağlıdır. Mediada Ermənistana silahların İran ərazisi vasitəsilə daxil olduğuna dair mütəmadi xəbərlər dərc olunur. Regionda logistika layihələrinin həyata keçirilməsi nə qədər yaxınlaşırsa, o qədər də Ermənistanın maraqlı qüvvələr tərəfindən silahlandırılması sürətlənir. Bu, hər halda diqqətçəkən məqamdır. Təbii ki, ölkələr Zəngəzur dəhlizi ilə bağlı maraqlarına görə iki yerə bölünürlər. Bəziləri layihənin həyata keçməsini istəyirlər. Bunlar Rusiya, Çin, Türkiyə və digər ölkələrdir. Buna mane olan qüvvələr isə Avropa və ABŞ-dır. Onlar burada öz maraq dairələrini genişləndirmək və cənub logistik layihələrinə öz nəzarətlərini gücləndirmək məqsədi güdürlər. Onların digər məqsədi Rusiyanı bu regiondan çıxarmaqdır. Təbii ki, bunlar bir-birinə zidd maraqlardır. Bu gün havadarları da Ermənistanı həmin maraqlarına nail olmaq üçün sürətlə silahlandırırlar.

Əlbəttə, proses Azərbaycanın diqqət mərkəzindədir. Düzdür, Ermənistana hansısa müasir, güclü silahların verilməsindən söhbət getmir. Hələlik güclü silah potensialı ilə bağlı məlumat yoxdur. Digər tərəfdən, biz nəzərə alaq ki, bu gün Ermənistanın iqtisadi-maliyyə durumu yaxşı deyil, sosial problemlərin öhdəsindən çətinliklə gəlir. Bu isə onun yetəri qədər silah-sursat almaq imkanını sual altında qoyur. Ümumi vəziyyəti nəzərə alıb qiymətləndirsək, Ermənistanın nə qədər silahlansa da, əlbəttə, ölkəmizə qarşı nə isə edə biləcək səviyyədə olmadığını görə bilərik. Azərbaycan da öz Silahlı Qüvvələrini daim inkişaf etdirir. Ermənistanın silahlanması Azərbaycana heç nə edə biləcək deyil, regionda sabitliyin pozulmasına, gərginliyə səbəb olacaq səviyyədədir. Azərbaycana qarşı hansısa təxribata əl ata bilərlər. Təbii ki, ölkəmiz buna adekvat cavab verməklə “Dəmir yumruğ”u ilə erməni qüvvələrinin, necə deyərlər, başlarını yenə əzəcək.

# Ermənilər Fransanın arxasında nə qədər gizlənəcəklər?!

## Artıq rusiyalı politoloqlar da Azərbaycana qarşı təzyiqlərə cavab verirlər

**Fransa artıq təkcə Azərbaycanı deyil, bütün ətrafını bezdirib. Hətta rusiyalı politoloqlar da zaman-zaman bu ölkənin populist siyasi bəyanatlarından və yersiz addımlarından təngə gəliblər. Yanvarın 17-də Fransa Senatının Azərbaycan əleyhinə qəbul etdiyi növbəti qətnamə Bakıda olduğu kimi, Moskvada da etirazla qarşılanıb.**



Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu Beynəlxalq Araşdırmalar Mərkəzinin aparıcı elmi işçisi Sergey Markedonov özünün “Teleqram” kanalında Fransa Senatının Azərbaycanla bağlı qətnaməsini pisləyib. O, “Fransanın Qafqaz geosiyasi optikası” başlıqlı yazısında bildirib ki, yanvarın 17-də Senat (Fransa parlamentinin yuxarı palatası) Azərbaycanla bağlı sərt qətnamə qəbul edib. Vurğulayıb ki, sənədin müəllifləri Ermənistanın ərazi bütövlüyünü dəstəkləməklə yanaşı, həm də öz hökumətlərini və Avropa İttifaqındakı (Aİ) tərəfdaş ölkələri Bakıya qarşı sanksiyaların tətbiqinə çağırıblar.

Markedonov bu qətnamənin təkcə Azərbaycan üçün deyil, elə Rusiyanın özü üçün də gözlənilməz olmadığını yazıb: “Bu təşəbbüs, təbii ki, sürpriz olmadı. Birincisi, bu gün Bakı ilə Paris arasında münasibətlər SSRİ-nin dağılmasından sonrakı bütün dövr ərzində bəlkə də ən aşağı nöqtədədir. İkincisi, Fransa “ermənipərəstliyi” ilə tanınır”.

Rusiyalı politoloq durumun səbəblərini də izah edir. Bildirir ki, Fransanın ərazisində böyük erməni diasporu yaşayır, onların sayı 350-500 min nəfərdir. Bu, Rusiya və ABŞ-dan sonra dünyada üçüncü, Aİ-də isə ən böyük erməni diasporudur. Ən böyük icmalar Paris, Lion və Marseldə qeydə alınıb. İrəvanın maraqlarının məşhur lobbiçisi Valeri Boyer, hətta, Marsel merinin müavini olub. Markedonov, eyni zamanda, Fransanın erməni mənşəli tanınmış vətəndaşlarının da adlarını xatırladır. Erməni tarixi ilə bağlı Fransada meydana çıxmış kino, ədəbiyyat və incəsənət nümunələrini isə Markedonov “hekayələr” (XX əsrin əvvəllərindəki “faciə” də daxil olmaqla) adlandırır və bu hekayələrin ölkədə geniş şəkildə təqdir olunduğunu diqqətə çatdırır.

Göründüyü kimi, rusiyalı politoloq tamamilə haqlıdır. Hesab edirik ki, ermənilərin, təxminən, yarım əsrdən bəri əlindən tutub gəzdirdikləri qondarma “erməni soyqırımı” iddialarının gülüş və ironiya obyekti olduğu artıq bütün dünyaya, elə ABŞ-ın özünə də yaxşı məlumdur. Bu iddialar hər yerdə hekayə, nağıl kimi qəbul edilir. Sadəcə, bəzi ölkələr arqumentlərində bu erməni pazlından Türkiyə və Türk dünyasına qarşı siyasi alət kimi yararlanırlar. Elə Markedonovun bildirdikləri də bunun təsdiqidir.

Rusiyalı ekspertin fikrincə, erməni lobbi təşkilatları ənənəvi olaraq fəaldırlar (məsələn, Erməni Məsələsi üzrə Komitə, Erməni Diasporunun Araşdırma Mərkəzi). Onlar tarixi və tarixi-hüquqi mövzulara həddindən artıq diqqət yetirirlər. Fransa parlamenti 2000-ci ildə Osmanlı imperiyasındakı hadisələri “erməni soyqırımı” kimi tanıyıb və prezident Jak Şirak 2001-ci ildə müvafiq qanunu imzalayıb.

Politoloq bildirir ki, 2020-ci ildən 2024-cü ilə qədər olan dövrdə Fransa Senatı nəinki Ermənistanı dəstəkləyən və Azərbaycanı pisləyən (17 yanvar 2024-cü il, 15 noyabr 2022-ci il, 25 noyabr 2020-ci il), hətta separatçı keçmiş “Dağlıq Qarabağ Respublikası”nın tanınmasını tələb edən, ən azı, 3 qətnamə çıxarıb. Bununla yanaşı, Markedonov yazır: “Düzdür, bir nüans var. 2022-ci ilin noyabrında Senatın qətnaməsinin qəbulundan sonra Paris Bakıya məhdudiyyət qoymayıb. Üstəlik, Beşinci Respublikanın Xarici İşlər Nazirliyi “DQR”in tanınması ilə razılaşmayacağını dəfələrlə vurğulayıb və buna getməyib... SSRİ-nin dağılmasından sonrakı bütün dövr ərzində Parisin Bakı ilə praqmatik münasibətlər qurmağa cəhd etmədiyini söyləmək olmaz. Üstəlik, Azərbaycan tərəfinin özü də bunda maraqlı olub (heç nəyə baxmayaraq, bu mövqeyində qalır). Mövcud kontekstdə nəzərə almaq lazımdır ki, Heydər Əliyev Fransa Prezidenti Jak Şirakla dialoqun qurulmasında çox işlər görüb, oğlu İlham Əliyev onu əvəzlədikdən sonra prezident kimi ilk xarici səfərini 2004-cü ilin yanvarında Parisə edib. Lakin Qarabağ məsələsi hər dəfə Fransa və Azərbaycanı bir-birindən uzaqlaşdırıb”.

Bütün bunlarla yanaşı, Markedonov hesab edir ki, Parisin Zaqafqaziya ilə bağlı siyasətində Aralıq dənizi istiqamətində Fransanın mühüm rəqibi olan Türkiyə ilə əlaqələr xüsusi önəm daşıyır: “Bu gün Qarabağ istiqamətində Fransa Avrasiyada türk hücumunun növbəti təzahürünü (Azərbaycan da bu tendensiyanın bir hissəsi kimi qəbul edilir) görür və bu, ölkənin regionda proseslərin necə inkişaf etməli olduğuna dair fikirlərinə uyğun gəlmir. Amma tək Türkiyə deyil. Paris “vahid Avropa”nın lideri kimi Almaniyanı da sıxışdırmağa çalışır. Qafqazda “rus hegemonluğu” ilə mübarizə, Ukraynaya dəstək də bu tapmacanın bir hissəsidir”.

Doğrudur, Markedonov Fransa Senatının Azərbaycanı öz Silahlı Qüvvələrini “suveren Ermənistan ərazisindən” geri çəkmək və onun ərazi bütövlüyünə hörmət etmək tələbi üzərində çox dayanmayıb. Amma onsuz da bu tələbin, tamamilə, yersiz olduğu aydındır. Bu gün ətrafda hamıya məlumdur ki, Azərbaycan Ermənistan ərazilərini işğal etməyib və bu fikirdə deyil. Bunu Prezident İlham Əliyev də dəfələrlə bəyan edib. Amma tarixi Azərbaycan ərazilərində oturmuş ermənilərin içində bir qorxu var. Qorxurlar ki, qalib və müzəffər Azərbaycan bir gün qalxıb tarixi torpaqlarını tələb edə bilər. Ona görə də qorxularından Fransanı qabağa veriblər. Azərbaycan Respublikasının Milli Məclisi isə Fransanın qətnaməsinə kəskin reaksiya verib. Görünən budur ki, Fransa özü üçün yenidən ciddi başağrısı yaradacaq.

*Paşa ƏMİRCANOV*
*XQ*

# 20 Yanvar – faciənin müstəqil dövlətçilik yaşantısı




(əvvəli 1-ci səhifədə)

20 Yanvar həm də ölümün ölümsüzlük zirvəsidir. Şəhidlərimiz bu günümüzün, sabahımızın qəlblərdə yaşayacaq əbədi varlıq simvollarıdır. Onlar bizim üçün əbədi var olacaq, əbədi yaşayacaqlar.

Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının varlığını bir daha dünyaya tanıtmaqla yanaşı, SSRİ adlanan nəhəng imperiyanın çöküşündə əsas amillərdən biri oldu. Tarixi prizmadan yanaşdıqda, aydın olur ki, 20 Yanvara aparan yol 1988-ci ilin ziddiyyətli hadisələrindən başlanır. Keçmiş imperiya rəhbərliyinin "xeyir-duası" ilə Ermənistanın Azərbaycana qarşı başladığı ərazi iddiaları nəticə etibarilə xalqımızın milli müstəqillik və istiqlaliyyət uğrunda mübarizəsinə impulslar verdi.

Azərbaycanın informasiya blokadasına alındığı bir şəraitdə baş vermiş həqiqətləri operativ surətdə dünya ictimaiyyətinə çatdırmaq zərurəti yaranmışdı. Dəhşətli faciəyə kəskin etiraz olaraq 1990-cı il yanvarın 21-də ailə üzvləri ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirən ulu öndər Heydər Əliyev hadisəyə operativ və düzgün qiymət verən ilk vətənpərvər lider oldu. "Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı nümayəndəsindən xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm. Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm" - deyən Ulu öndərin bu qətiyyətli mövqeyi respublikamızın informasiya blokadasına alındığı çətin günlərdə totalitar rejimə ağır və sarsıdıcı zərbə oldu. Böyük öndər üzləşdiyi hərbə-zorbalara məhəl qoymadan, öz cəsarəti, yenilməzliyi ilə Azərbaycana sədaqətini növbəti dəfə nümayiş etdirdi. Totalitar rejimin "repressiya maşını"nın sərtliklə işə düşdüyü bir zamanda keçmiş SSRİ rəhbərliyini, konkret olaraq M.Qorbaçovu, Ə.Vəzirovu baş vermiş hadisəyə görə kəskin ittiham etmək böyük risk idi.

Ədəbiyyatda itirilmiş nəslin nəhəng nümayəndəsi kimi tanınan görkəmli ABŞ yazıçısı Frensis Skot Ficeraldın qəribə fikri var – mənə qəhrəmanı göstərin, sizə faciə yazım. Yazıçının dəst-xəttinə bələd olduğumuzdan onun qəhrəman kimi təsəvvür etdiyi şəxsə faciə sonluğunu yaraşdırmasında məntiq görmüşəm.

Azərbaycan xalqı və 20 Yanvar. Görünür, faciə ssenarisi də məntiqi idi. Çünki xalq qəhrəmana çevrilmişdi. Ancaq 20 Yanvar başqa faciələrə bənzəmədi. Bədii təxəyyüllərdəki qəhrəmanlar üçün faciə hər şeyin sonudursa, 20 Yanvar başlanğıc idi. Bizləri dövlət millətinə çevirən, müstəqilliyə aparan yoldakı böyük başlanğıc. Buna görə də 20 Yanvar qəhrəmanlıq salnaməmizin, dövlətçilik tariximizin mühüm səhifəsidir. Bu səhifənin yazılmasında qanını mürəkkəbə çevirən Vətən övladlarının müqəddəs ruhları qarşısında baş əyir, onların şücaətindən qürur duyuruq!

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Əflatun AMAŞOV,**
**baş redaktor**

## Hikmət Hacıyev və Fəxrəddin Altun media sahəsində əməkdaşlığı müzakirə ediblər



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altunla görüşüb.**

Bu barədə F.Altun "X"də yazıb.

O bildirib ki, Türkiyə və Azərbaycan kommunikasiya və media sahəsində, həmçinin dezinformasiya ilə mübarizədə əməkdaşlığı gücləndirməyə böyük əhəmiyyət verir:

"Bundan sonra da media və kommunikasiya sahəsində əməkdaşlığımızı gücləndirəcək, beynəlxalq müstəvidə iki dost və qardaş ölkə olaraq həqiqət uğrunda mübarizəmizi davam etdirəcəyik".

**XQ**

## Ombudsmanın 20 Yanvar faciəsinin ildönümü ilə bağlı bəyanatı

**Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar bəyanat yayıb.**

Ombudsman Aparatından daxil olan bəyanatda bildirilir: "Azərbaycanın şanlı tarixində həm faciəli, həm də qəhrəmanlıq səhifələrindən biri kimi silinməz iz buraxmış 20 Yanvar hadisələrindən 34 il ötür.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya daxil olmuş sovet qoşunları Ermənistanın təcavüzkarlıq siyasətinin keçmiş SSRİ rəhbərliyi tərəfindən açıq dəstəklənməsinə etiraz edən dinc əhaliyə qarşı amansız qırğınlar törətmişdir.

İnsanlıq əleyhinə törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixə yazılmış bu terror aktı nəticəsində Bakıda və Azərbaycanın bir neçə rayonunda qadınlar, uşaqlar və qocalar da daxil olmaqla 150 dinc sakin öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz olaraq həbs edilmişdir.

Ulu öndər Heydər Əliyev hər zaman olduğu kimi, həmin çətin gündə də xalqının yanında olmuş, insanlıq əleyhinə törədilmiş bu cinayətin dünyaya çatdırılması məqsədilə 1990-cı il yanvarın 21-də ailə üzvləri ilə birgə ölkəmizin Moskva şəhərindəki nümayəndəliyində mətbuat konfransı keçirmiş, keçmiş SSRİ rəhbərliyini bu hərbi müdaxilə ilə bağlı pisləyən kəskin bəyanatla çıxış etmişdir. Hakimiyyətə qayıdışından sonra Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən bu cinayətə siyasi-hüquqi münasibət bildirilmiş, 20 Yanvar tarixi Ümumxalq Hüzn Günü elan olunmuşdur.

Mülki əhaliyə, o cümlədən qadınlara, uşaqlara və qocalara qarşı xüsusi qəddarlıqla törədilmiş bu hərbi təcavüz nəticəsində beynəlxalq hüququn insan hüquq və azadlıqlarına hörmət olunması prinsipi, eləcə də Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın və digər beynəlxalq hüquqi sənədlərin müddəaları kobud şəkildə pozulmuşdur.

Beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə dəfələrlə müraciətlər edilməsinə baxmayaraq, insanlıq əleyhinə törədilmiş bu cinayətə hələ də hüquqi qiymət verilməmiş, bu qanlı cinayəti törətmiş şəxslər məsuliyyətə cəlb edilməmişlər.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili olaraq, beynəlxalq təşkilatları dinc əhaliyə qarşı törədilmiş və insan hüquqlarının kobud şəkildə pozulması ilə nəticələnmiş bu amansız cinayətə hüquqi qiymət verməyə, təqsirkar şəxslərin ədalət mühakiməsi qarşısında cavab vermələri məqsədilə qətiyyətli addımlar atmağa çağırıram".

# Paşinyan və Ermənistanın legitimliyi məntiqi

## Yaxud keçmişin "kupça söhbəti"nə yeni yanaşma

**Ermənistanın baş naziri Nikol Paşinyan Ədliyyə Nazirliyinin son bir ildəki fəaliyyəti haqqında hesabatın müzakirəsi zamanı maraqlı məqama toxunub. Ölkəsinin Azərbaycanla sərhədlərin demarkasiyası ilə bağlı komissiyasının işinə sözügedən nazirliyin də cəlb edildiyini, prosesin strateji əhəmiyyətinin olduğunu, durumun çox ciddi siyasi, sosial-psixoloji aspektlərinin mövcudluğunu dilə gətirən hökumət rəhbəri bildirib ki, Ermənistanın təhlükəsizliyinin təməl daşı legitimlikdir.**

Qeyd edək ki, N.Paşinyanın bu tərzdə fikir bildirməsi heç də yenilik deyil. O, ötənilki açıqlamalarının birində demişdi ki, məqsədi Ermənistan üçün şəhadətnamə almaqdır. Yəni, baş nazirin sözlərindən belə çıxmışdı ki, keçmiş SSRİ-nin süqutundan sonrakı Ermənistanın mövcudluğunda legitimlik yoxdur. Başqa sözlə desək, hamı belə bir dövlətin adını eşidib, onu qəbul edib, ancaq bu qəbuletmənin hansı sərhədlər və parametrlər daxilində olduğu bilinmir.

Əslində, N.Paşinyan, kifayət qədər, sərt reallıqlardan söz açmışdı. Onun fikirləri avantürist erməni ictimai rəyində, bir növ, şapalaq effekti yaratmışdı. Ölkənin müxtəlif başıpozuq dairələri baş naziri təhqir etmiş, onu dövlətin mənafeyini satmaqda günahlandırmışdılar və mövcud xüsusda hazırkı müzakirələrdən tam uzaq düşmüş Qarabağ məsələsi gündəmə gəlmişdi. Bildirilmişdi ki, Nikol bölgəni Azərbaycana təhvil verməyə çalışır. İndi isə həmin başıpozuqlar Paşinyanı dövləti məhv etmək cəhdində günahlandırmaqdadırlar. Halbuki, hökumət rəhbərinin vurğuladığı məsələ, həqiqətən aktualdır. Çünki Ermənistan adlı dövlət hazırda, faktiki olaraq, legitim deyil.

Əlbəttə, N.Paşinyan ara-sıra belə fikirlər səsləndirməklə, daha doğrusu, oxu atıb yayı gizlətməklə, erməni cəmiyyətini qəflət yuxusundan ayıltmağa və reallıqlara düzgün prizmadan yanaşmağa çağırışlar səsləndirir. O, hər şeyi açıq formada bildirməyə cəsarət edə bilməz və bu, müəyyən mənada, təbii sayılmalıdır. Ancaq Nikolun dilə gətirdiklərinin ayrı-ayrı cəhətlərinə diqqət yetirəndə, bu adamın hansı məqamlardan söz açdığını sezmək mümkündür.

Məsələn, Paşinyan Ədliyyə Nazirliyinin hesabat müzakirəsi gedişində vurğulayıb ki, ermənilər yüksək sürətlə və gözlənilməz istiqamətlərdə dəyişən dünyada yaşayırlar. Bəs bu konfiqurasiyadakı legitimlik nədir? Suala Nikolun kələkötür cavabı belədir: "Bu o deməkdir ki, biz vəzifəni çox aydın şəkildə formalaşdırmalıyıq. Biz qarşımıza Ermənistan Respublikasının, beynəlxalq səviyyədə tanınmış ərazisində, onun hüquqi, demokratik dövlət kimi yaradılması və inkişafı vəzifəsini qoyuruq. Bu zaman isə ölkəmizin gələcəyinə dair strateji təsəvvür olmalıdır. Ermənistan Respublikası suveren, hüquqi, demokratik və sosial dövlətə çevrilməlidir".

Yeri gəlmişkən, N.Paşinyanın əvvəlki şəhadətnamə məntiqini əsaslandırmaq üçün vurğuladıqları fikirlərdə bir məqam diqqəti cəlb etmişdi. O demişdi ki, məqsədi Ermənistan üçün, belə demək mümkünsə, "kupça" almaqla, mövcudiyyəti gələcək nəsillərə miras kimi saxlamaqdır. Nikolun fikirlərindən anlaşılan budur ki, hazırkı Ermənistanın gələcək nəsillərə qalma ehtimalı ya yoxdur, ya da çox zəifdir.

Bəli, Ermənistanda bəlkə hamıdan çox Nikol Paşinyan yaxşı anlayır ki, hazırkı erməni dövlətçiliyi quramadır və onun gələcək baxımından oturuşmuş gerçək mahiyyəti və perspektivi yoxdur. Sadəcə, o, bir erməni, hətta, bir qədər şişirdilmiş formada desək, vətənpərvər erməni kimi indiki axarı dəyişmək niyyətindədir. Problem isə ondadır ki, Ermənistanda Nikolu anlayacaq başlar yoxdur, yaxud da belə başların sayı olduqca azdır. Əksinə, avantüristlər və reallıq hissini itirmişlər çoxluq təşkil etməkdədir. Belə bir situasiyada Paşinyan, əlbəttə ki, subliminal mesajlarla və eyhamlarla kifayətlənməli olur. Yəni, o, gah reallığa doğru açıq formada gedir, gah da geri çəkilərək, avantüristlərin cəbhəsinə qoşulur ki, linç olub hakimiyyəti əldən verməsin. Əlbəttə, Nikol mövcud ampluanın heç də hər zaman davamlı ola bilməyəcəyini anlayır. Ona görə qeyri-müəyyən sual ünvanlayır: "Ermənistan Respublikasının ərazisi nədir? Əslində, bir daha qeyd etmək istəyirəm ki, bu suala cavab axtarmaq lazım deyil. Sadəcə olaraq, mövcud cavabı rəflərdən götürüb masaya qoymaq lazımdır. İndi mənim üçün neçə il əvvəl olduğunu söyləmək çətin olacaq, lakin Ermənistan Respublikasının suveren ərazisinin ölçüsü onun torpaq balansında çoxdan qeydə alınıb".



Paşinyan bu fikirləri ilə, sanki, özünü sığortalamaqdadır. Yəni, o deyir ki, Ermənistanın ərazisi ilə bağlı şüurlara hakim kəsilmiş fikirlərlə, onun mövcud olduğu torpaqlar arasında fərq var. Bu, həqiqətən doğru yanaşmadır. Məsələ burasındadır ki, erməni avantürizmi Azərbaycan torpaqlarının bir hissəsini də Ermənistan kimi təsəvvürə gətirir, üstəlik Türkiyənin torpaqlarını müəyyən kəsimini də. Hələ bu avantürizmin Gürcüstana qarşı da ərazi iddiası var. Belə bir yolverilməz "yanaşma" ölkənin ideoloji xəttini təşkil etməkdədir və Paşinyan vurğulayır ki, mövcud təfəkkür tərzi onun hakimiyyətindən əvvələ aiddir: "Ermənistan Respublikası hökuməti vaxtaşırı Ermənistan Respublikasının torpaq balansını qəbul edir. Bu, 2018-ci ildən əvvəl, 2018-ci ildən sonra idi. Biz də sonda bunu bəyan etməli və buna və məntiqə əsaslanaraq legitimliyimizi, haqlı məsələlərimizi, gözləntilərimizi vurğulamalıyıq".

Bəs, Paşinyan vəziyyətdən gerçək çıxış yolunu nədə görür? Yəni, gözlənti nədən ibarət olmalıdır? Əlbəttə, onun söylədiklərini söz oyunu kimi qiymətləndirmək mümkündür. Ancaq bəzi nüanslar var ki, həmin nüanslara nəzərən demək olar ki, Nikol fikirlərində ardıcıl təsir bağışlayır. Məsələn, məlumdur ki, Ermənistanın hakimiyyət nümayəndələrinin anti-Azərbaycan ritorikasındakı başlıca yeri, öz ölkələrinin demokratik obrazda təqdimat xətti təşkil etməkdədir. Bu, dünyanın bəzi qütblərinin Azərbaycana münasibətdəki ikili yanaşmalarından və qərəzindən qaynaqlanmış, daha doğrusu, həmin qərəzli motivlərə hesablanmış təqdimatdır. İrəvan rəsmiləri ölkələrinin, guya, demokratik olduğunu gözə soxmaqla, öz aləmlərində Azərbaycandan daha üstün mövqedə dayandıqlarını düşünürlər. Elə 44 günlük müharibəyə də məhz bu düşüncə ilə rəvac vermişdilər. Yəni, baş nazir Nikol Paşinyan Xankəndinin mərkəzi meydanında "Qarabağ Ermənistandır nöqtə" bəyanatını verərkən belə fikirləşmişdi ki, dünya birliyi demokratik Ermənistanı Azərbaycana qarşı savaşda dəstəkləyəcək, yaxud Azərbaycanın güc nümayişinə imkan verməyəcək. Amma gözləntilər özünü doğrultmadı. Müharibə Ermənistan və onun "şanlı demokratiyası" üçün də bir növ, gilyotinə çevrildi.

O da məlumdur ki, 44 günlük müharibədən sonra Ermənistan əvvəlki "kursuna" sadiqdir. Paşinyan və komandası indinin özündə də, az qala, hər beynəlxalq tribunada Ermənistanın hüquqi və demokratik dövlət obrazını yaratmaqla məşğuldur. Hazırkı konkret mövzumuz Nikolun Ermənistanın Ədliyyə Nazirliyinin fəaliyyəti haqqında hesabatın müzakirəsində dedikləridirsə, bildirək ki, o, yenə də köhnə məsələləri gündəmə gətirir. Ancaq bu dəfə həmin məsələləri haqqında söz açdığımız legitimlik müstəvisində qiymətləndirmək yolu tutur. "Baxın, biz təhlükəsizlik dedikdə adətən ordunu, silahlı qüvvələri, diplomatiyanı nəzərdə tuturuq. Hər şey düzgündür, yəni burada heç bir problem yoxdur, lakin biz təhlükəsizliyin təmin edilməsində legitimliyi unuduruq. Təminat funksiyasını, ilk növbədə, hüquq ictimaiyyətimiz daşıyır. İstəyirəm ki, özümüzü elə bir işə hazırlayaq ki, bu mərhələdə təhlükəsizliyin təmin edilməsinin səmərəliliyini əhəmiyyətli dərəcədə artıraq".

Deməli, eyni zamanda, aydın olur ki, Paşinyan Azərbaycanla sərhədin demarkasiyası fonunda Ermənistanın dövlət maraqlarının qorunmasında tarixi yox, hüquqi aspektə söykənilməsini əsas götürür. Bu isə heç şübhəsiz, manipulyativ gedişdir və reallıqların təhrifinə, hansısa qeyri-real durumu reallıq kimi təqdim etməyə hesablanıb. Və deməli, Nikolun ölkənin legitimliyinin qəbulu məntiqi siyasi saxtakarlıqdan başqa bir şey deyil.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Fransanın Cənubi Qafqaz maraqlarının üç aspekti

### III hissə

## Bir demokratın kölə təfəkkürü: siyasi taleyin faciəvi tərəfi

Tomas Karleyl haqlıdır: demokratiya qəhrəmanları sevmir! Lakin demokratiya təfəkkürün köləliliyini də qəbul etmir. Müasir Qərb dövlətlərinin XX əsrin ikinci yarısından bu yana təcrübəsi göstərir ki, burada bir psixoloji və siyasi paradoksallıq vardır. Konkret ifadə etsək, Qərb fəlsəfi-elmi təfəkkürü insan azadlığı, söz və fikir azadlığı, insan hüquqları kimi yaxşı səslənən, insanın təfəkkürünə və vicdanına "sığal çəkən" anlayışlarla doludur, ancaq praktiki fəaliyyətdə hər şey tərsinədir!

O cümlədən, hansısa Qərb dövlətinin lideri olmaq üçün buna lazım olan keyfiyyətlərdən öncə, nüfuzlu dairələrin sözəbaxanı olmalısan. Görünür, məhz bu məqam da hazırda Qərbdə yaşanan uğurlu liderlik böhranının başlıca səbəblərindən biridir. Bu ayrı mövzudur.

Burada Emmanuel Makronun nümunəsində Avropanın böyük dövlətinin belə başçısının hansı "sözəbaxan" və hətta kölə təfəkkürlü olmasını aydınlaşdırmağa çalışacağıq.

## Meysanın araşdırmaları: Rotşild, Krevis və Makron

Tyerri Meysan fransız jurnalistidir. Azad sözün inkişafı isitqamətində fəaliyyət göstərən "Voltaire" beynəlxalq təşkilatının sədridir. Fransada tanınmış politoloji mərkəz olan "Reseau Voltaire"nin (fransızcadan tərcümədə - "Volter şəbəkəsi") yaradıcısıdır. T.Meysan özünün müstəqil və obyektiv siyasi araşdırmaları ilə tanınır. Onun E.Makron haqqında apardığı araşdırmalar da böyük maraq doğurmuşdur.

Tərcüməçi E.Feoktistov məqaləsinin girişində yazır ki, "tez-tez Makronu Rotşildin "uşağı" adlandırırlar. Ancaq bu, tam olaraq belə deyildir. Tyerri Meysan göstərir ki, o (yəni E.Makron – F.Q.) seçkiqabağı təbliğatına görə əsas olaraq Henri Krevisə borcludur". Araşdırmaçılar belə qənaətdədirlər ki, məhz E.Makronun bu asılılığı "ağır yük" kimi ona "Sarı jiletlilər" böhranını həll etməyə imkan verməmişdir.

Maraqlıdır, deyilmi? Fransa Prezidenti müəyyən maliyyə dairələrindən asılı olduğu üçün dövləti silkələyən hansısa böhranı həll edə bilmir. Elə isə Cənubi Qafqaz kimi uzaq bir məkanda Fransa dövlətinin real maraqlarını necə təmin edə bilər?

Bəs bu Henri Krevis kimdir və onun rotşildlər ailəsi ilə hansı bağlılığı mövcuddur? O, fransızdır və ən böyük maliyyə şirkətlərindən birinin sahibidir, hətta NATO-da sözü keçir. T.Meysan yazır ki, daha doğru olan Krevis ailəsindən danışmaqdır. Henri Krevis böyük maliyyəçidirsə, onun həyat yoldaşı Mari Joze Druin-Krevis Bilderberq Klubunun inzibatçısıdır və ailə bütövlükdə Bilderberq Klubunun "əsas dayaqlarından biridir". Rotşild ailəsi isə bu klubun nüvəsində dayanan iki zəngin ailədən biridir. Digər ailə rokfellerlərdir!

"Bilderberq Klubu" nədir? Təşkilatdırmı? Yaranma və fəaliyyət tarixçəsi açıq informasiya resurslarında mövcuddurmu? Bəli, mövcuddur. Çoxlu sayda. İstənilən adam tanış ola bilər.

## "Biderberq -1": audentik Bildeberq

Burada "audentik" termini "əsl", "klassik", "mahiyyəti üzrə ilkin anlam" mənasında işlədilir. İki məqama işarə var: birincisi, Bilderberq Klubu konkret məqsədlərlə və dəqiq kriteriyalar əsasında yaradılmış təşkilatdır. Onun özünəməxsus funksionallaşma normaları mövcuddur. İkincisi, Klub dövrün tələblərinə və aldığı nəticələrə uyğun transformasiya edir, dəyişir, yeniliyə adaptasiya olunur ki, bu da onu tam anlamağa, məqsədlərini dəqiq müəyyən etməyə maneçilik törədir. Bu cür dinamik, buqələmun kimi cilddən-cildə keçən bir təşkilata qarşı hansısa əks-tədbir görmək çox çətindir. Həm də dünyada onun siyasi, maliyyə, diplomatik, hərbi təsir potensialına bərabər ikinci bir dairə gözə dəymir. Təsəvvür edin ki, NATO belə onunla bağlıdır, - deyirlər! Hətta Bilderberq Klubu NATO-nun maraqlarına xidmət edir. Bu Klub ilk yarananda bəzilərinin iddia etdiyi kimi, dünya hökuməti olmağı deyil, NATO-ya xidməti məqsəd kimi müəyyənləşdirmişdi. Hər halda T.Meysan belə yazır.

"Bilderberq Klubu" (ingilis. "Bilderberg Club") 1954-cü ildə Hollandiyada "Bilderberq" adlı hoteldə yaradılıb. Hotel hollandiyalı zəngin iş adamına məxsus olub. Tədbirin təşəbbüskarlarından birinin mühacirətdə olan polyak siyasətçi Cozef Retinger olduğu yazılır. O, ötən əsrin 50-ci illərində Avropada antiamerikanizm əhval-ruhiyyəsinin güclənməsindən narahat idi. Təşkilatı yaratmaqda da əsas məqsəd Qərbin müxtəlif sferalardakı (siyasi, iqtisadi, maliyyə, hərbi, diplomatik və s.) nüfuzlu adamları vahid qurumda birləşdirməklə, həm Amerika-Avropa birliyini təmin etmək, həm də öz maraqlarını dünya miqyasında həyata keçirməkdən ibarət olub. Bu təşkilata "Bilderberq Konfransı" və ya "Bilderberq Görüşü" də deyirlər.

Belə aydın olur ki, Bilderberq Klubu təməldən, konkret olaraq, Amerika+Avropa tandeminin bütün sferalarda (siyasi, geosiyasi, iqtisadi, energetik, maliyyə və s.) maraqlarını dünyaya yaymaq, onu universallaşdırmaq, aparıcı qüvvəyə çevirmək və hamını ona tabe etdirmək məqsədi güdüb. Başlıca məqsədlərin təməlində isə siyasi, iqtisadi və müdafiə məsələlərində əməkdaşlığın inkişafı dayanıb.

Klubun birinci konfransında Avropanın 11 ölkəsindən 50, ABŞ-dan isə 11 nümayəndə iştirak edib. Artıq 2023-cü il 18-21 may tarixində Lissabonda keçirilmiş 69-cu konfransa isə 23 ölkədən 130 nümayəndə qatılıb. Nəzərə alsaq ki, "nümayəndələr" dedikdə 23 ölkənin siyasi, maliyyə, media, dövlət rəhbərləri, güc strukturlarının nüfuzlu, sözükeçən tanınmış kadrlarından ibarət olur, bu o deməkdir ki, ortada çox böyük rəqəm var. Burada kimlərin adına rast gəlinmir? Kəşfiyyat rəhbərləri, böyük bankların sahibləri, tanınmış siyasət adamları, nəhəng şirkətlərin sahibləri və s. Ölkələrin əhatəsi də genişdir: Amerika Materiki (hər iki Qitəsi), Avropa, Afrika, Asiya, Yaxın Şərq və s.

Son Lissabon tədbirində dünya miqyasında Rusiya, Çin, İran məsələlərinə münasibət və yeni müharibə texnologiyaları (konkret olaraq süni intellektdən istifadə), tibb, pandemiya və s. müzakirə olunub. Ayrıntılara getməyək.

Belə çıxır ki, təşkilatın fəaliyyətində gizlilik və kriptoluq əsas yer tutur. Struktur elə qurulub ki, çox məhdud sayda adam rəhbərlikdə ola bilər. Son məlumatlara görə, onların sayı cəmi 3-dür. H.Kissincer öldükdən sonra isə say hələlik 2-dir və bəlkə də onun yeri artıq dolub. Sonrakı pillədə 5 nəfər var. Qərarları 3 nəfərdən başqa kimsə bilmir. Onların da hər biri tam olaraq bütün informasiyaya malik olmurlar. Tam hər şeyi kimin bildiyi məlum deyil. Lakin həmin "bilən"in Bilderberq Klubunda birbaşa iştirak etmədiyi fakt kimi qəbul edilir. Deməli, yaranması və işləmə metodu müəmma olan Bilderberq Klubu dünya miqyasında təsirə malik olan təşkilatdır. Gözəgörünməz, üzdəolmaz, haqqında ancaq mülahizələr söylənən xəyalət bir təşkilat.

Burada haqq və ya hüquq deyil, Klubun sifarişçilərinin maraqları əsas götürülür. Nəticədə hüquq da, haqq da, ədalət də başqalarının maraqları da arxa plana keçir. Bəs kimlərdir bu sifarişçilər?

Araşdırmaçılar "aysberqin" görünməyən tərəfində ABŞ MKİ-si və Böyük Britaniyanın Mİ6-sının olduğunu yazırlar. Onlar bildirirlər ki, Amerika və İngiltərə kəşfiyyatı bu təşkilatı xüsusi məqsədlə yaradıb və indi də onu idarə edir. Buna görə də T.Meysan yazır ki, "Bilderberq Klubu qərarların qəbul olunduğu yer deyildir". Yəni qərarlar kəşfiyyatda qəbul edilir və Kluba çatdırılır. T.Meysan Bilderberq Klubunun üzvlərinin "nüvəsi"ni təqdim edir. Onların sayı 38-dir. Dünyanın müxtəlif ölkələrindəndirlər. Aralarında böyük fransız sığorta şirkəti olan "AXA"nın başçısı Anri de Kastris (Henri de Castries) də var.

> *"Hər axşam mən özümə tribunal qururam".*
>
> *Uinston Çörçill*

Bilderberq Klubu ilə bağlı bütün bu informasiyaların (etiraf edək ki, məhdud informasiyalardır – Klubun "ayaqları" hər yerdədir) fonunda Emmanuel Makronun siyasi karyerası həm də Cənubi Qafqaz siyasəti prizmasında çox maraqlıdır.



## "O, siyasət haqqında düşünmürdü"

E.Makron siyasət haqqında düşünməməklə doğru edirmiş. Çünki bacarmır, azad və sərbəst ola bilmir. Müstəqil fəaliyyət göstərmək onluq deyil. Və həm də qəlbindən hərdən bir keçir ki, siyasətdə nə işi vardı, filosof olsaydı, daha yaxşı idi! Sakit, yumşaq və düşünən bir filosof! O, müəllim də ola bilərdi!

Ancaq hər şeyi bir görüş dəyişib. E.Makron məqsədlərinə çatmaq üçün franko-amerikan fondu və Almaniyanın Marşall Fondu ilə dostluq etməyə başlayıb. Bu "dostluq" onu bir gün Park-avenyuda (Nyu-York) Krevislər ailəsində görüşə aparır. T.Meysan təxmin edir ki, həmin görüş 2007-ci ildə olub. Bundan sonra E.Makron həmin ailəyə ABŞ-a hər səfərində davamlı olaraq baş çəkib. H.Krevis isə Parisdəki Monten prospektindəki ofisinə gələndə E.Makronu da ora dəvət edir.

**Qısa arayış: Krevislər ailəsinin ABŞ-ın Respublikaçılar Partiyasına siyasi yaxınlığı var. Dünyanın ən varlı adamları sırasındadırlar. Onların Blackstone, Carlyle Group və KKR adlı şirkətləri mövcuddur. KKR bütün dünyada ən iri sərmayə şirkətlərindən biridir.**

Mari-Joze Druinin E.Makron haqqında maraqlı bir fikri var. Onun sözlərinə görə, xanım Krevis bir zamanlar deyib ki, E.Makronun sevimli sözü "can do attitude"dir (istəsən bacararsan – red.). Ancaq onda baş verənləri dərketmə və anlamağa canatma da var. Lakin bu zaman o, "təqlid etmir və imitasiya ilə məşğul olmur ki, bu da həqiqi fransız kimi qalmasına imkan verir".

Bizim bütün xanımlara, o cümlədən, Krevis ailəsinin xanımına hörmətimiz var. Ancaq məsələ siyasətə bağlananda, deyilən fikirləri təhlil edərkən, cinsiyyət fərqi yoxdur. Bu baxımdan Mari-Joze Druinin E.Makron haqqında dediklərinin doğru olduğuna inanmaqda çətinlik çəkirik. Doğurdan da E. Makron prezident kimi milyonlarla seyrçinin gözünün içinə baxa-baxa "Qarabağ Ermənistanın ortasındadır" deyəndə təqlid etmirdimi? Burada kimlərinsə fikrinin imitasiyası yox idimi? Və E.Makron "dərk etməyə və anlamağa" çalışan "fəlsəfə həvəskarı" kimi saxtakarlıq etmirdi ki? Edirdi! Çünki dünyanın ən kiçik ölkəsinin başçısı belə hamının gördüyü xəritə ilə bağlı ağ yalan danışmamalıdır. Bilməlidir ki, coğrafi ərazidən, siyasi xəritədən, siyasi sərhədlərdən çox insanın başı çıxır. Və adi gözlə dünya xəritəsinin geniş miqyasda görünüşünə baxsan, görərsən ki, Qarabağ Azərbaycanın ortasındadır!

Bundan başqa, E.Makron və onun Senatı deyir ki, "Azərbaycan Qarabağda terror törətmişdir", "mədəniyyət abidələrinə qarşı pis davranmışdır", "ermənilərin hüquqlarını pozmuşdur". Görəsən, belə cəfəng məsələlər gündəmə gətirilərkən, reallığa ağlın, yaxud vicdanın "pəncərəsi"ndən baxılıb? Axı nə zamandan bəri, bir dövlətin nizami ordusunun bütün beynəlxalq hüquqa və müharibəni aparmağın hər bir qanununa əməl edərək öz torpaqlarını işğaldan azad etdiyi müqəddəs savaş terror adlandırılır? Bu, BMT-nin Nizamnaməsində yazılıb, yoxsa Fransanın öz tarixində həmin faktlar çoxdur? Bəs onda Fransa niyə müstəqil dövlətdir və onun ərazisi var? Fransa dövlət olaraq öz ərazi bütövlüyünü faşistlərdən xilas edəndə, terror törətməyin hansı növündən istifadə etmişdir? Bəlkə fransız ekzistensialistləri A. Kamyu və J.P.Sartr Fransanı müqavimətə səsləmək üçün nəzəriyyələrini yaradıblarsa, bu adamlar "ideoloji terrorçudurlar"?

Biz qətiyyən belə düşünmürük – onlar dünyanın ən böyük mütəfəkkirlərindəndirlər! Ancaq düşünürük ki, A.Kamyu "Qərbin vicdanı" anlayışını hansı səbəblərdən işlətmişdir və bunu necə adekvat anlamaq olar. Bir də əgər "əsl fransız" Makron kimidirisə, onda qeyri-əsl fransız kimdir?

Bundan başqa, fakt ondan ibarətdir ki, terror Fransa ordusunun Afrikada, Qafqazda (keçən əsrin əvvəllərində Anadoluda) və digər yerlərdə törətdikləridir. Çünki Fransa özündən çox-çox uzaqlarda, özgə torpaqlarında kimin necə yaşamalı olduğunu silah və kütləvi qətllərlə müəyyənləşdirməklə məşğul idi. İndi də elədir.

Deməli, məsələ dərindir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

---

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 27** **Bakı şəhəri, 18 yanvar 2024-cü il**

***"Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 24 mart tarixli 39 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 24 mart tarixli 39 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 3, maddə 171 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adı və 1-ci hissə üzrə:

1.1. "Olimpiya" sözündən sonra "və Paralimpiya" sözləri əlavə edilsin;

1.2. "və" sözü vergül işarəsi ilə əvəz olunsun və "məşqçilərinə" sözündən sonra ", milli yığma komandanın baş məşqçisinə və məşqçilərinə" sözləri əlavə edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş "Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara və onların məşqçilərinə xüsusi təqaüd verilməsi Qaydaları" üzrə:

2.1. adı üzrə:

2.1.1. "Olimpiya" sözündən sonra "və Paralimpiya" sözləri əlavə edilsin;

2.1.2. "və" sözü vergül işarəsi ilə əvəz olunsun və "məşqçilərinə" sözündən sonra ", milli yığma komandanın baş məşqçisinə və məşqçilərinə" sözləri əlavə edilsin;

2.2. 1-ci hissə üzrə:

2.2.1. hər iki halda "Olimpiya" sözündən sonra "və Paralimpiya" sözləri əlavə edilsin;

2.2.2. birinci halda "və" sözü vergül işarəsi ilə əvəz olunsun və "məşqçilərinə" sözündən sonra ", milli yığma komandanın baş məşqçisinə və məşqçilərinə" sözləri əlavə edilsin;

2.3. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Təqaüd Olimpiya və Paralimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış idmançılara, onların məşqçilərinə, milli yığma komandanın baş məşqçisinə və məşqçilərinə yalnız nağdsız qaydada ödənilir.";

2.4. 3-cü hissədə "əsas heyətin hər bir üzvünə, baş məşqçiyə və komandanın məşqçisinə" sözləri "idmançılara, milli yığma komandanın baş məşqçisinə və məşqçilərinə" sözləri ilə əvəz edilsin;

2.5. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Olimpiya Oyunları üzrə: hər ay hər bir idmançıya minimum əməkhaqqının 2 misli məbləğində, onun məşqçisinə, milli yığma komandanın baş məşqçisinə minimum əməkhaqqının 1,5 misli məbləğində təqaüd ödənilir.";

2.6. aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Paralimpiya Oyunları üzrə: hər ay hər bir idmançıya minimum əməkhaqqının 1 misli məbləğində, onun məşqçisinə, milli yığma komandanın baş məşqçisinə minimum əməkhaqqının 0,5 misli məbləğində təqaüd ödənilir.";

2.7. 5-ci hissənin ikinci cümləsinə "Olimpiya" sözündən sonra "və Paralimpiya" sözləri əlavə edilsin.

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

---

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 28** **Bakı şəhəri, 18 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 893-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1280) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nın 1.4-cü bəndinə "sifarişçinin" sözündən sonra "("Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin 10-1-ci hissəsi nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

---

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 29** **Bakı şəhəri, 18 yanvar 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 8 may tarixli 626 nömrəli, "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 591-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2013-cü il 10 aprel tarixli 861 nömrəli, "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2228 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 66 (Cild I) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.3-cü bənddə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qaydaya əlavə - "Elektron anketin forması"nın 19-21-ci, 30-cu, 31-ci və 35-ci hissələrində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

---

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 34** **Bakı şəhəri, 19 yanvar 2024-cü il**

**"Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 398 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"-nin cədvəlinin 25-ci hissəsinin "cəmi" və "aparat üzrə" sütunlarında "19" rəqəmləri "22" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Hazırlıqlar davam etdirilir

## Könüllülər ilk dəfə səs verəcək seçiciləri məlumatlandırırlar

**Növbədənkənar prezident seçkilərinin azad və ədalətli keçirilməsi üçün seçicilərin maarifləndirilməsinin rolu böyükdür. Bu məqsədlə Azərbaycan Könüllü Təşkilatlar İttifaqı (AKTİ) yaradılıb. AKTİ-nin üzvləri xüsusilə gənc seçicilərin maarifləndirilməsi istiqamətində fəaliyyətlərini genişləndiriblər.**






Mərkəzi Seçki Komissiyası ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən "Seçki könüllüləri" qrupunun fəaliyyəti çərçivəsində könüllülər tərəfindən ölkəmizin ümumi inkişafına böyük töhfə verən və ilk dəfə səsvermədə iştirak edəcək gənclərimizə seçki prosedurları ilə bağlı maarifləndirici bukletlər paylanılır. Seçki könüllüləri paytaxtın müxtəlif ərazilərində, Naxçıvan Muxtar Respublikası, Gəncə, Mingəçevir və Sumqayıt şəhərlərində fəaliyyət göstərəcəklər.

"Seçki könüllüləri" qrupunun məqsədi gənclər arasında seçki hüququ və mədəniyyəti, seçkidə fəal iştirakı ehtiva edən vətəndaşlıq vəzifəsinin təbliğ edilməsi, xüsusilə də ilk dəfə seçici kimi iştirak edəcək gənclərin məlumatlılıq səviyyəsinin və seçici fəallığının artırılmasıdır.

## Səbaildə komissiya üzvləri maarifləndirilir

**Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar 7 saylı Səbail seçki dairəsinin dairə seçki komissiyasında məntəqə seçki**



**komissiyalarının üzvləri treninqlərə cəlb olunublar. Təlimlər yanvarın 22-dək davam edəcək. Treninqlərin əsas məqsədi aşağı seçki komissiyaları üzvlərinin məlumatlılığının, peşəkarlığının artırılmasıdır. Treninqlərdə ümumilikdə 41 məntəqədən 246 nəfərin iştirakı nəzərdə tutulub. Məşğələləri Mərkəzi Seçki Komissiyasının (MSK) təlim kursunda iştirak edən Hikmət İsmayılov və Anar Əhmədov aparırlar.**

Məntəqə seçki komissiyasının üzvləri seçki məntəqələrinin səsverməyə hazırlanması, seçki günü müstəsna hallar, səsvermənin nəticələri haqqında rəsmi protokolların doldurulması, bütün seçki günü prosedurları barədə aydın və müfəssəl məlumatlandırılırlar. Hər bir iştirakçıya təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün (MSK) tərəfindən hazırlanan əyani vəsaitlər, bukletlər yaddaş kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi verilir.

Seçkilərin demokratik, azad və şəffaf keçirilməsi üçün bütün imkanlardan istifadə olunub. Dairədən verilən məlumata görə, seçkilərə hazırlıq işləri uğurla davam etdirilir. Bu məqsədlə seçki komissiyasının üzvlərinin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb. Məntəqələr seçki kabinələri, təşviqat, məlumat, seçici siyahısı lövhələri, generatorlar, elektrik fənərləri, daşınmaz və daşınan seçki qutuları ilə təmin edilib. Həmçinin məntəqələr qeydiyyat dəftərləri, Seçki Məcəlləsi, prezident seçkiləri ilə bağlı təlimatlarla da təmin olunub. Seçkilərdə şəffaflığın təmin olunması üçün seçki məntəqələrinin 12-sində veb-kameralar quraşdırılıb.

Dairənin əhatəsində məskunlaşmış 23 nəfər sağlamlıq imkanları məhdud seçicilərin səs verməsi diqqət mərkəzindədir. Bu qəbildən olan seçicilər üçün panduslar quraşdırılıb. Seçki məntəqəsinə gələ bilməyən sağlamlıq imkanı məhdud insanların rahat səs verə bilməsi üçün onların evlərinə daşınan qutular aparılacaq. Diqqətçəkən məqamlardan biri də dairənin ərazilərindəki klinikalarda müalicə alan xəstələrin səsvermədə iştirakı üçün lazımi şəraiti yaradılacaq.

## Aşağı seçki komissiyaları üzvləri üçün təlim

**Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən yanvarın 17-dən start verilən aşağı seçki komissiyalarının üzvləri üçün treninq proqramı çərçivəsində 44 saylı üçüncü Sumqayıt, 46 saylı beşinci Sumqayıt və 47 saylı Sumqayıt–Abşeron-Qaradağ seçki dairələrində treninqlər müvəffəqiyyətlə davam etdirilir. Maarifləndirmə tədbirini MSK-nın təşkil etdiyi "Trenerlər üçün treninq" kursunda iştirak etmiş dairə komissiyalarının üzvləri aparır. Treninqlərə aşağı seçki komissiyasının bütün üzvləri cəlb olunublar.**



Tədbir iştirakçılarına seçki gününə dair sənədlərin tərtibi, prosesin gedişi, seçici–məntəqə komissiya üzvünün münasibətləri və digər vacib məsələlər izah olunur. Bununla yanaşı, səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim edilib.

## Məqsəd peşəkarlığı gücləndirməkdir



**Növbədənkənar prezident seçkilərinin mütəşəkkil və insidentsiz keçirilməsi üçün aşağı seçki komissiyası üzvlərinin də üzərinə ciddi vəzifələr düşür. Bu məqsədlə maarifləndirmə proqramı çərçivəsində keçirilən treninqlərin növbəti ünvanı 116 saylı Qəbələ seçki dairəsində aşağı seçki komissiyalarının üzvləridir. Hazırda seçki məntəqələrinin 354 üzvü treninqlərə cəlb olunub.**

Yanvarın 17-dən başlanan treninqlərdə dairənin tərkibində olan 59 seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri iştirak edirlər. Məşğələləri Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən təşkil olunmuş təlim kursunda iştirak etmiş Aqil Kərimov və Rəşad Mürşüdov aparırlar. Təlim prosesində iştirakçılara MSK tərəfindən tərtib edilmiş xüsusi proqram və slaydların köməyi ilə məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri barədə məlumat verilir. Bundan başqa, seçki günü prosesləri, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, yekun protokolun doldurulması barədə də təlim keçirilir və digər məsələlər barədə metodiki məlumatlar verilir.

Ötən seçkilərin təcrübəsi də təsdiqləyir ki, seçkilərin şəffaf keçirilməsi məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsindən çox asılıdır. Ona görə də, komissiya üzvlərinin peşəkarlıq səviyyəsinin, bilik və bacarıqlarının daha da artırılması vacib məsələlərdəndir. Aşağı seçki komissiyasının üzvləri seçki günü üzərlərinə düşən vəzifələri dəqiq bilməli və layiqincə yerinə yetirməlidirlər.

## Bilik və bacarıqlar daha da təkmilləşdirilir

**Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar maarifləndirmə proqramı çərçivəsində tədbirlər bütün ölkə üzrə davam edir. Yanvarın 19-da 21 saylı Nəsimi-Binəqədi seçki dairəsinin məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün treninqlər təşkil edilib. Treninqlərdə əsas məqsəd aşağı seçki komissiyaları üzvlərinin bilik və peşəkarlığını artırmaqdır. Treninqi 21 saylı Nəsimi-Binəqədi seçki dairəsinin dairə seçki komissiyasının sədri Çingiz Dadaşov və dairənin üzvü Leyla Həşimova aparırlar.**



Treninqlər zamanı MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, qarşılaşdıqları problemlərdən çıxış yolu barədə məlumat verilib. Bununla yanaşı, səsvermə otağının təşkil edilməsi qaydası, seçki günü müşahidəçilərin hüquqları, məntəqənin açılması, səsvermə ilə bağlı məlumatların verilməsi saatları da diqqətə çatdırılıb. Təlim iştirakçıları, eyni zamanda, səsvermədə iştirak edən vətəndaşların barmağının mürəkkəblə işarələnməsi, bənövşəyi lampa ilə yoxlanılması, hansı hallarda seçicinin səsvermə hüququndan istifadə edə bilməyəcəyi barədə də məlumat verilir. Həmçinin bir dairədən olan seçicinin başqa dairədə necə səs verməsi, bu halda hansı qaydaların gözlənilməsi məsələləri ətraflı izah olunub. Təlim iştirakçılarına yaddaş kitabçası və digər zəruri əyani vəsaitlər, təlimatlar təqdim edilib.

Treninqlərdə aşağı seçki komissiyasının üzvlərinə səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki materialları və avadanlığının, seçki qutularının hazırlanması, əlavə seçici siyahıları, seçki otağının təşkili qaydaları barədə də məlumat verilir. Treninqə cəlb olunanlar müəyyənləşdirilməmiş seçki bülletenləri, hüquq-mühafizə orqanlarına müraciət edilməsi zəruri olan hallar, səsvermə saatlarında tədbirlər və digər məsələlər barədə məlumatlandırılıb.

Növbədənkənar prezident seçkilərində şəffaflığın və aşkarlığın təmin edilməsi üçün məntəqə seçki komissiyalarında hər cür şəraitin yaradıldığı, komissiya üzvlərinin normal fəaliyyəti üçün zəruri avadanlıqlarla təchiz olunduğu barədə məlumat verildi.

## "Seçki günü üçün yaddaş kitabçası"

**Mərkəzi Seçki Komissiyası (MSK) 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi proqramı çərçivəsində "Seçki günü üçün yaddaş kitabçası" hazırlayıb.**




MSK Katibliyinin media və kommunikasiya şöbəsindən bildiriblər ki, layihənin həyata keçirilməsində məqsəd məntəqə seçki komissiyaları üzvlərinin seçki günü prosedurları barədə biliklərinin artırılması, məlumatlılıq və peşəkarlıq səviyyəsinin yüksəldilməsi, fəaliyyətlərinin daha da təkmilləşdirilməsindən ibarətdir.

Nəşrdə seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki məntəqəsinin açılması, səsvermə saatlarında tədbirlər, səsvermə prosesində müstəsna hallar, seçki məntəqəsinin bağlanması, səslərin hesablanması və səsvermənin nəticələri barədə rəsmi protokolların doldurulması da daxil olmaqla, bütün seçki günü prosedurları ilə bağlı aydın və müfəssəl məlumat verilib.

Seçki Məcəlləsinin müvafiq müddəaları və MSK-nın təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında hazırlanan yaddaş kitabçası dairə və məntəqə seçki komissiyalarının üzvlərinə, müşahidəçilərə, habelə maraqlanan seçki subyektlərinə çatdırılıb.

"Seçki günü üçün yaddaş kitabçası"nı aşağı seçki komissiyalarından, eləcə də Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsindən (www.msk.gov.az) əldə etmək mümkündür.

## Masallıda seçki treninqləri



**Masallı rayonunda məntəqə seçki komissiyalarının üzvlərinin maarifləndirilməsi üçün treninqlər davam edir. Treninqlərin keçirilməsində əsas məqsəd onların bilik, bacarıq və peşəkar vərdişlərinin gücləndirilməsidir.**

Bununla yanaşı, seçkilərə hazırlıq, seçkilərin keçirilməsi, məntəqə seçki komissiyalarının fəaliyyətlərinin təşkili də qarşıya qoyulmuş prioritet vəzifələrdəndir. Gün ərzində iki dəfə keçirilən treninq zamanı seçki günü məntəqə seçki komissiyaları üzvlərinin rolu və vəzifələri, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, yekun protokolun doldurulması və digər mövzularda müzakirələr aparılır. Aşağı seçki komissiyasının üzvlərini maraqlandıran suallar cavablandırılır.

Maarifləndirmə proqramına uyğun keçirilən treninqlər zamanı, həmçinin səsvermə proseslərinə dair praktiki tapşırıqlar da icra edilir. Tədbirin bütün iştirakçılarına təlimlərdə istifadə etmək və yaxından tanış olmaq üçün MSK tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi, bir sıra digər zəruri material və vəsaitlər verilir.

*Səhifəni hazırladı:*
*Əliqismət BƏDƏLOV*
*XQ*

# Şəhidlər uyuyan bu dağ Vətəndir!

## Günün reportajı







**Düz 34 il bundan əvvəl – 1990-cı il yanvarın 20-də təpədən-dırnağadək silahlanmış sovet ordusunun Azərbaycan xalqının azadlıq istəyini boğmaq məqsədilə törətdiyi facAiə qan yaddaşımıza dönüb.**

Bu gün həm qürur, həm də ürəkağrısı ilə qeyd etdiyimiz 20 Yanvar faciəsi heç zaman unudulmayacaq. Şaxtanın qılınc kimi kəsdiyi qanlı şənbə gecəsində günahsız və əliyalın insanları qanına qəltan edənlər nifrətlə xatırlanır, şəhadətə yüksələn azadlıq arzulu insanlarsa böyük ehtiramla anılır. Onları buna görə daim urvatda tuturuq ki, gələcək nəsillər də xəbərdar olsunlar, unutmasınlar.

Əbədiyyətə qovuşanlar arasında gənclər çoxdur, eyni zamanda qadınlar, uşaqlar və qocalar, təcili yardım və polis əməkdaşları da olub. Bu isə vəhşi hərbçilərin ağına-bozuna baxmadan "atəşfəşanlıq" etdiklərinin sübutudur. Qanlı hadisələrdən 34 il keçməsinə baxmayaraq, Azərbaycan xalqı o müdhiş gecənin qəhrəmanlarının xatirəsini ehtiramla yad edir.

Neçə gündür ki, Bakının ən uca yeri – Şəhidlər xiyabanı yenə ziyarətçilərlə doludur. Hələ faciənin ildönümünə hazırlıq işləri davam etdiyi bir vaxtda buraya gələnlərin ardı-arası kəsilmirdi. Onların arasında müxtəlif idarə və təşkilat nümayəndələri, dövlət qurumlarının əməkdaşları, Vətən müharibəsi qaziləri, hərbi qulluqçular, veteranlar, QHT təmsilçiləri və şəhidlərin ailə üzvləri, qohum və yaxınları, sağlıqlarında şəhidləri şəxsən tanımasalar da, adları ilə fəxr edən sadə vətəndaşlar da var.

**İnkişafa və İslahatlara Dəstək İctimai Birliyinin sədri Ramil Əliyev deyir:**



– Düz 34 il keçsə də, ki, biz bu tarixi bir an belə unutmadıq. Məhz bu tarixdə–1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı ən qəddar cinayətlərdən biri baş verib. Mixail Qorbaçovun başçılığı ilə Sovet rejimi Bakıda əsl qətliam törədib – yerli və mərkəzi hökumətdən Qarabağ münaqişəsinin ədalətli həllini tələb edən dinc əhalidən qisas alınıb.

Müdafiə naziri marşal Yazovun rəhbərlik etdiyi 20 min nəfərlik ordu hissələri ölkədə Kommunist Partiyasının hakimiyyətini qorumaq məqsədilə Bakı şəhərinə soxulub. "Zərbə" kod adı verilən hərbi müdaxilə nəticəsində yüzlərlə insan öldürülüb, yaralanıb, qanunsuz olaraq həbs edilib, itkin düşüb. Bununla belə, 20 Yanvar faciəsi xalqımızın yaddaşında hüzn və kədər, qürur və qəhrəmanlıq səhifəsi kimi qalıb. O gecə şəhidlərin qanı ilə Azərbaycanın yeni tarixi yazılıb. Dövlət müstəqilliyimizin bərpası, azadlığımız üçün ilk növbədə 20 Yanvar şəhidlərinə borcluyuq. Yanvar faciəsinin ertəsi günü o vaxt Moskvada yaşayan ümummilli lider Heydər Əliyev Azərbaycanın Rusiyadakı daimi nümayəndəliyinə gəlib, burada xalqımızın kədərini bölüşüb və kommunist rejiminin respublikamızda həyata keçirdiyi qanlı aksiyanı qətiyyətlə pisləyən bəyanatla çıxış edib. Böyük liderin bu addımı xalqımıza güc verib, ona dayaq və dəstək olub.

20 Yanvar xalqımızın tarixində təkcə faciə deyil, həm də istiqlal mücadiləsinin qələbəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Sovet imperiyasının əsarətində yaşamağa məhkum olan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

Faciənin növbəti ildönümü ilə əlaqədar əllərində üçrəngli Azərbaycan bayrağı, qırmızı qərənfillər və şəhid şəkilləri tutan məktəblilər də müqəddəs məkanın ziyarətinə tələsirlər. Vəhşilik, ölüm-itim nə olduğunu bilməyən, məsum baxışları ilə irəliyə boylanan, sabahımızın sahibləri olacaq bu körpə fidanlar nahaq yerə ölümsaçan güllələrin həyatlarına son nöqtə qoyduğu günahsız Vətən oğullarının məzarları üstünə tər çiçəklər düzür, "Allah rəhmət eləsin" deyirlər.

**Onlara yaxınlaşırıq. Səbayıl rayonu Rafael Hüseynov adına 49 saylı məktəbdə oxuduqlarını bildirirlər. 20 Yanvar hadisələri barədə nə düşündüklərini soruşuruq. Şagirdlərdən biri – Elvin Səmədov 20 Yanvar günündə günahsız insanlarımızın şəhid olduqlarını deyir:**



– Şəhidlər haqqında, Vətən övladlarının qəhrəmanlıqları barədə evdə valideynlərim, məktəbdə müəllimlərim danışıblar, kitablardan da oxumuşam. Fəxr edirəm ki, indi də müqəddəs şəhidləri ziyarət etməyə gəlmişəm. Onların xatirəsi əzizdir. Hər birini daim ehtiramla yad edirik. Çünki alovsaçan silahlardan qorxmayaraq, azadlıq naminə meydanlara axışıblar.

**Sonra balaca müsahibimiz bir bənd şeir söyləyir:**

**20 Yanvar günü, o qanlı gecə,**
**Silahsız xalqıma divan tutdular.**
**Azadlıq deyərək toplaşan xalqa**
**Odlu silahlarla atəş açdılar.**

Biz məktəblilər inanırıq və ümid edirik ki, qəhrəman xalqımız hər zaman möhkəm və güclü olacaq.

**Məktəbin kimya-biologiya müəllimi Gülşən Şahməmmədova uşaqlarla söhbətimizə qoşulur:**



– Hər dəfə eyni şövqlə bu misraları təkrarlayırlar. Mən özüm 1990-cı ildə baş vermiş həmin faciənin şahidlərindənəm. Həmin gün imtahan vermək üçün Azərbaycan Pedaqoji Universitetinin Bayıl ərazisindəki korpusuna tərəf gedirdim. Şahid oldum ki, "Azneft meydanı"ndan tanklar əli yalın insanlara atəş açaraq irəliləyirlər. Həmin anları indi də xatırlayanda qəlbimdən qara qanlar axır.

**G.Şahməmmədova həmin hadisələr zamanı necə sağ qalmağından da danışdı:**

– O gün yaşlı bir kişi güllə mənə dəyməsin deyə, üzərimə atıldı, ancaq özü yaralandı. Şoka düşdüm. Onu bilirəm ki, çox yerdə asfalt qana boyanmışdı, bax, burada yatan şəhidlərimin qanı... İnsanlar da qan ağlıyırdı. Kimi qardaşını, kimi atasını, anasını, kimi də canından şirin olan övladını bu faciədə qurban vermişdi. Biz onlara hər zaman borcluyuq. Allah şəhidlərimizə qəni-qəni rəhmət eləsin.

Şagirdlər qara mərmər lövhələrdən boylanan hər bir şəhidin qarşısında ayaq saxlayır, onların kimliyi, həlak olduğu şərait barədə müəllimlərinin danışdığı hekayətlərə qulaq kəsilirlər. Bu gün eşitdikləri əhvalatlar, şəkillərini gördükləri nurlu simalar, aldıqları təəssüratlar heç vaxt onların yadından çıxmayacaq...

"Bu uşaqlara baxanda bir daha əmin oluram ki, Vətənimiz belə övladlarımızın çiyinlərində hər zaman böyüyəcək, inkişaf edəcək". – Bu sözləri isə Şəhidlər xiyabanının qarşısındakı yoldan keçən ziyarətçilərimizdən biri deyir. Özünü təqdim etməyini xahiş edirik. Tanış oluruq. Bu, Bakı Dövlət Universitetinin estetika kafedrasında çalışan Aydın Kərimovdur. Qanlı Yanvar faciəsinin onun yaddaşında nə kimi izlər qoyduğunu soruşuruq.

– Yanvarın 19-u mən Qubaya getmişdim, – deyə cavab verir. – Elə həmin gün də qayıtmalı oldum. Bakıya gələndə fərqli mənzərə ilə qarşılaşdım. Yolun sağ tərəfi tanklarla, BTR-lərlə dolu idi. Sonra mənə zəng gəldi ki, sovet ordusu paytaxtımıza qoşun yeridib, ehtiyatlı olun. Birtəhər evə gəldim. Gecə məlum oldu ki, doğrudan da, tanklardan əhaliyə atəşlər açılıb. Xalq həmin gün meydanlara yığılmışdı. Gecəylə əsgərlər "Sahil" metrostansiyasının qarşısını bağlamışdılar. Elə həmin gün elə atışma başladı. Təsəvvür edirsinizmi, əliyalın, dinc insanlara qarşı birtərəfli qaydada vuruşan ordu!.. Nə gözləmək olardı ki? Minlərlə insan mərdcəsinə, əliboş olsa da, qəlbi, mənəviyyatı dolu şəkildə tankların qabağına çıxırdı. Mənim bir dostum var idi, onun qızı da həmin gecə şəhid oldu: Larisa Məmmədova... Nə deyim, Allah onlara rəhmət eləsin.

**Bakıdakı 133 nömrəli tam orta məktəbin müəllimi Aliyə Hüseynova bu günün xalqımızın qan yaddaşından silinmədiyini qeyd edir:**

– Bir müəllimə olaraq bu gün özümə borc bilirəm ki, şagirdləri gətirib tarixin qan yaddaşını əyani şəkildə göstərim. Azərbaycan xalqının qəhrəmanlıqları danışmaqla bitib-tükənmir, biz bu qəhrəmanlığı şagirdlərimiz ilk dərsə gəldiyi gündən öyrədir və Vətənə, torpağa sevgini ən incə detalları ilə başa salırıq.

20 yanvar faciəsi sovet hakimiyyətinin Azərbaycan xalqına qarşı ən amansız hazırlanmış etnik təmizləmə siyasəti idi, lakin xalq olaraq, millət olaraq biz ən ağır günlərimizdə bir olmağı bacardıq. Bakıya yeridilmiş silahlı dəstələrin qarşısına əliyalın çıxdıq. Azad ölkəmizin bugünkü rifahını canından keçən ömrünü Vətənin azadlığına qurban verən şəhidlərimizə borcluyuq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**AMEA-nın Botanika İnstitutunun elmi işçisi, dosent Yusif Eyvazov da qədirbilən xalqımızın böyük mübarizəsindən qürurla danışır:**



– 20 Yanvar hadisələrinin canlı şahidiyəm. O günləri öz gözlərimlə görmüşəm. O dövrdəki hadisələr, oyanış hərəkatı olmasaydı, biz bu gün belə yaxşı vəziyyətdə olmazdıq. Həmin günlərdə xalq ölümdən qətiyyən qorxmurdu. Həqiqətən çox ağır gün idi. Bu böyük milli hərəkat idi. Biz fərx edirik ki, belə igidlərimiz var, onlar hər zaman bizim qəlbimizdə yaşayacaqlar. Şəhidlərin hamısı cənnətməkandır...

**Ziyarətçilər arasında Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) strateji inkişaf məsələləri üzrə prorektoru Araz Aslanlı ilə qarşılaşırıq. O da hər bir azərbaycanlı kimi bu müqəddəs ziyarət yerinə mənəvi borcu olaraq gəldiyini bildirir:**



– 20 Yanvar Azərbaycan tarixinin ən böyük qəhrəmanlıq dastanlarından biridir. Bu gün əldə etdiyimiz bir çox tarixi zəfəri – müstəqilliyimizi, suverenliyimizin tam bərpa olunmasının başlanğıc nöqtəsi 20 Yanvardakı şanlı mübarizəmizdir. O gecə yazılan qəhrəmanlıq dastanı xalqımızın ümid mənbəyi oldu. Biz həmin mübarizə sayəsində, sadəcə, müstəqilliyimizi əldə etməklə qalmadıq, eyni zamanda gələcəyə ümidlə baxdıq. Bilirdik ki, xalqımızda olan azadlıq, müstəqillik ruhu, həmçinin qorxmazlıq, cəsurluq bizi daim gələcəyə aparacaq. 20 Yanvar gecəsinin tarixi davamı olan 44 günlük müharibədə əldə etdiyimiz zəfər, eyni zamanda 2023-cü il sentyabr ayında keçirilən lokal xarakterli antiterror tədbirləri bütöv Azərbaycanın tarixi parçalarıdır. Bu gün bir daha bütün şəhidlərimizi yad edirik, Allahdan onlara rəhmət diləyirik. Çünki onların qəhrəmanlıq mübarizəsi nəticəsində biz bu gün suverenliyimizi bərpa etmişik. Dünyada qalib xalq kimi tanınırıq.

**Azərbaycan Milli Konservatoriyasının nəzdində Respublika İncəsənət Gimnaziyasının müəllimi Ramella Əliyeva:**

– 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş verən qanlı qətliam, onun dəhşətli nəticələri, yüzlərlə günahsız insanın güllələbaran edilməsi illər, əsrlər keçsə belə, yaddaşımızdan silinə bilməz. Azərbaycan xalqının başına tarix boyunca bu günə qədər çox müsibətlər açılıb, lakin xalqımızın əzmini, iradəsini heç bir zaman sındıra bilməyiblər. Hər dəfə yenidən dirçəlib ayağa qalxmış, uca məramımıza, haqq işimizə doğru yürümüşük. Bunu lap yaxın keçmişdə – 3 il öncə igid, qəhrəman oğullarımız bütün



dünyaya bir daha sübut etdilər. Doğma Qarabağımızı, Şərqi Zəngəzurumuzu işğalçılardan təmizlədilər.

Bu gün də 20 Yanvar şəhidlərini dərin hörmətlə anırıq. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması məqsədilə faciənin ibrət dərslərini şagirdlərə bütün açıqlığı ilə, faktlarla çatdırılmasına çalışırıq.

**Ziyarətə gələnlərin ardı-arası kəsilmək bilmir. Onlardan biri – Mərkəzi Elmi Kitabxananən direktoru, professor Məmməd Əliyevdən ürək sözlərini söyləməsini xahiş edirik. Məmnuniyyətlə müsahibə verir:**

– Gənclərimiz tarixi həqiqətləri bilməlidirlər. Yaxın tariximizin öyrənilməsi və



araşdırılması vacib vəzifədir. 1990-cı ilin 20 Yanvar faciəsi də öyrənilməli və gələcək nəsillərə olduğu kimi çatdırılmalıdır. Qan yaddaşımıza əbədi həkk olunmuş bu hadisələr tariximizin özündə faciə və qəhrəmanlığı ehtiva edən unikal səhifə, Azərbaycanın sonrakı taleyinə əhəmiyyətli təsiri olan dönüş anıdır.

20 Yanvar hadisələrinin Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həm rəmzi mənası, həm də fenomenal rolu oldu. Faciənin yaratdığı ictimai-siyasi reallıq süqutu yaxınlaşan SSRİ-də və soyuq müharibənin bitməsi ərəfəsində beynəlxalq arenada formalaşan geosiyasi situasiya fonunda əvvəlcə Azərbaycan SSR-də, sonra müstəqil Azərbaycanda zəncirvarı tarixi proseslərə təkan verdi.

Bu hadisələr milli məfkurənin inkişafına güclü təkan vermiş oldu. Qürurla deyə bilərəm ki, 20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, istiqlal yolumuzun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

20 Yanvar hadisələri, eyni zamanda Azərbaycan xalqına qarşı törədilmiş siyasi terror kimi də qiymətləndirilməlidir. İşğalçılıq siyasəti ilə Azərbaycanın suverenliyinə qəsd etmiş, xalq hərəkatını boğmaq üçün bədnam kommunist ideologiyası libasında köhnə imperiya iddialarını həyata keçirmək məqsədilə bu faciəni təşkil etmiş Sovet İttifaqı Kommunist Partiyası, Sovet dövləti və hökuməti rəhbərliyinin, şəxsən Mixail Qorbaçovun Azərbaycan xalqına qarşı ağır cinayət törətdiyi danılmaz faktdır.

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva:**

– Bu günlər xalqımızın qan yaddaşın-



da həmişəlik qalacaq. Çünki 34 il əvvəl Azərbaycanın azadlığı yolunda şəhid olan 20 Yanvar faciəsinin qurbanları öz qanları ilə tariximizə əbədiyyət salnaməsi yazıblar. Bu tarix bizi bir yumruq kimi birləşdirdi və bütün dünya azərbaycanlılarının gücünü dünyaya bəyan etdi. Bu hadisə nəinki Azərbaycanı, bütün dünyanı lərzəyə gətirsə də, o zaman yerli hakimiyyət orqanları baş verənlərin üzərindən sükutla keçməyə üstünlük verdi, xalqın milli faciəsinə laqeyd münasibətini ortaya qoyaraq Kremlin qəzəbinə tuş gəlməkdən çəkindi. O ağır və faciəli günlərdə Azərbaycan xalqına qarşı bu siyasi terrorun, vəhşi aktların həyata keçirildiyini ilk olaraq cəsarətlə bütün dünyaya bəyan edən Ulu öndər Heydər Əliyev oldu. Məhz ulu öndər baş verən hadisələri hüquqa, demokratiyaya, hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab etdiyini Moskvada çəkinmədən söylədi. Yüzlərlə insanın qətlə yetirilməsini Azərbaycan xalqına qarşı qatı cinayət adlandıraraq hadisəyə siyasi qiymət verilməsini tələb etdi.

Bu gün Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir məkan var. Bura 20 Yanvar faciəsi qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır.

İllər ötsə, nəsillər dəyişsə də, xalqın həyatında baş verən hadisələr tarixə çevrilir. Xalqımızın qan yaddaşına yazılan hadisələrdən biri olan 20 Yanvar faciəsi heç zaman unudulmur. Ulu öndər Heydər Əliyevin təbirincə desək, 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli, qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir.

***Əli NƏCƏFXANLI,***
***Anar TURAN,***
***Ayşən AZADOVA,***
***Şahanə XANKİŞİYEVA,***
***Elşən AĞALAR (foto)***
***XQ***

# Azərbaycan – dünyanın “yaşıl enerji” nümunəsi

## *Bərpaolunan enerjinin payı hazırda 17 faizə yüksəlib*

**Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası ekoloji problemlərin operativ həllinə, ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradır. Bunun nəticəsidir ki, respublikamızda təmiz ekoloji mühitin gerçəkləşdirilməsi məqsədilə mövcud təbii resursların dayanıqlı və səmərəli istifadəsi, tullantıların idarə edilməsi ilə bağlı infrastrukturun yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycanın 2050-ci ilə qədər istixana effekti yaradan qazların emissiyası həcminin 40 faizə qədər azaldılmasının, habelə düşməndən təmizlənən ərazilərimizdə “təmiz 0” emissiya zonasının yaradılmasının şərti hədəf kimi götürülməsi də bunun bariz ifadəsidir.**



Son dövrlər ölkəmizdə sözügedən məsələyə xüsusi diqqət yetirilib. Təkcə ötən il bu sahədə bir sıra mühüm layihələr reallaşdırılıb. Məsələn, MDB-də ən böyük və Xəzər dənizi regionunda ilk sənaye miqyaslı günəş elektrik stansiyası–230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası (GES) istismara verilib. Eyni zamanda həmin açılış zamanı digər yeni layihələrin də əsası qoyulub: “Masdar” şirkəti ilə Neftçalanın Bankə qəsəbəsində 315 MVt-lıq, Biləsuvarda isə 445 MVt-lıq GES və Abşeron–Qaradağ rayonları ərazisində 240 MVt-lıq külək elektrik stansiyasının (KES) tikintisi ilə bağlı, ümumilikdə, 1 qiqavat bərpaolunan enerji mənbəyinin istismara buraxılmasını özündə ehtiva edən üç yeni layihə imzalanıb. Bərpaolunan enerjinin payı isə hazırda 17 faizə yüksəlib.

Hesabat ilində “yaşıl enerji”nin reallaşdırılması ilə bağlı normativ hüquqi bazanın formalaşdırılması da diqqətdə saxlanılıb. “Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında” qanundan irəli gələn 4 alt qanunvericilik aktı təsdiq olunub. “Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası”nda bağlanan müqavilələr və keçiriləcək hərraclarla bağlı hüquqi çərçivə müəyyənləşdirilib. Bununla da investorların fəaliyyətinə əlverişli zəmin yaradılıb. Eyni zamanda fəal istehlakçıların dəstəklənməsi və “yaşıl sertifikatlar”la bağlı qaydalar təsdiqlənib. Bütün bunlarla bərabər, bərpaolunan enerji mənbələri üzrə informasiya sistemi formalaşdırılaraq artıq istifadəyə verilib.

Respublikamızda ixrac potensialının gücləndirilməsi ilə bağlı da ciddi layihələr icra edilib. Belə ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan dördtərəfli müqavilənin həyata keçirilməsi ilə əlaqədar işlər görülüb, keçirilən tenderin nəticəsində artıq qalib şirkətlə bu ilin ilk günlərində müqavilə imzalanıb.

Məlum olduğu kimi, bu sazişdə Azərbaycan və Rumıniya arasında “yaşıl enerji”nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi nəzərdə tutulub. Sənədə əsasən, Xəzər dənizi üzərində və ətrafında yaradılacaq bərpaolunan enerji mənbələrində istehsal olunan “yaşıl enerji”nin Azərbaycandan Gürcüstana, oradan kabel xətti ilə Qara dənizin altından keçməklə Rumıniya və Macarıstana, daha sonra isə Avropa Birliyi ölkələrinə ötürülməsi, bununla da “Xəzər – Avropa Birliyi Yaşıl Enerji Dəhlizi”nin yaradılması tərəflər arasında əsas prioritet olaraq qəbul edilib.

Qara dənizin dibi ilə çəkiləcək 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda olan kabel ölkəmizdə istehsal edilən “yaşıl enerji”nin Avropaya ixracına imkan yaradacaq. Beləliklə, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyini daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

Ötən il, həmçinin “yaşıl enerji” ilə bağlı ilk Yaşıl Enerji Məşvərət Şurası keçirilib. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Yaşıl Enerji Zonasının yaradılması ilə bağlı tədbirlər reallaşdırılıb. Naxçıvandan Türkiyəyə elektrik enerjisinin ixracı istiqamətində də çox ciddi layihələrin icrasına başlanılıb.

Azərbaycanın bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a evsahibliyi edəcəyi önəmli hadisədir. Miqyasına görə, heç də BMT-nin Baş Assambleyasından geri qalmayan bu tədbirin Azərbaycanda keçirilməsi ölkəmizin artan nüfuzunun ən bariz göstəricilərindən biridir. Yeri gəlmişkən, respublikamızın BMT-nin Təhlükəsizlik Şurasına üzvlüyü, eyni zamanda, ölkəmizin Qoşulmama Hərəkatında sədrliyi ilə paralel, bu, haqlı olaraq Azərbaycan diplomatiyasının ən böyük uğurlarından bir kimi dəyərləndirilir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Yaşıl Enerji Zonasının yaradılması istiqamətində görülən işlərə də toxunmaq istərdik. Xatırladaq ki, işğaldan azad olunmuş ərazilər Yaşıl Enerji Zonası elan edilib. Beynəlxalq məsləhətçi şirkətin cəlb olunması ilə həmin ərazilər üçün Yaşıl Enerji Zonası konsepsiyası hazırlanıb. Bununla bağlı Nazirlər Kabinetinin xüsusi sərəncamı ilə Tədbirlər Planı təsdiqlənib və həmin plan tam şəkildə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na daxil edilib.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurda ictimai binaların günəş panelləri ilə təchiz olunması, yolların və küçələrin işıqlandırılmasında bərpaolunan mənbələri əsaslı avadanlıqlardan istifadə, bununla yanaşı dayanacaqlarda və digər “yaşıl enerji” konseptləri də nəzərdə tutulur. Qazlaşmayan binalarda isə təbii ki, artıq istilik enerjisinin alınması üçün müəyyən qurğuların quraşdırılması və isti suyun əldə olunması üçün müəyyən yanaşmaların tətbiqi də planlaşdırılır.

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında xalis sıfır emissiyalı “Yaşıl enerji zonası” konsepsiyası mühüm əhəmiyyətə malikdir. Azərbaycanın gücünü ifadə edən bu nəhəng quruculuq prosesində adları çəkilən iqtisadi rayonların enerji ilə təminatı məqsədilə qısa müddətdə 1157 kilometrdən artıq müxtəlif gərginlikli elektrik verilişi xətti çəkilib, Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları inşa olunub, 20 yarımstansiya, ümumi gücü 75 MVt olan 13 stansiya bərpa edilərək istifadəyə verilib. Xankəndi şəhərinin Azərbaycanın enerji sisteminə qoşulması, düşməndən təmizlənən ərazilərimizin Şuşa yarımstansiyası vasitəsilə elektrik enerjisi ilə təminatı reallaşdırılıb.

Hazırda isə 119 MVt gücündə 13 stansiyada tikinti işləri aparılır. Həmçinin 140 MVt gücündə su elektrik stansiyalarının tikilib istismara verilməsi üçün tədbirlər davam etdirilir.

“Yaşıl enerji” zonasının yaradılması ilə bağlı 2022–2026-cı illəri əhatə edən tədbirlər təkcə bərpaolunan enerjinin inkişafı ilə məhdudlaşmır, enerji keçidinin bütün komponentləri üzrə fəaliyyəti də əhatə edir. Bu çərçivədə azad olunan ərazilərdə ümumi gücü 636 KVt olan Arximed qurğusu, 200-dən çox fərdi yaşayış evində günəş kollektoru, 170-dən çox evdə günəş paneli, ictimai və sosial binalarda ümumi gücü 800 kVt-dan çox olan günəş enerjisi sistemləri, 2300-ə yaxın LED lampalarla təchiz olunmuş və günəş enerjisi əsaslı, enerji səmərəli işıq dirəkləri, “ağıllı” dayancaqlar, elektrik doldurma məntəqələri quraşdırılıb.

Əlbəttə, sadalanan layihələr davamlı xarakter daşıyır və bütün səylər də bu innovativ təcrübənin geniş tətbiqinə, Qarabağ və Şərqi Zəngəzurun enerji səmərəliliyində nümunəvi bölgəyə çevirilnəsinə yönəldilir. Şübhəsiz ki, əsas məqsəd də dövlət başçısının vurğuladığı kimi, Qarabağ və Zəngəzurun dünyanın qibtə edəcəyi şəkildə qurulmasıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

**Dünən iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Dünya Bankının Avropa və Mərkəzi Asiya regionunun Davamlı İnkişaf üzrə regional direktoru Sameh Naquib Vahba ilə görüşüb. Tədbirdə Dünya Bankı ilə əməkdaşlığın genişləndirilməsi məqsədilə hazırlanmış Yol Xəritəsi təqdim edilib.**

## Dünya Bankı ilə əməkdaşlıq genişlənir



Görüşdə yaşıl və dayanıqlı şəhərlər, rəqəmsallaşma, gəmiqayırma sənayesinin inkişafı, bərpa olunan enerji mənbələrindən istifadənin artırılması, məşğulluğa dəstək və digər layihələr barədə məlumat verilib.

Dünya Bankının Azərbaycanla əlaqələrindən məmnunluğunu ifadə edən regional direktor əməkdaşlığın genişləndirilməsi məqsədilə hazırlanmış Yol Xəritəsinin tərəfdaşlığı gücləndirəcəyini diqqətə çatdırıb. O, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı təbriklərini çatdırıb, təşkilatın bununla bağlı ölkəmizə dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüşdə Azərbaycan və Dünya Bankı arasında işbirliyinin müxtəlif istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb, qurumun ölkəmizdə xüsusilə şəhər, su və kənd təsərrüfatı sahələrində həyata keçirdiyi proqramlar və gələcək layihələr müzakirə edilib.

## 30 faiz çox Günəş enerjisi

**Energetika Nazirliyindən verilən məlumata görə, hesabat ilində günəş elektrik stansiyalarında 79,4 milyon kVt-saat enerjisi istehsal edilib ki, bu da 2022-ci ilin göstəricisi ilə müqayisədə 30,4 faiz artım deməkdir.**



Məlumata görə, ötən il Bərk Məişət Tullantılarının Yandırılması zavodunda 223 milyon kVt-saat elektrik enerjisi istehsal edilib ki, bu da illik müqayisədə 8,6 faiz çoxdur.

***XQ***

## Dəniz daşımaları artıb

**Dövlət Statistika Komitəsindən bildirildiyinə görə, Azərbaycanda dəniz nəqliyyatı ilə 2023-cü ildə daşınan yüklərin həcmi 9 milyon 11 min ton olub və əvvəlki ilə nisbətən 20 faiz yüksəlib.**



Məlumata görə, dəniz limanları tərəfindən 13 milyon 375 min ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilib və yüklərin 11 milyon 49 min tonu və ya 83 faizi tranzit yüklər olub.

Statistika Komitəsinin məlumatında hesabat ilində ölkəmizdən keçən nəqliyyat dəhlizlərində daşınan tranzit yüklərin həcmi də açıqlanıb. Bildirilib ki, 2023-cü ilin 11 ayında Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 29 milyon 973 min ton olub.

## Kənd təsərrüfatında 12,2 milyard manatlıq məhsul istehsal olunub

**Ötən il ölkəmizdə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 12 milyard 210,6 milyon manat təşkil edib ki, bunun da 6 milyard 276,7 milyon manatı heyvandarlıq, 5 milyard 933,9 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, kənd təsərrüfatı istehsalı əvvəlki illə müqayisədə 3 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,2 faiz, bitkiçilik məhsulları üzrə isə 2,7 faiz artıb.

2023-cü ildə quş əti də daxil olmaqla diri çəkidə 647,7 min ton ət, 2 milyon 284 min ton süd, 2 milyard 188,2 milyon ədəd yumurta, 15,1 min ton yun və 357 ton barama istehsal olunub. İl ərzində ölkədə ət istehsalı 3,1 faiz, süd istehsalı 0,9 faiz, yumurta istehsalı 8,4 faiz, barama istehsalı 4,6 faiz artıb, yun istehsalı isə 3,9 faiz azalıb.

***XQ***

# Bakı–Supsa boru kəməri etibarlı ixrac marşrutudur

**Azərbaycanın neftinin Qərb istiqamətinə nəqlini həyata keçirən Bakı–Supsa kəmərinin işində müəyyən fasilələr yaransa da, sözügedən ixrac marşrutu bu gün də öz aktuallığını qoruyub saxlayır. Hazırda ölkəmiz Bakı–Supsa kəməri ilə, demək olar ki, neft ixrac etmir. Bununla belə, kəmərin fəaliyyəti tam dondurulmayıb. Neft nəqli üçün tam hazır vəziyyətdə olan bu kəmərdən istənilən an istifadə edilə bilər. Bakı–Supsa kəməri ilə neft bir ay öncədən təqdim olunan sifarişlər əsasında həyata keçirilir.**




Artıq dəniz qonşumuz, ölkəmizlə tranzit neft ixracı sahəsində fəal əməkdaşlıq edən Qazaxıstan adı çəkilən kəmərlə ildə 3 milyon tonadək neft nəql etməyi planlaşdırır. Bu barədə Qazaxıstanın Energetika Nazirliyindən məlumat verilib. Qeyd olunub ki, hazırda iki ölkə arasında bununla bağlı danışıqlar aparılır. “Azərbaycan tərəfi ilə illik 3 milyon tonadək həcmdə Qazaxıstan neftinin Bakı–Supsa kəməri ilə nəqli imkanlarının nəzərdən keçirilməsi məsələsi müzakirə olunur”, – deyə nazirliyin məlumatında bildirilib.

Bəzi mənbələrin məlumatına görə, Azərbaycan Qazaxıstana 2023-cü ildə Bakı–Supsa kəməri ilə 5 milyon ton neftin nəqlini təklif edib. Bunun da “Kaşaqan” yatağından çıxarılan neft olacağı güman edilirdi. Yayılan məlumatlar sırasında Azərbaycanın, həmçinin bu ölkəyə neftin Gürcüstanın Qara dəniz limanları vasitəsilə ixracını təklif etdiyi də yer alıb. Yeri gəlmişkən, “North Caspian” əməliyyat şirkətinin məlumatına görə, “Kaşaqan”ın çıxarıla bilən ehtiyatları təxminən 9-13 milyard barel (1-2 milyard ton) neft həcmindədir.

Bundan əlavə, Qazaxıstanın Energetika Nazirliyi onu da bildirib ki, 2024-cü ildə Bakı–Tbilisi–Ceyhan kəməri ilə 1,5 milyon ton qazax neftinin nəqli planlaşdırılır. Bu ölkənin magistral neft kəməri üzrə milli operatoru olan “Kaztransoil” şirkətinin məlumatına görə, ötən il Aktau limanından 3 milyon ton neft ixrac edilib ki, bu da 2022-ci ilin göstəricisi ilə müqayisədə 1 milyon 108 min ton və ya 49 faizə yaxın çoxdur. Məlum olduğu kimi, 2023-cü ildə “Kaztransoil” şirkəti Bakı limanı istiqamətində neft tədarükünü 1 milyon 392 min tona çatdırıb. Bu isə 2022-ci ilin göstəricisini 5,5 dəfə üstələyib.

Qeyd edək ki, 2022-ci ildə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Transxəzər dəhlizi ilə neft nəqlinin artırılması barədə göstəriş verib. Həmin göstərişə uyğun olaraq “KazMunayQaz” və SOCAR arasında “Tengiz” yatağından hasil edilən illik neftin 1,5 milyon tonunun Bakı–Tbilisi–Ceyhan kəməri ilə nəqlini nəzərdə tutan saziş imzalanıb.

Göründüyü kimi, karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması üçün şaxələndirilmiş boru kəmərləri sisteminin yaradılması ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl, bu amil müxtəlif səbəblərdən neft və qazın ixracında baş verə biləcək dayanmaların qarşısını almağa imkan yaradır. Məhz bunun nəticəsidir ki, 1998-ci ilin əvvəllərindən etibarən “Əsrin müqaviləsi” çərçivəsində başlanan neft ixracında ötən müddətdə, bir gün də olsun, fasilə yaranmayıb. Azərbaycanın neft ixracı sisteminin şah damarı sayılan Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin ahəngdar fəaliyyəti ilə yanaşı, ötən illərdə alternativ ixrac marşrutları olan Bakı–Novorossiysk və Bakı–Supsa kəmərləri ilə də müəyyən həcmdə neft nəql edilib.

Bu baxımdan Azərbaycan neftini Qara dənizin sahilinə çatdıran Bakı–Supsa boru kəməri (Qərb ixrac marşutu) xüsusi əhəmiyyətə malikdir. Xatırladaq ki, Bakı–Supsa boru kəməri Xəzər neftinin Səngəçal terminalından Gürcüstanın Qara dəniz sahilində yerləşən Supsa limanına nəqli üçün nəzərdə tutulmuş boru kəməridir. 2022-ci ilin may ayında Rusiya–Ukrayna müharibəsi səbəbindən fəaliyyəti dayandırılmış bu kəmərlə ay ərzində nəql olunan, təqribən, 3 milyon barel neft həcmləri də Bakı–Tbilisi–Ceyhan (BTC) boru kəmərinə yönləndirilib.

Amma ötən ilin fevralında isə 10 aylıq fasilədən sonra kəmərin fəaliyyəti qısa müddətə bərpa edilərək Xəzər dənizindəki “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokundan çıxarılan neftin nəqli bu ixrac marşrutu ilə davam etdirilib. Bu da fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ fonunda bu ölkənin Aralıq dənizi sahilindəki Ceyhanda BTC boru kəmərinin ixrac terminalının altı günlük bağlanması ilə əlaqədar baş verib. Həmin vaxt Supsa limanından Azərbaycan nefti yüklənmiş bir neçə tanker dünya bazarına göndərilib.

Qeyd edək ki, uzunluğu 837 kilometr olan Bakı–Supsa neft boru kəməri 1997–1998-ci illər ərzində çəkilib. Azərbaycan neftini Qərb istiqamətinə nəql edən bu kəmər Səngəçal terminalından başlayaraq Gürcüstan Qara dəniz sahilindəki Supsa terminalına qədər uzanır. Diametri 530 millimetr olan Bakı–Supsa kəmərinə neftin vurulmasına 1998-ci ilin dekabrında başlanıb. 1999-cu il aprelin 17-də isə kəmərin rəsmi açılışı olub. Qərb ixrac marşrutu boyunca 3-ü Azərbaycanda və 3-ü Gürcüstanda olmaqla 6 nasos stansiyası, 2 təzyiqazaltma stansiyası (hər ikisi Gürcüstanda), 1 ərzinburaxma stansiyası (Azərbaycanda) inşa olunub. Neftin yığılması üçün Gürcüstanın Supsa terminalının ərazisində ümumi həcmi 1 milyon barel təşkil edən 4 iri çən inşa olunub.

İlk vaxtlarda bu kəmərlə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Çıraq” və “Azəri” yataqlarından çıxarılan neft nəql olunub. Belə ki, Bakı yaxınlığındakı Səngəçal terminalından Qara dəniz sahilində yerləşən Supsa limanına göndərilən xam neft buradan tankerlərə yüklənərək Bosfor boğazından keçməklə Avropa bazarlarına yola salınıb. 2021-ci ilin yekunlarına əsasən, Bakı–Supsa boru kəməri ilə 4,2 milyon ton neft nəql olunub. İxrac olunan bütün neft “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun payına düşüb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# O günlər dənizçilər də səfərbər idi

## Qanlı Yanvar qırğını zamanı Xəzər Dəniz Neft Donanmasının 100-dən artıq gəmisi xalqımızın haqq səsini dünyaya yayırdı

**Bu il Qanlı Yanvar hadisələrindən 34 il keçir. 1990-cı il yanvarın 19-dan 20-nə keçən soyuq qış gecəsində keçmiş SSRİ ordusunun xüsusi hazırlıq keçmiş bölmələri heç bir xəbərdarlıq etmədən Bakı şəhərinə və Azərbaycanın bir sıra digər şəhər və rayonlarına yeridildi. Dinc əhaliyə divan tutuldu. Bu gün 149 nəfər "20 Yanvar şəhidi" adını daşıyır. 700 nəfərdən çox insan isə müxtəlif yaralar aldı.**

Həmin günlərdə Xəzər Dəniz Neft Donanmasının mülki gəmiləri də xalqın faciəsi ilə əlaqədar səfərbər olmuşdu. Onlar Bakı buxtasına toplaşaraq sovet ordusunun hərbi təcavüzünə etirazını bildirir, eyni zamanda, Bakıda törədilən bu vəhşiliyi SOS siqnalları ilə dünya ictimaiyyətinə çatdırırdı. **Qara Yanvar kimi xatırladığımız hadisələrlə bağlı o günlərin şahidi kapitan, şair və jurnalist Faiq Balabəyli ilə söhbətləşdik. O, həmin günləri belə xatırladı:**

– 1990-cı ilin Qanlı Yanvar hadisələri başlayanda "Şirvan" gəmisində çalışırdım. Bizim gəmi növbəti tapşırığını yerinə yetirmək üçün Xəzər dənizində, Neft Daşları ərazisində idi. Yanvarın 19-dan 20-ə keçən gecə sovet ordusu qəfildən Bakı şəhərinə daxil oldu və dinc insanlara qarşı əsil soyqırımı həyata keçirdi.

Yanvarın 19-da, axşam saatlarında gəmimiz Çilov adası yaxınlığında lövbər ataraq dayanmışdı. "Mayak" radiosunda Bakıda törədilmiş qırğınlar haqqında danışılırdı. Mən kapitan körpüsünə qalxdım və kapitan İbad Məmmədovun gəlməsini gözləmədən ətrafdakı gəmilərə efir vasitəsilə Bakıda baş verən faciə haqqında məlumat verdim. Sonra həmin ərazidə dayanan gəmilərin kapitanları arasında rabitə vasitəsi ilə kiçik məşvərət məclisi oldu. Qərar qəbul olundu ki, gəmilər Bakı buxtasına qayıtsın.

Yanvarın 20-də, səhər saatlarında Xəzər Dəniz Neft Donanmasının müxtəlif təyinatlı 100-ə yaxın gəmisi Bakı buxtasında lövbər atıb etiraz aksiyasına başladı. Gəmilər xüsusi koordinatlarda dayanmışdılar ki, hərbi gəmilərin Bakı buxtasına giriş-çıxışı məhdudlaşsın. Artıq yanvarın 20-də, günün birinci yarısında hərbi gəmilərin hərəkətinə yol verməmək üçün donanmanın 100-dən çox gəmisi Bakı buxtasına gedən yolu kəsməyə tam nail oldu.

Yanvarın 20-də, səhər saatlarında dənizçilərimiz fəaliyyətlərini nizamlamaq üçün "Sabit Orucov" adına sərnişin gəmisini qərargaha çevirdilər. Burada ağsaqqal və təcrübəli kapitanlardan bir neçəsi, eləcə də aktiv dənizçilər toplaşmışdılar. Atılan hər bir addım və qəbul olunan qərarlar müzakirə edilir, sonra efir vasitəsi ilə gəmilərə ötürülürdü. Buxtada dayanan gəmilərin rəhbərlərinin irəli sürdükləri təklifləri koordinasiya etmək kimi çətin və gərəkli missiyanı qərargaha çevrilmiş "Sabit Orucov" gəmisinin heyəti öz üzərinə götürdü. Gəminin kapitanı Mövlud Əliyev idi.



Belə bir fikir vardı ki, birmənalı olaraq, sovet ordusu Bakını tərk etməli, törətdikləri qətliama son qoymalı, bütünlüklə Azərbaycan xalqından üzr istənilməli, eləcə də informasiya blokadası aradan qaldırılmalı, Bakıda baş verən hadisələr dünyaya olduğu kimi çatdırılmalıdır. Dənizçilərimiz tərəfindən SOS siqnalının mətni hazırlandı. Mətndə qeyd edilirdi: "Dünyanın sülhsevər insanları, Bakıda qırğındır, insanları qətlə yetirirlər. Sovet İttifaqının hərbi birləşmələri öz vətəndaşlarına qarşı qəddar mövqe sərgiləyirlər". Sonra tələblər hazırlandı və SSRİ prezidenti Mixail Qorbaçova, SSRİ Ali Sovetinə, müdafiə naziri Dmitri Yazova və digər rəsmilərə göndərildi.



Daha sonra nümayəndələrimiz Azərbaycan Ali Sovetinin sədri Elmira Qafarova, bəstəkar, millət vəkili Arif Məlikov, akademik Tofiq İsmayılov, eləcə də SSRİ-nin Bakıda olan yüksəkrütbəli hərbi-siyasi rəhbərləri – marşal Dmitri Yazov, vitse-admiral Sidorov və digərləri ilə görüşdülər. Marşal bizim nümayəndələri hədələmiş, "Əgər Bakı buxtasını boşaltmasanız, hamınızı yandırıb, batıracağıq", – demişdi. Dənizçilərimiz isə marşaldan ordunun Bakını tərk etməsini istəmişdilər.

Biz hər saatdan bir SOS siqnalı ilə bütün dünyaya informasiya çatdırır, həqiqəti ötürürdük. Beləliklə, dünyanın 50-dən çox informasiya agentliyi Azərbaycanda baş verən qırğından dənizçilərin ötürdükləri SOS siqnalları vasitəsilə xəbər tutmuşdu.

Bizə məlumat verilmişdi ki, sovet ordusunun əsgərləri meyitləri küçələrdən yığışdırıb gəmilərə yığırlar və aparıb dənizə tökəcəklər. Hərbçilər bunun üçün bizdən yol tələb edirdilər. Lakin razılaşmadıq. Onlar bildirdilər ki, rus zabitlərinin ailələrini, uşaqlarını təhlükəsiz yerə çıxarmaq istəyirlər. Uzun danışıqlardan sonra biz hərbi gəmilərin yoxlanmadan sonra ərazidən çıxmalarına icazə veriləcəyini bildirdik.

Getdikcə tələblərimiz kəskinləşmişdi. Bəyan etdik ki, əgər ordu şəhərdən çıxmasa, ayın 22-də bir gəmini yandıracağıq. Bunun üçün ayrıca bir gəmi də hazırlamışdıq. O vaxt Bakının komendantı general Tyuqunov xəbər göndərdi ki, nümayəndəmizi qəbul edəcəklər. "Babazadə" gəmisinin kapitanı Müzəffər Əliyev və akademik Tofiq İsmayılov Yazovla görüşdülər. Yenə nəticə olmadı. Və aksiyamızı dayandırmadıq.

Yanvarın 24-də Bakı buxtasında fövqəladə vəziyyət elan olundu. Gəmilərimiz sahildən güllələbaran edildi. Hərbi katerlər buxtaya girib bizi atəşə tutdu, desant yeridildi, ümumilikdə iki gəmimiz alova büründü, 30-dan çox gəmiyə minlərlə güllə dəydi. Həbslər, işgəncələr başladı. Əlli nəfərə yaxın



dənizçi Rusiyaya aparıldı. Onlara orada çoxlu işgəncələr verilmişdi. Bir aydan sonra onları evə buraxdılar və "asayişi pozduqları" üçün sənədləşdirib həbs etdilər.

Dənizçilər qarşılarına qoyduqları məqsədə çatdılar. Hədəfimiz Azərbaycanda olan qətliam haqda məlumatı dünyaya çatdırmaq idi. Çatdırdıq. Həm də əli sovet rəhbərliyinin ədalət hissindən üzülən xalqımız hiss etdi ki, meydanda tək deyil, bütün ölkə onunladır. Respublika ölməyib, yaşayır.

Sonrakı illərdə dənizçilərimizin mücadiləsindən bəhs edən "Bakı buxtası – 20 Yanvar" adlı kitab çap etdirdim. Əslində, bu, mənim həmin hadisələr barədə yazdığım tək kitab deyil. Bundan əlavə, 2003-cü ildə "Kəsilməyən həyəcan fiti" adlı bir kitab da yazmışdım ki, hər biri dənizçimizin 20 Yanvar faciəsi zamanı göstərdiyi misilsiz qəhrəmanlıq daha dolğun əks olunsun. Kitablarda tarixi sənədlərlə yanaşı, o hadisələrin iştirakçılarının xatirələri də yer alıb.

***Söhbəti yazdı:***
***Paşa ƏMİRCANOV***
***XQ***

# "Bakıda və lazım gələrsə, Gəncədə..."

## 34 il əvvəl əhali şəhərin girəcəyində sovet tanklarının qarşısını necə kəsdi?

**Yazının sərlövhəsinə çıxardığım bu üç-dörd söz Mixail Qorbaçovun 1990-cı ilin 15 yanvarında imzaladığı fərmandan götürülüb. Sənəddə açıqca deyilirdi ki, "...Bakıda və lazım gələrsə, Gəncədə fövqəladə vəziyyət elan edilsin..."**

Əslində 20 Yanvar qırğınına rəvac verən təkcə bu fərman deyildi. Qorbaçov televiziya çıxışlarında da Bakı və Gəncədə "ekstremistlərin cilovlanması üçün" qoşundan istifadə olunacağı ilə hədələyirdi.

Bəs o günlərdə Gəncədə nə baş verirdi? Qorbaçov hansı haqla şəhərdə xalq hərəkatına qoşulan mərd oğullarımızı "ekstremist" adlandırırdı?

20 Yanvara kimi Gəncə artıq ilk şəhidlərini vermişdi. Ruzigar Qasımov, Bəxtiyar Əliyev və Abbasqulu Məmmədov. Bu üç vətənpərvər oğul 1990-cı il yanvarın 12-də indiki Göygöl rayonunun Çaykənd, Todan kəndi ətrafında gedən qızğın döyüşlər zamanı mühasirəyə düşərək, ermənilər tərəfindən işgəncə ilə öldürülmüşdülər. Onların cəsədləri bir gün sonra ermənilərdən alınmış və ayın 14-də Gəncədə dəfn olunmuşdu.



Bu igid oğlanların Gəncədən həmin kəndlərə gedib çıxması təsadüfi deyildi. Çünki keçmiş Şaumyan rayonundan meşənin içi ilə Mardakertə yol çəkildikdən sonra Şaumyan erməniləri ayağa qalxmışdılar ki, biz Dağlıq Qarabağa birləşmək istəyirik. Hətta qərar da çıxarılmışdı: "Şaumyan rayonu və Çaykənd zonası Dağlıq Qarabağa birləşdirilsin".

Şaumyandan Çaykəndə gedən yol da düzəldilmişdi. Bütün planlar hazırlanmışdı. Todan kəndi bu iki yaşayış məntəqəsinin arasında yerləşirdi və burada azərbaycanlılar yaşayırdı. Ermənilər artıq bir qədər də azğınlaşaraq Çaykənd ətrafına, Göygöl zonasına gedib-gələn azərbaycanlılara hücum çəkir, xəsarət yetirirdilər.

Xatırladaq ki, Ermənistan SSR Ali Soveti Şaumyan (Çaykənd də daxil olmaqla) rayonunu Dağlıq Qarabağın büdcəsi ilə birlikdə müzakirə edəndə Çaykənddə artıq döyüşlər başlamışdı. Ölənlərin, yaralananların, girov götürülənlərin sayı hər gün artırdı. Belə bir vaxtda Şaumyan rayonu ilə sərbəst gediş-gəlişə mane olan Todan kəndi mühasirəyə alındı. Kənd dərənin içində yerləşir və ətrafdakı dağlardan açıq-aydın görünürdü. Yuxarıda, Maraşen kəndinin qarşısında isə ermənilərin tankları, pulemyotları, karabinləri hazır vəziyyətə gətirilmişdi. Təpənin birinə dolu dağıdılması üçün nəzərdə tutulan nəhəng top da qoyulmuşdu. 1990-cı il yanvarın 12-də səhər tezdən isə döyüşlər başlanmış, atışmalarda Ruzigar Qasımov, Bəxtiyar Əliyev və Abbasqulu Məmmədov vəhşicəsinə öldürülmüşdü. Yanvarın 14-də Hacıkənd qəsəbəsindəki "Beş ulduz" deyilən təpənin yaxınlığında ermənilər növbəti vəhşiliyə əl atmışdılar. Səhər tezdən vertolyotdan da dinc əhali atəşə tutulmuş, iki nəfər ölmüş, çoxlu yaralanan olmuşdu. Yanvarın 15-də ermənilərin yaşadığı Maraşen kəndindən 40 dəqiqə ətrafa avtomatdan və pulemyotdan atəş açılmışdı. Yanvarın 18-i və 19-da da ermənilər kəndləri atəş altında saxlamışdılar...



Bu qısa xronologiyanı ona görə nəzərə çatdırdıq ki, Gəncədə fövqəladə vəziyyət yaratmağa və dinc əhalini "ekstremist" adlandırmağa və beləliklə də, şəhərə qoşun yeritməyə əllərinə, necə deyərlər, girəvə düşmüşdü…

Gəncədə fövqəladə vəziyyət elan olunmasından xəbər tutan əhali bunun qarşısını almaq qərarına gəlmişdi. Şəhərdə artıq xalq hərəkatının fəalları, şəhər rəhbərliyinin bir sıra əməkdaşları, ziyalılar, sadə gəncəlilər – bir sözlə, hamı gözlənilən təhlükənin qarşısını almaq üçün birlikdə fəaliyyətə başlamışdılar.

Mənim yadımdadır, Gəncənin dörd tərəfinin girişlərində, hətta şəhərin müxtəlif yerlərində adamlar səhərədək tonqal qalayıb onun ətrafına toplaşırdılar. Hamı məsləhətləşirdi ki, sovet qoşunları, xüsusilə tanklar hücum etsə, şəhərə daxil olmağa cəhd göstərsə, onun qarşısını necə alsınlar. Şəhərin ətrafına, o cümlədən aeroporta sovet ordu hissələri, texnika gətirilirdi.

Qeyd etdiyimiz kimi, Gəncə aeroportunda xeyli sayda ordu qüvvələri toplanmışdı. Onlar Moskvadan Gəncəyə əlavə qüvvə, hərbi texnika gətirən iki qatarı gözləyirdi. O zaman Gəncə Dəmiryol Stansiyasının polis şöbəsinin bölmə rəisi işləyən Yusif Məmmədov bu qatarların Bakı-Gəncə istiqamətində hərəkət etməsi barədə xəbər tutan kimi Ucar Dəmiryol Stansiyasına gedir. Burada o, stansiyanın rəisi ilə görüşür, Ucardan keçəcək 2674 saylı qatarın saxlanılmasını tələb edir və eyni zamanda Ucar əhalisinə baş verə biləcək hadisəni başa salır. Ucarın sakinləri relslərin üzərinə uzanır və birinci qatar saxlanılır. Eyni qaydada yola düşən 2614 saylı qatar isə Kürdəmir stansiyasında saxlanılır.

Qatarların gəlməyəcəyi bilinir və bir neçə gündən sonra sovet qoşun hissələri Moskvaya qayıdır.

Yanvarın 22-də isə şəhərə daxil olmaq istəyən tankların qarşısı Gəncənin girəcəyində saxlanılır. "Ya üstümüzdən, ya da qayıdın geri". Bu sözlər tank polkunun komandirinə çatdırılır və o da yerə düşərkən gözləri minlərlə qoca, cavan gəncəlinin qəzəbli baxışları ilə qarşılaşır.Bir qədər sonra "geriyə"əmri verməyə məcbur olur. Sonralar həmin səhnəni təsvir edən Pyotr Kolesnikov familiyalı bir zabit rus qəzetlərinin hansındasa yazmışdı ki, "biz tankları geri çəkməsəydik, onlar həmin tankları dişləri, əlləri ilə parça-parça edəcəkdilər, bunu onların gözlərində gördüm..."

Bu sətirləri qələmə alarkən yadıma bu yaxınlarda şəhid olmasının 220-ci ildönümünü qeyd etdiyimiz Gənə xanı Cavad Xan düşdü. Xan da "Gəncəyə meyitimin üstündən keçə bilərsiniiz" demişdi və oğlu ilə birlikdə qəhrəmancasına həlak olmuşdu. Demək, qəhrəmanlıq ənənəsi illər, əsrlər keçsə də davam edir. 2020-ci ilin Gəncə üçün ağır olan o qanlı oktyabr günlərində, ermənilərin xaincəsinə şəhəri raket atəşinə tutduğu vaxtlarda biz bunu bir daha gördük. Üz-gözü al qanın içərisində olan 5 yaşlı Bəxtiyarın istehzalı təbəssümünü, nifrət dolu baxışlarını yada salmağınız kifayətdir.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

***Gəncə***

**Mən gülləri həmişə sevmişəm. Onlar da insan kimidir. Sevir, sevilir, əzizlənir, içində tikanlısı da var, tikansızı da. Gülləri belə görmüşəm…**

O gün Bakıda acı şimal küləyi əsirdi. Gecədən şəhərə hücum edən ağır tanklar, zirehli maşınlar yolları al qana boyamışdı. Şəhərin "20 Yanvar" dairəsi (o zamanlar bura "XI Qızıl Ordu meydanı" deyirdilər) daha çox insan axınının olduğu məkandakı al qərənfillər artıq ertəsi gündən millətin şəhid olan övladlarına ağı deyirdi.




Qərənfillər şəhidlərimizin yerdə buz bağlamış qanına ləçəkləri ilə sarğı bağlamışdı. Xalqımızla qərənfillərin bu qədər böyük birliyini görməmişdim. Bakı kəndlərindən qucaq-qucaq qərənfillər şəhərin mərkəzinə axın edirdi.

Tarixin 20 Yanvar 1990-cı il faciəsini 34 ildir qərənfillər təkrar-təkrar yazır. Sədaqətli, mərhəmətli, fədakar olduğu qədər həssas, hər ağrımıza-acımıza fəryad qoparıb bizdən ayrılmayan qərənfillər…

Bəli, məhz 20 Yanvar gecəsindən sonra qərənfil gülü bizimlə – xalqımızla birgə sirdaş oldu, yaralarımıza özünün "loğman" sehrini damcılatdı. Susmadı qərənfil… Bütün qərənfilləri harayına çağırdı. Bizim birliyimiz kimi, qərənfillərin də birliyini gördüm. Bakının matəm günlərinin təsəllisi, qüruru idi qərənfillər…



20 Yanvar faciəsi zamanı şəhid olanlar Azərbaycan xalqının birliyi sayəsində həmin Dağüstü parkda al qərənfillərin izdihamı ilə dəfn olundular. Dərdlərimizə məlhəm qərənfillər şəhidlərimizi bağrına basmışdı. Çünki gül məhəbbəti xalqımızın gücünə tapınmışdı, bu birliyi heç bir qüvvə sındıra, sarsıda bilməzdi.

Zamanla addımlayan, vəfalı qərənfil. Hər zaman bizimləsən, məğrursan, qan yaddaşımızı korşalmağa qoymursan. Elə sənin əzəmətin budur, qərənfil!

Gülçü dostlarım deyirdilər ki, güllər çox həssasdır, onları sevin, qərənfili isə heç bir gülün yanına qoymayın. O, yalnız qərənfillərlə bir yerdə olmaq istəyir, çox dözümlüdür, gec solur, başqa güllərə bənzəmir.

Düz 34 ildir ki, qərənfil bizimlə yol gəlir. O da bizim kimi kədərlənir, təəssüflənir, amma qürurunu sındırmır. Şəhidlərimizə tər nəfəsi ilə bir məlhəmdir, bir sükutdur qərənfil! Heç vaxt onları tək buraxmır. Elə hey isti nəfəsi ilə soyuq məzarları bağrına basır.

Şəhidlərimizi tərk etməyən, yağış kimi məzarlara yağıb, onlarla öyünən qönçə qərənfillər. Tarix yaşayıb, tarix yazan, zamana sığmayan şahid qərənfillər…

Bura Azərbaycandır! Bura al qərənfillərin vətənidir! Bura şəhidlik zirvəsini müqəddəs ocaq bilən insanların torpağıdır!

Qərənfilim mənim, ağlama! Tər nəfəsinlə həmişə məğrurluğunu saxla. Sən haqq yolunun qərənfilisən! Nə qədər biz varıq, sən də varsan, Qərənfil!

Şəhidlər xiyabanının əbədi sakini – qərənfil!

***Kəmalə ABDİNOVA***
***XQ***

Prezident seçkisi

# Gədəbəydə yaşı əsri adlayan 5 nənə də səs verəcək

**Gədəbəy ilin bütün fəsillərində gözəldir. Qış isə bir başqa aləmdir. Elə ki, dağlar, dərələr, meşələr ağ örpəyə büründü, Gədəbəy toya hazırlaşan gəlinə bənzəyir. Əyninə geyinmiş ağ libas ona xüsusi gözəllik verir.**

Vaxt var idi belə qarlı-buzlu havada bir kənddən başqa bir kəndə gedəndə problemlər ortaya çıxırdı. Yollar pis vəziyyətdə, körpülər yox, adamlar odun sobası yandırır, bəzən günlərlə işıq üzünə həsrət qalırdılar... Amma son 20 ildə Gədəbəy o qədər gözəlləşdi, abadlaşdırıldı, yeni yollar salındı ki, istəyir qar lap dizinə çıxsın, o kəndlərə həvəslə gedəcəksən. Çünki şərait yaradılıb və Gədəbəy əvvəlki Gədəbəy deyil.

Bu sətirləri qeyd etməyimiz də təsadüfi deyil. Rayon mərkəzində 104 saylı Gədəbəy Dairə Seçki Komissiyasının sədri Xaliq Xudaverdiyevlə görüşdükdən sonra öyrəndik ki, fevralın 7-də keçiriləcək Prezident seçkilərində Gədəbəy rayonunda 47 min 796 seçici iştirak edəcək və onlardan 5 nəfərinin yaşı yüzü keçib. Maraqlıdır ki, 5-i də qadındır. Təbii ki, elə həmin an bu uzunömürlü, bir əsri yola salmış ağbirçəklərin yanına tələsdik və qeyd etdiyimiz kimi hərəsinin müxtəlif kəndlərdə, ünvanlarda olması, çoxlu qar yağması bizi qətiyyən narahat etmədi. Çünki nə yollar əvvəlkidir, nə də kəndlər...

Yolumuz Çalburunadır. Kənd rayon mərkəzindən 16 kilometr aralıda yerləşir. Hər tərəf ağ örpəyə bürünsə də yol açıqdır. Özü də yol nə yol! Asfalt,



geniş, rahat. Bir neçə il qabaq çəkilib. **Bax, həmin kənddə, 1920-ci ildə anadan olmuş bir seçicimiz var, Səmayə Həsənova,** onun yanına gedirik. Haqqında o qədər məlumat toplamşam ki, heç görüşünə getməsək də yaza bilərdik. Amma yox, 104 yaşlı bir qadınla görüşüb söhbət etmək, hal-əhval tutmaq həm savabdır, həm də çox maraqlıdır. Bizə yol bələdçiliyi edən kənd icra nümayəndəsi



Həsən Həsənli ilə kəndin lap girəcəyində maşından düşüb Çalburunu seyr edirik. Bir gecədə qar o qədər yağıb ki, kimin evi harada yerləşir, uzaqdan bir baxışla ayırd etmək də çətindir.

**Nəhayət, Səmayə nənə ilə görüşüb söhbət etmək bizə qismət olur.** Oğlu Vüqarın "ana, qonaqların gəlib" deməyi ilə içəri daxil olub bizə "xoş gəldiniz" deməyi bir olur. Çox sərbəst şəkildə keçib masa arxasında əyləşir.Oğlu Vüqar deyir ki, anam uşaqların adlarını əzbər bilir, hamısını tez-tez görə bilməsə də vəziyyətləri ilə maraqlanır, bizdən soruşur. Məsələn, nəvəsinin biri 44 günlük Vətən Müharibəsi qazisidir. Elmirlə fəxr edir, onu tez-tez oxşayır, nəvaziş göstərir...

Nəvələrdən söz düşmüşkən, Elmirlə birlikdə Səmayə nənənin 30 nəvəsi var. Nəticələrinin sayı 55-ə çatıb. Hətta 2 nəticəsi də dünyaya gəlib. 10 övladı olan Səmayə Həsənovanın 4 oğlu və 2 qızı dünyasını dəyişib. O barədə söz düşəndə gözləri dolur, danışmaq istəmir, "kaş onların yerinə..." deyən kimi, Vüqar "ana başlama, 6 ildən sonra sənin 110 illiyini qeyd edəcəyik, sonrasına baxarıq" deyə Səmayə nənənin danışmasına imkan vermir.

**Kənd icra nümayəndəsi H.Həsənli də söhbətə müdaxilə edib mövzunu dəyişmək istəyir:**

– Nənə, indiyədək neçə seçkidə iştirak etmisən? – deyə soruşur.

Nənə duruxur, barmaqlarını bir-bir qatlayır və əlləri yumruğa çevriləndə "nə bilim ay bala, sayı yox, hesabı yox" deyir.

– Çalışacağam bu seçkiyə də özüm, öz ayağımla gedim. O səs verilən yeri tanıyıram, bizdən 4-5 yüz metr aralıda, məktəbdə yerləşir. İlham Əliyevi çox istəyirəm. O gələndən biz qaz, işıq gördük, əsl yol, körpü nə olduğunu bildik. Mənim ayrı namizədim yoxdur, bunu uşaqlarım da bilir...

104 yaşlı bir qadın o qədər sərbəst, məntiqlə, maraqla danışır ki, ayrılmaq olmur və deyə də bilmirik ki, "bizi digər həmyaşıdların da gözləyir".



**104 yaşlı Güllüzar Hüseynovanın sorağı ilə Düzyurd kəndinə gəlib** çıxırıq. Qızı Məryəmin yanında yaşayır. Düzü Məryəm xanımın özü yaşlı olsa da anasına bu cür qulluq göstərməsi, necə deyərlər, hər nazı ilə oynaması, körpə uşaq kimi əzizləməsi bizi heyran edir.

– Bax, ana, bu corabları almışam ki, ayağına geyinəsən, daha bir kənara atmaq üçün yox, deyə üstündə çoxlu ürək şəkilləri olan qaralı-qırmızılı yun corabı onun ayaqlarına dartır.

Gədəbəy Şəhər İƏD nümayəndəsinin müavini Kəmaləddin Məmmədov yavaşca qulağıma deyir ki, iki-üç il əvvəl görüşmüşdüm, onda daha qıvraq idi. Görünür yaş öz işini görür. Öyrənirik ki, Güllüzar nənənin 5 nəvəsi, 6 nəticəsi var. O da öz seçimini dilə gətirir, "Kəmaləddin məni yaxşı tanıyır, bu yaşa çatmışam, dilimə yalan dəyməyib. Yalan danışan adam da gözümün düşmənidir. On-on beş il qabaq dediilər ki, deputat seçkiləridir, gəl səs ver. Dedim kənddə, eldə, obada o adam bir iş görüb? Susdular. Mən elə adamlara heç vaxt səs verməərəm. Bax, Prezidentimə qurban olum, kişi kimi söz verdi, kişi kimi sözünün üstündə durub Qarabağımızı o mundarlardan təmizləyib bizə qaytardı. Gədəbəyin özündə nə qədər işlər görüb. Yollar çəkib, körpülər salıb, qazımız, işığımız daim var. Bunları eləməsəydi, indi bir metr meşəmiz də qalmamışdı, hamısını qırıb yandıracaqdılar.

**Kiçik Qaramurad kəndinin sakini, hazırda qonşu Dəyirmandağ kəndində qızı Cəmilənin yanında yaşayan 104 yaşlı Bəsti Quliyeva ilə də söhbət edə bilirik.** Kənd icra nümayəndəsi Xıdır Məmmədov əvvəlcədən bizi xəbərdar edir ki, 22 nəvəsindən biri, Mehtab Quliyev 44 günlük Vətən müharbəsində şəhid olub. Daim deyib- gülən, zarafat edən, şən, nikbin olan nənənin elə o vaxtdan çöhrəsinə sanki qara buludlar çöküb, az danışır, kefi açılmır. Amma nəvəsi ilə fəxr edir, deyir oğlum qəhrəmandır, erməniyə düz çökdürüb.



– Yaxşı yeriyə bilsəydim Mehrabın Zəngilanda həlak olduğu o yüksəkliyə qalxardım, həmin yerin torpağını öpərdim, deyə nənə yaylığını çıxarır,- o qədər ağlamışam, daha gözlərimin yaşı da quruyub. Amma nə qədər ağlasam da, bir o qədər qürurluyam. İlham Əliyev bizim torpaqları qaytardı, ona qurban olum. Deyirəm nə yaxşı ki, Allah mənə imkan verdi bu günləri gördüm, qələbə sevincini mən də yaşaya bildim. Bundan sonra ölsəm də dərdim yoxdur…

Bəsti nənə bunları deyərkən birdən sanki dodağı qaçdı, azacıq gülümsəyərək "hara ölürəm, hələ gedib İlham balama səs də vermək istəyirəm" dedi. Qeyd edək ki, Bəsti Quliyevanın 40 nəticəsi, 7 kötücəsi də var. Özü də hələ 10 övladından 5-i uşaq ikən vəfat edib. Təsəvvür edirsinizmi, indi onlar da sağ olsaydı, Bəsti nənənin nəvə və nəticələrinin sayı bəlkə də iki dəfə bundan çox olardı...

**…Daha bir 100 yaşlı seçici haqqında məlumat verim sizə. Səryaz Hüseynova.** "Qumlu" deyilən yaşayış massivində yaşayır. 1924-cü ildə anadan olub. K.Məmmədov bildirdi ki, Səryaz nənənin 8 övladı olub. Hazırda 22 nəvə-



si, 30 nəticəsi var. S. Hüseynova ilə görüşüb söhbət edə bilməsək də ona qulluq edənlər bizim xahişimizlə şəklini çəkib göndərdilər. Nə olar, buna da çox sevindik. Təki sağ-salamat olsun. Onlar bizim əsri adlayan sərvətlərimizdir, gərək nəyin bahasına olursa olsun, qoruyaq, ömürlərini bir qədər də uzadaq.

**S.Hüseynovanın yaşıdı, Çaldaş kənd sakini Gülü Qəfərova** ilə də görüşümüz baş tutmadı. Kənd icra nümayəndəsi Eldar Qocayev dedi ki, hazırda Daşkəsənin Quşçu kəndində yaşayan qızının yanındadır. Bir müddət qabaq yıxılıb ayağı sınıb, yorğan-döşəkdən tərpənmir. Amma sonra öyrəndik ki, son vaxtlar xeyli dirçəlib, az da olsa gəzə bilir. Eldar Qocayev elə bizim yanımızda qızı ilə videogörüntü yaratdı. Nənə məni tanımasa da icra nümayəndəsini tanıdı, dərhal salamladı, hal-əhval tutdu, "yaxşı olsam, seçkiyə özüm gəlmək istəyirəm" dedi.



Gülü nənənin isə hazırda 16 nəvəsi, 22 nəticəsi var.

...Gədəbəydən qaş qaralanda ayrılıram. Narın qar yağır. Deyirlər qar yağmayanda, necə deyərlər, qış qış kimi keçməyəndə, bu yerlərin adamlarının qaşı-qabağı açılmır. Belə qəbul olunub ki, qar ruzi-bərəkət gətirir. Amma indi baxıram, gədəbəylilər daha çox sevinir, təkcə ona görə yox ki, yaxşıca qar yağır, həm də qarşıdan tarixi bir gün, 7 fevral gəlir...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

***Gədəbəy***

# Dövlət–özəl tərəfdaşlığı: Stimullaşdırıcı mexanizmlərin tətbiqi gələcəyə böyük ümidlər yaradır

**İşğaldan azad olunmuş ərazilərdə işgüzar fəallığının stimullaşdırılması və sərmayə potensialının təşviqi üzrə layihələrə xüsusi diqqət yetirilir. Bu istiqamətdə xarici investisiya şirkətləri və fondları, eləcə də fərdi və korporativ investorlarla əməkdaşlıq edilir. "Yaşıl energetika", həmçinin ekoloji cəhətdən təhlükəsiz və səmərəli sosial infrastruktur, bina və digər obyektlərin tikintisi həyata keçirilir, kommunikasiyalar yenidən qurulur, nəqliyyat əlaqələri bərpa olunur.**

Diqqətəlayiq bir məqam da ondan ibarətdir ki, dövlət–sahibkar tərəfdaşlığının səmərəli fəaliyyəti və zəruri stimullaşdırıcı mexanizmlərin tətbiqi gələcəyə böyük ümidlər yaradır. Bu barədə iqtisadçı–ekspert Günay Quliyeva işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi həyatın bərpasında sahibkarların fəaliyyətinin



mühüm rol oynadığını bildirir: "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına yerli və xarici biznes nümayəndələrinin investisiya qoyması üçün əlverişli mühitin yaradılması prioritet istiqamətlərdən biridir. Bu baxımdan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" mühüm önəm daşıyır. Proqramda sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək mühüm amil kimi qeyd edilir".

Sahibkarlığa dəstək mexanizmləri isə qısa müddətdə bu ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslərin sayını artırıb. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məlumatına əsasən, 1550-dən artıq müraciət daxil olub. Müraciətlərin əhəmiyyətli hissəsi, 1050-si yerli, 500-ü xarici müraciətlərdir. İnvestisiya layihələri üzrə müraciətlərin 36 faizi ticarət və xidmət sektorunun, 27 faizi sənaye sektorunun, 26 faizi aqrar sektorun, 11 faizi isə inşaat, turizm, səhiyyə, təhsil və mədəniyyət sektorunun payına düşür.

Göründüyü kimi, sahibkarların maraq göstərdiyi sahələrdən biri inşaat sektorudur. Onlar Qarabağ və Şərqi Zəngəzurda yaşayış binaları tikirlər. Bu gün Ağdam şəhərində ilk yaşayış komplekslərini özəl şirkətlər tikir. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyin baş məsləhətçisi Eldar Seyidov bildirib:

"Azərbaycanın ən böyük daşınmaz əmlak şirkətlərindən biri olan "PMD Group" MMC tərəfindən "Ağdam Rezidens" yaşayış kompleksi inşa olunur. Bu kompleks şəhərin mərkəzinə yaxın ərazidə, məscidin və mərkəzi parkın yaxınlığında inşa edilir. Eyni zamanda yeni tikilən bina Ağdam–Bərdə yolunun üstündə yerləşir. Ümumilikdə, 209 mənzildən ibarətdir. 6 mərtəbəli 6 binadan ibarət yaşayış kompleksi tamamlanmaq üzrədir. Kompleksin birinci mərtəbələri ticarət və iaşə obyektəri üçün nəzərdə tutulub. Burada ziyarətçilərin rahatlığı üçün hər cür şərait yaradılır. Bu yaşayış kompleksi sözsüz ki, Ağdam şəhərinin yenidən qurulması, abadlaşdırılması və inkişafının təmin olunması istiqamətində əvəzsiz töhfəsini verəcəkdir".

Özəl sektor Ağdam şəhərində daha bir layihənin həyata keçirilməsində iştirak edir. "Park Hill" şirkəti tərəfindən "Park Qarabağ" yaşayış kompleksinin inşası davam edir. Bu kompleksin layihələndirilməsi Azərbaycanın "Azərbaycan inkişaf", ABŞ-ın "Gensler" və Türkiyənin "URAL mühəndislik" şirkətləri tərəfindən həyata keçirilib. "Park Qarabağ" yaşayış kompleksi də şəhərin mərkəzində inşa edilir. Layihənin bu il tamamlanması planlaşdırılır.

Hazırda qeyd olunan yaşayış komplekslərinin mənzilləri satışa çıxarılıb. Əldə olunan gəlir digər yaşayış binalarının tikintisinə yönəldiləcək.



Qeyd edək ki, bu gün özəl sektor Hadrut, Daşaltı və Suqovşanda da inşaat işləri ilə məşğuldur. "PMD Group" MMC həm də Hadrutda özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin tikintisini həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak ediblər. 28 fərdi evdən ibarət məhəllədə evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlıdır və sahələri 70-120 kvadratmetr arasında dəyişir.

Ümumilikdə, Hadrut qəsəbəsində tikiləcək və bərpa olunacaq obyektlər və ətraf ərazilərin abadlaşması işləri də 2025-ci ildə başa çatması planlaşdırılıb.

Hazırda Suqovuşan qəsəbəsində də yeni yaşayış məhəlləsi salınır. Ümumi sahəsi 2 hektardan çox olan məhəllədə 5 çoxmənzilli binanın tikintisi həyata keçirilir. Layihə rəhbəri Vidadi Həsənovun sözlərinə görə, yaşayış məhəlləsindəki binaların hər biri beşmərtəbəlidir. 25-i birotaqlı, 80-i ikiotaqlı, 75-i üçotaqlı, 10-u isə dördotaqlı olmaqla ümumilikdə 190 mənzildən ibarətdir. Artıq üç binanın birinci mərtəbəsinin döşəməsi betonlanıb, ikinci mərtəbədə hazırlıq işləri gedir. Qalan iki binada isə zirzəmidə işlər yekunlaşıb. Məhəllədə sosial obyektlər də tikiləcək.

...Biznes dairələri üçün yaradılan şərait və dövlət tərəfindən dəstək bu sahəyə özəl sektor tərəfindən qoyulan investisyanın həcmini artıracaq. Çünki bu işlər iqtisadi cəhətdən səmərəlidir və eyni zamanda, biznesin sosial məsuliyyəti nöqteyi-nəzərindən önəmlidir.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məskunlaşacaq əhali üçün rahat və sağlam yaşayış mühitinin yaradılması, sakinlərin məşğulluq sahələri və istirahət əraziləri ilə təmin edilməsi dövlətin prioritetləri arasındadır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Qanlı 20 yanvar faciəsi ilə əlaqədar Milli Azadlıq Hərəkatının liderlərindən olmuş, Vətəndaş Həmrəyliyi Partiyasının sədri, Milli Məclisin deputatı Sabir Rüstəmxanlının 1990-cı ilin fevralında qələmə aldığl "And yerimiz" yazısını ixtisarla təqdim edirik.**

# AND YERİMİZ






Hamımızı sarsıdan, bir aydan artıq gözümüzün yaşını qurumağa qoymayan 20 Yanvar fəlakətindən sonra dilimdən qopan ilk söz budur! İlk müraciətim də, verə biləcəyim ilk təsəlli və təskinlik də, içmək istədiyim ilk and da müqəddəs və böyük xalqın adınadır!

Zamanın ağır sınaq günündə, tayı-bərabəri olmayan bir xəyanətlə üz-üzə dayandığımız bir vaxtda hər şey və hamı yaddan çıxıb: ortada aldadılan, şəhid gedən, gözünün yaşından və nifrətindən başqa silahı olmayan, əli bağlı, lakin faciələrin içində də mənəvi gözəllik və mərdliyini itirməyən, qocaman, əzabkeş, kövrək, dözümlü və məğrur bir xalq qalıb! Başı olan, başçısı olmayan, sərvəti olan, sahibi olmayan, haqqı olan, müdafiəçisi olmayan, bir yarası sağalmamış yeni yaralar alan xalq! Bir söz deyə biliriksə, ona çatır. Ayrı gümanımız yoxdur! Ayrı ünvan axtarmıram!..

Sanki müharibədən çıxmış Bakının hələ şəhidlərin qanı qurumamış küçə və meydanlarında dəli kimi dolaşdığım o faciəli sübh çağı dilimdə donub qalan bu həqiqət idi: Xalqımın qanı tökülmüşdür! Göz yaşı yağışı altında, gül-çiçək ümmanında ömrün son sahilinə üzən tabutların taleyə, dərdə, düşmən niyyətinə xətt çəkən al-qırmızı bəzəyini, uşaqdan-böyüyə iki milyon adamın üzündəki ifadəni görəndə bir daha inandım: Uduzduğumuzu uduzmuşuq, bundan belə bizi əymək olmaz. Sabahın yolları bu xalqın yollarıdır!..

Bu milləti millət eləyən, min illərin fəlakətlərindən keçirib qoruyan böyük, ilahi gücün alovu yenidən üzümə vurdu. Ölümsüzlüyümüzün səbəbini, sirrini, sehrini təzədən gördüm! Gördüm ki, cavan ömrünü xalqına, yurdunun azadlığına bağışlayanlar bir ata-ananın övladları deyil. Onları millətin taleyi doğub.

Bakının o ağır, qanlı günlərini görəndən sonra özümüzü sanki yenidən dərk etdim. Xətailərin, Nəsimilərin, Sabirlərin, Mirzə Cəlillərin, Şeyx Məhəmməd Xiyabanilərin, Məmməd Əmin Rəsulzadələrin, Üzeyir bəylərin, Cavidlərin hamısının mənəvi gücdən yarandığı indi mənə aydın oldu.

Bugünkü "zəifliyini" özünə sığışdırmayan və əlacsızlığını dünyadan gizlətmək üçün tökülən qızıl qanlarını qızıl qərənfillərlə örtərək, şəhid övladlarının ayağı dəyən yerləri güllə bəzəyən bir xalqın ruhundakı nəciblik, ucalıq adamı sarsıdır.

Bakı kəndlərindən mərkəzə gələn yollar, Azadlıq meydanının, Dağüstü parkın bütün səki və xiyabanları yanvarın 22-də gül-çiçək xalısı ilə örtülmüşdü, qışın çılpaq ağacları qərənfil "açmışdı". Sanki Azərbaycan torpağının özü köksündən yaralanmışdır və fışqıran qanı qərənfil yağışı kimi iki milyonluq şəhərin başına yağırdı…

Bir aydan çoxdur beləcə davam edir. Ən böyük dərdin içində də gözəllik duyğusunu unutmayan, Şəhidlər Xiyabanına güldən hasar çəkən, şəhərə sığmayan insan axınını gül cığırları ilə nizamlayan xalqımın ürəyindəki gözəllik duyğusuna heyranam. Öz halal zəhmətinin məhsulu ilə gecə-gündüz şəhidlərin yarasına çiçək məlhəmi qoymağa çalışan Bakı kəndlərinin əli qabarlı, namuslu övladlarının fədakarlığı qarşısında baş əyirəm.

Faciəmiz böyükdür. Ancaq bu boyda itkilərin arxasında qara geyimli anaların məğrurluğunu, göz yaşlarından göyərən intiqam hissini görəndə təsəlli tapırıq. Xırdalanlı bir ana deyirdi: "Mənim bir oğlum var, təsadüfən sağ qalıb. Sevinmirəm. Oğul böyüdürük torpaq üçün! Övladı yurdun şəhidləri arasında yatan ana xoşbəxtdir". Anaları bu cür düşünən xalq da xoşbəxtdir!

…Dəfn günü Şəhidlər Xiyabanında özünə yer tapa bilənlərin çoxu qadınlar idi. Hörmətlə irəli buraxılmışdılar. Ana və bacılarımızın mələk üzləri qara örtüyə bürünmüşdü. Birdən operator kameranı onlara doğru çevirdi. Kimsə əlini qaldırdı, gül dəstəsini çətir kimi başına tutdu. Bir an sonar xiyabandakıların qara geyimi görünməz oldu, sanki bir dirijor çubuğunun işarəsiylə üstlərinə qırmızı gül "örpəyi" çəkmişdilər! Bu boyda kütləni vahid bir orqanizmə çevirən böyük duyğudur – xalq dediyimiz!..

Qurban gedənlərimizin bir hissəsi Bakının ən uca yerində torpağa tapşırıldı. 1918-ci ilin mart şəhidlərilə 1990-ci ilin yanvar şəhidlərinin cismi və ruhu bir-birinə qarışdı. Çoxumuz unutmuşuq indi əyləncə yerinə döndərilmiş bu parkın 1918-ci il şəhidlər qəbiristanı olduğunu. Tale yeni bir "qulaqburması" verdi ki, indiki qurbanlarımızın hesabına bütün şəhidlərimizin xatirəsi əbədiləşdirilsin. Xalqın and yeri, ziyarət yeri olsun!..

…Ola bilsin ki, bu fəlakətin qarşısını almaq və ya itkini azaltmaq üçün daha nə isə də etmək olardı. Ancaq kimin ağlına gələrdi ki, fövqəladə vəziyyət elan edilmədən ordu şəhərə girəcək, dinc, silahsız əhalinin üstünə düşmən ehtirası ilə tank sürüləcək, ölkənin bütün ordu növləri iki milyonluq şəhərə basqın edəcək. Kimin ağlına gələrdi ki, siyasi mübarizə aparan xalq – dövlət çevrilişinə hazırlaşan silahlı banda kimi qələmə veriləcək, sırf simvolik xarakter daşıyan piket və "barrikadalar" – silahlanmış düşmən cəbhəsi kimi "qəhrəmanlıqla" ləğv ediləcək, uşağa-böyüyə, qadına-kişiyə aman verilməyəcək? Kimin ağlına gələrdi ki, ziyalılarla, qadınlarla görüşlərində dönə-dönə "arxayın olun, ordu Bakıya girməyəcək!" – deyənlər bir gün sonra "öz vəzifələrini yerinə yetirib", yəni, respublikanın rəhbərliyini kənarlaşdırıb, Bakını ağlar qoyacaqlar? Kimin ağlına gələrdi ki, ölkəni xarici düşmənlərdən qorumalı olan ordu öz vətəndaşlarına qarşı bu qədər amansız ola bilər?

...20 Yanvar faciəsini bir həftə ondan əvvəl baş vermiş hadisələrlə, Bakıdakı erməni evlərinə hücumlarla əlaqələndirməyə çalışırlar. Biz xalqımızın humanist, nəcib sifətini qorumaq üçün hər cür vəhşiliyi, zorakılığı rədd edir və lənətləyirdik. Onu da bildirdik ki, Sumqayıt kimi, Bakıda da bu hadisə çoxdan planlaşdırılırdı. Yanvarın 13–14-də Bakıda ölkənin müxtəlif guşələrindən gəlmiş yüzlərlə cinayətkar olub…

...SSRİ Ali Sovetinin sonuncu sessiyası bir daha göstərdi ki, bizə qəzəbli münasibəti, əleyhimizə işləyən güclü təbliğat maşınını qırmaq o qədər də asan deyil. Bizi qarşıda çox uzun bir mübarizə yolu gözləyir. Bu yol hələ ki, iqtisadi müstəqillikdən, federasiyadan qoparan imkanlardan keçsə də, sonu məlumdur, sonu bizim arzularımızdır. Lakin o arzulara yetmək üçün hələ çox durulmalı, ümumi mədəni səviyyəmizin, siyasi mübarizə səviyyəmizin artması haqqında hələ çox düşünməliyik.

Mən daha çox işin bizə görünən tərəfindən, öz səhvlərimizdən danışdım. Lakin ən ciddi sual cavabsız qalıb: ordu Bakıya niyə gəlib? Cavabdeh adamların fikirləri bir-birilə düz gəlmir. Söhbət sərhəddən gedirsə, sərhədlərin götürülməsi ölkənin müxtəlif regionlarında bizdən əvvəl başlanıb. Köhnə rəhbərliyə etimadsızlıq, "istefa" tələbi narahatlıq doğurursa – bu tələbi Moskvadan başlamış ölkənin hər yerində eşidirik. Ermənistanla münasibətlərin kəskinləşməsi bəhanə olubsa, onda gərək fövqəladə vəziyyət on illər boyu xəlvətcə silahlanan tərəfdə, hücum edən tərəfdə elan ediləydi, boş əllə müdafiə olunan tərəfdə yox. Kiminsə ağzından "islam respublikası" sözünün çıxması bəhanə olubsa, onda gərək "xristian monarxizmi" tərəfdarlarının yaşadığı Rusiya şəhərləri çoxdan orduyla doldurulaydı.

Bu bəhanələrin heç biri 20 yanvar hadisələrinə haqq qazandırmır. Bir həqiqət ortaya çıxır ki, bizim rəftarımızdan asılı olmadan ordu şəhərə girməliymiş. "Azərbaycanlılara dərs vermək" planının kökləri çox dərindədir və sərhəd məsələsi, ermənilərin Bakıdan qovulma söhbəti, daxili qoşun hissələrinin müşahidəçi mövqeyi tutması – hamısı eyni zəncirin halqaları kimi bir-birinə bağlıdır. Azərbaycan xalqının ətrafında bu tor çoxdan və məharətlə hörülür.

Nəhayət, bir-iki kəlmə də milli heysiyyət, özünə və öz xalqına hörmət haqqında. Son vaxtlarda rəsmi görüşlərdə, televiziya çıxışlarında tez-tez belə bir fikir təkrarlanır: fövqəladə vəziyyət götürüləndən sonra şəhərin sakitliyinə təminat vermək olarmı? Bu məsuliyyəti kim boynuna çəkəcək? Bunu rəhbərlik də deyir, ziyalılar da. Bunun qədər riyakar bir böhtan təsəvvür eləmək mümkün deyil! Öz xalqına inanmayan, onunla dil tapa bilməyən adamlar bu xalqı necə idarə edə bilər? Məgər fövqəladə vəziyyətin ləğvindən qorxuya düşən ziyalılar bilmirlər ki, Bakıda heç bir iğtişaşı xalq salmayıb? Sakitlik istəyiriksə, fövqəladə vəziyyətlə yanaşı, Bakıda iğtişaş ocaqlarını da ləğv etmək lazımdır. Həmin ocaqlarsa möhtəşəm binalardadır və dünyanın müxtəlif yerlərindən, mərkəzdən üfürülüb közərdilir.

* * *

Şəhidlər Xiyabanında bir həqiqət də gördüm. Qurban gedənlərin çoxu zəhmətkeş, əli qabarlı, sadə adamlardır.

**And yerimiz – onlardır!**
**And yerimiz – xalqdır!**

**Fevral, 1990**

---

# Fotoları tarix olan sənətkar

## 20 Yanvar şahidi Reza Deqati faciə barədə xəbəri eşidən kimi Bakıya gəlib

**20 Yanvar faciəsinin baş verdiyi o qanlı, müdhiş gündən bizi 34 illik zaman ayırır. Bir neçə gündür ki, xalqımız faciənin qurbanlarını ehtiramla anmaq üçün Şəhidlər xiyabanına üz tutur və qırğını törədənlərə öz nifrətini bildirir. Müqəddəs məkana gələnlərin arasında özünəməxsus görkəmi ilə uzaqdan seçilən görkəmli fotojurnalist Reza Deqatini görüncə biz də ona yaxınlaşıb görüşdük.**













Ötən müddət ərzində bu faciənin dünyada tanıdılması üçün bir çox işlər görülüb: sərgilər təşkil edilib, teatr tamaşaları səhnələşdirilib, sənədli filmlər nümayiş edilib. Reza Deqati də "Qanlı şənbə" günü baş verənləri fotolentin yaddaşına köçürərək dünyaya tanıdanlardan olub. El-aləm həmin vaxt keçmiş sovet hökumətinin Bakıda mülki əhaliyə qarşı planlı şəkildə törətdiyi qətliamdan dünyaca məşhur fotojurnalistin və komandasının çəkdiyi fotolar və videolar sayəsində xəbər tutub.

Reza Deqatinin müəllifi olduğu 30-dan çox kitabın ikisi Azərbaycanla bağlıdır. O, bir sıra beynəlxalq mükafatların laureatıdır. Haqqında Avropada, Amerikada, "National Geographic"də, Fransa televiziyasında 10-dan çox sənədli film çəkilib. İndiyədək dünyanın əksər şəhərlərində 250-dən çox sərginin iştirakçısı olub, ən böyük universitetlərdə 500 dəfə konfrans keçirib.

Onun Parisdə "Mühacirin düşüncələri", "Kəsişən talelər", Vaşinqtonda "Bir dünya, bir tayfa", Normandiyada "Müharibə+Sülh" və Dohada "Ümid" adlı sərgiləri təşkil olunub. Reza Deqati Missuri Universitetinin "Şərəf" medalına layiq görülüb, Parisin Amerika Universitetinin fəxri doktorudur. Fransa hökuməti onu Milli Cəngavərlik Ordeni ilə təltif edib. Məşhur fotojurnalist həyatında sənətinə verilən ən böyük mükafatdan birini Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çoxillik səmərəli fəaliyyətinə görə alıb. Prezidenti İlham Əliyevin sərəncamı ilə o, "Dostluq" ordeni ilə təltif edilib.

Fədakar foto sənəti ustasının çəkdiyi şəkillərin hərəsi özündə bir tarix yaşadır. Rezanın fotoqrafiyası daha çox inqilablardan, müharibələrdən, münaqişələrdən "danışır". Çünki o, sülhsevər insandır, şəkilləri də Yer üzündə müharibələrə son qoyulmayana qədər danışacaq. Ötən yarım əsrdə dünyanın elə bir münaqişə ocağı olmayıb ki, məşhur fotojurnalistin ayağı ora dəyməsin, fotoaparatının səsi eşidilməsin.

Tale elə gətirib ki, Reza Deqati 1979-cu ildə İranda baş verən xalq hərəkatını öz fotokamerasının yaddaşına köçürmək istəyib. Məhz bu hadisəni fotoobyektivin yaddaşında tarixə çevirən Reza o vaxtdan sonra fotojurnalist kimi tanınmağa başlayıb. İran inqilabından sonra Deqatinin artıq bu ölkədə fəaliyyət göstərməsi çətinləşib və o, 1981-ci ildə Fransada sığınacaq tapıb, necə deyərlər, oradan dünyaya çıxıb.

Bu gün dünyanın "National Geographic", "Time Photo" və digər populyar nəşrlərində onun əsərlərinə yer ayrılması, fotolarının "PixPalace" platformasında yerləşdirilməsi həmin şəkillərin dəyərini göstərir.

...İnişil iyun ayının 23-ü idi. Lənkəranda məktəblilərin yay festivalında məşhur fotojurnalist Reza Deqati ilə tanış olub söhbət etdik. Ünlü cərrah, deputat Rəşad Mahmudov, Elm və Təhsil Nazirliyinin əməkdaşı Cəsarət Valehovla birlikdə dördümüz şəkil də çəkdirdik və mən sənətkara "Qara yanvar"da Bakıya gəlməsi barədə sual verdim. Qaşlarını çataraq, həmin günlərin bəzi məqamlarından danışdı.

– Qətliamdan xəbər tutan kimi xalqımızın başına gətirilən faciəni çəkib dünyaya yaymağı özümə borc bilərək Bakıya gəlmişdim, – dedi, – O günlər insanların əsas xəbər mənbəyi olan televiziya yayımı dayandırılmışdı, Bakıya xarici jurnalistlərin girişi qadağan olunmuşdu. Mən Parisdən çətin yollarla Bakıya üz tutdum. Birbaşa buraya gəlmək mümkünsüz olduğu üçün Moskva kinostudiyalarını ziyarət etmək adı altında həmkarlarımla birlikdə sovet vizası alaraq SSRİ-nin paytaxtına gəldim. Jurnalistlər üçün müəyyən qadağalar olduğu üçün azərbaycanlı dostların köməyi ilə Bakıya yola düşən qatarda gizləndim, təhlükəni nəzərə alıb, insanlarla lazımsız ünsiyyətdən qaçaraq 48 saatlıq yol gəldim. Qatarda ilk işim isə "Ya pa rusky ni znaya" (mən rusca danışmıram) və "Ya Azerbaijani" (mən azərbaycanlıyam) kimi dolaşıq cümlələr öyrənmək idi. Çünki rus dilini bilməyən azərbaycanlıları çox sorğu-suala tutmurdular. Ancaq kimsə mənim sənədlərimi yoxlasaydı, bu, artıq son demək idi...

Bu uzun səyahətdən sonra Bakıya çatdığım zaman burada gördüyüm mənzərəni İkinci Dünya müharibəsi filmindən bir səhnəyə bənzədirdim. Bakı stansiyasına daxil olduğu zaman – axşam vaxtları komendant saatından bir az əvvəl biz platforma üzərində düzülmüş silahlı sovet əsgərlərini gördük. Soyuq idi, özümü müharibə haqqında çəkilmiş filmdəki biri kimi hiss etdim. Sanki heç nə dəyişməyib"...

Yanvarın 24-də dostları Reza Deqatini Bakıda qarşılayır və sovet əsgərlərinin dinc əhalini güllələbaran etməsi, tankların mülki vətəndaşların üstündən keçməsi, uşaq, qadın, yaşlı demədən silahsız insanları qətlə yetirməsi barədə ona məlumat verirlər.

Küçədə gəzməyin belə təhlükəli olduğu bir vaxtda, sovet tank və əsgər patrulları ilə əhatələnmiş Bakı şəhərində Reza öz həyatını düşünmədən fotoaparatı ilə gizli şəkildə xəstəxanalara, meyitxanalara gedərək gördüyü mənzərələri fərqli aspektlərdən fotolentin yaddaşına köçürür.

– Bakı tanklar və əsgər patrulları ilə mühasirəyə alınmışdı. Açıq şəkildə gördüklərimizin şəkillərini çəkmək çox riskli idi. Ehtiyatlı davranmalı, maşınların və binaların pəncərələrindən fotolar çəkəndə kameranı gizlətməyin yollarını tapmalı idik", – deyə Reza bəy bildirdi. – Hər şeydən əvvəl, xatırladığım yalnız qırmızı və qara rənglərdir.

Qara Yanvar şəhidlərinin dəfn olunduğu məzarlığa çevrilmiş, qəbirlərin üzəri qırmızı qərənfillər və qara paltarlarla örtülmüş Şəhidlər xiyabanına gələn Reza şübhələri üzərinə çəkməmək üçün hər kəs kimi geyinmiş və insanların da köməyi ilə çəkiliş avadanlıqlarını gizlətmişdi.

Orduya məxsus helikopter izdihamı dağıtmaq üçün qəbiristanlığın üzərində uçuşlar həyata keçirdiyi zaman isə artıq Reza bu "qırmızı və qara"dan ibarət kadrları çəkib bitirmişdi. Təhlükəsizlik tədbirləri səbəbilə fotoaparat və avadanlıqlarsız Moskvaya qayıdan sənətkar sonradan dostlarının köməyi ilə onları əldə edib və oradan da Parisə gedib.

Parisə çatdığı günün axşamı 18-dən çox televiziya kanalı Rezanın çəkdiyi fotoşəkilləri göstərərək Bakıdakı hadisələr barədə danışdı, onlarla radiostansiya, 2000-dən çox jurnal və qəzet 20 Yanvar faciəsi barədə məlumat yaydı. Fotojurnalist Reza Deqati və komandasının çəkdiyi fotoşəkillər və videolar sayəsində qan yaddaşımız Qara Yanvar nəinki unudulmadı, dünya əhalisi mülki vətəndaşlara qarşı olan bu misilsiz vəhşilikdən xəbər tutdu.

Onun Azərbaycana xidməti bununla bitməyib. Növbəti gəlişi XX əsrin ən böyük faciəsi hesab edilən Xocalı soyqırımı ilə əlaqədar olub. O, bu faciəni də lentə alaraq Azərbaycan həqiqətlərini, xalqımızın üzləşdiyi dəhşətləri dünya ictimaiyyətinə çatdırıb.

Birinci Qarabağ savaşında xalqımızın başına gətirilən müsibətlər də Deqatinin fotokamerasının gözündən yayınmayıb. Ötən 30 il ərzində erməni vandallığını əks etdirən fotokadrları dünyanın müxtəlif mətbuat orqanlarında çap etdirib. 2020-ci ildə xalqımızın Vətən müharibəsində qazandığı tarixi Qələbə isə məşhur fotoqrafa yeni ruh verib. O, işğaldan azad olunmuş əraziləri qarış-qarış gəzərək kameranın yaddaşına köçürüb və bu mövzuda bir çox sərgilər təşkil edib.

Yeri gəlmişkən, Reza Deqatinin Vətən müharibəsində Gəncə, Tərtər və Bərdədə çəkdiyi fotolar münaqişə zonasından çox uzaqda dinc əhalinin hədəfə alındığına, ballistik və kasetli raketlərlə vurulub öldürülməsinə şahidlik edir.

Bu barədə danışarkən dedi:

– 2020-ci ildə işğalçılar, cinayətkarlar layiqincə cəzalandırıldı. Budur Qarabağın əsas dərsi: özgənin torpağına göz dikmək olmaz. Başqasının mülkünə yiyələnmək olmaz, məsum insanlara pislik etmək olmaz, pislik gec-tez onu törədənin üzərinə qayıdır.

***Ə.DOSTƏLİ***
***XQ***

# 20 Yanvar faciəsinin ildönümü xaricdə də anıldı

**Qanlı Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar xarici ölkələrdə də anım tədbirləri keçirilib.**

"XQ" xəbər verir ki, Ankarada Azərbaycanın Türkiyədəki səfirliyi, Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) birgə təşkilatçılığı ilə TADİV-in Şuşa Konfrans Mərkəzində bir araya gələrək şəhidlərin xatirəsini yad ediblər. Anım mərasimində Türkiyənin dövlət rəsmiləri, ictimaiyyət nümayəndələri, orada yaşayan azərbaycanlılar və bu ölkədə təhsil alan hərbçilərimiz iştirak ediblər.

Mərasimdə 20 Yanvar faciəsinə həsr olunan qısametrajlı film və bu qanlı hadisədən sonra Türkiyənin İğdır vilayətində keçirilən Azərbaycana dəstək mitinqinin görüntüləri nümayiş etdirilib. Tədbirdə Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, TADİV-in və Azərbaycan Evinin rəhbəri, professor Aygün Attar, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri, millət vəkili Şamil Ayrım və Mərmərə Qrupu Strateji Tədqiqatlar Mərkəzinin sədri Akkan Suver çıxış ediblər.










Natiqlər Azərbaycanın müstəqilliyini əldə etdikdən sonra ərazi bütövlüyü naminə uzun müddət mübarizə apardığını və bu müqəddəs amal uğrunda mübarizədə minlərlə Vətən övladının canından keçdiyini bildiriblər. Azərbaycanın 20 Yanvar tarixini əsla unutmayacağı qeyd olunub. 30 il işğal altında qalmış torpaqların azad edilməsi ilə şəhidlərin ruhunun şad olduğu bildirilib. Tədbir çərçivəsində 20 Yanvar faciəsinə həsr olunan sərgi də açılıb.

*

**20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar Əskişəhərdə keçirilən anım mərasimi Əskişəhər Azərbaycanlıları Dərnəyinin təşkilatçılığı ilə baş tutub. Ölkəmizin müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Mərasimdə dərnək sədrinin müavini Sirac Yaquboğlu və Azərbaycanın Türkiyədəki səfirliyinin əməkdaşı Aygün Qocayeva çıxış edərək 20 Yanvar hadisələrinə gətirib çıxaran ictimai-siyasi proseslər, sovet imperiyasının Azərbaycan xalqının haqq səsini boğmaq məqsədilə Bakıda və ölkəmizin digər bölgələrində hərbi cinayətlər törətməsi, bu faciənin ölkəmizin müstəqilliyinə gedən yolda dönüş nöqtəsinə çevrilməsi barədə ətraflı məlumat veriblər.

Anım tədbirində 20 Yanvar faciəsindən bəhs edən videoçarx nümayiş olunub.

*

**Azərbaycanın Pakistandakı səfirliyi bu ölkənin Milli Müasir Dillər Universitetində (MMDU) fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzində 20 Yanvar şəhidlərinin anım gününə həsr olunan "20 Yanvar – Azərbaycan tarixinin qəhrəmanlıq salnaməsi" adlı seminar keçirib. Seminarda universitetin müəllim-tələbə heyəti, bu ölkənin beyin mərkəzlərinin nümayəndələri, eləcə də səfirlik əməkdaşları iştirak edib.**

Ölkəmizin Pakistandakı səfiri Xəzər Fərhadov bu il 20 Yanvar faciəsinin 34-cü ildönümünün anıldığını bildirib, Azərbaycanın müstəqilliyi, habelə ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman şəhidlərin xatirəsinin dərin hörmətlə yad edildiyini söyləyib. Tariximizə Qanlı Yanvar kimi daxil olan bu hadisənin təkcə faciə kimi deyil, eyni zamanda müstəqillik uğrunda xalqımızın apardığı azadlıq mübarizəsinin zirvəsi kimi Azərbaycan tarixinə həkk olunduğunu vurğulayıb.

Diplomat Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun torpaqlarımızı erməni işğalından azad etdiyini və ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb.

Seminarda çıxış edən MMDU-nun xarici dillər fakültəsinin dekanı professor Cəmil Əsgər Cami və Pakistanın Davamlı inkişaf üçün Qlobal Strateji İnstitutunun icraçı direktoru Məhəmməd Şakil Əhməd Azərbaycan xalqını böyük keçmişi olan xalq adlandıraraq, 20 Yanvar hadisələrindən söhbət açıb və bu hadisələrin Azərbaycan xalqının azadlıq mübarizəsinin simvolu olduğunu bildiriblər. Çıxışçılar Azərbaycanın Vətən müharibəsindəki qələbəsindən də danışaraq ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsini hörmətlə yad ediblər.

*

**Ölkəmizin Koreya Respublikasındakı səfirliyində orada təhsil alan azərbaycanlı tələbələrin iştirakı ilə keçirilən anım tədbiri də yadaqalan olub.**

Səfir Ramin Həsənov 20 Yanvarın Ümumxalq Hüzn Günü olmaqla yanaşı, həm də Azərbaycanın müasir tarixində qəhrəmanlıq səhifəsi olduğunu vurğulayıb, xalqımızın müstəqillik uğrunda mübarizəsində şəhidlərin yeri və rolundan danışıb. Sonra o, Cənubi Koreyanın media təmsilçiləri üçün 20 Yanvar faciəsi ilə əlaqədar brifinq keçirib və jurnalistləri 20 Yanvar hadisələrinin mahiyyəti barədə məlumatlandırıb, bu faciənin insanlığa qarşı törədilmiş cinayət olduğunu vurğulayıb.



Diqqətə çatdırılıb ki, Ümummilli lider Heydər Əliyev faciənin ertəsi günü 20 Yanvar hadisələri barədə dünya ictimaiyyətinə məlumat verib və bu hadisənin günahkarlarını ən sərt şəkildə tənqid edib. Səfir sovet hakimiyyətinin törətdiyi qanlı cinayətin xalqımızın azadlıq iradəsini qıra bilmədiyini, əksinə, bu hadisənin Azərbaycanın müstəqilliyinin bərpası yolunda dönüş nöqtəsi olduğunu bildirib.

*

**Azərbaycanın Təbriz şəhərindəki Baş konsulluğunda da 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə bağlı təşkil olunan tədbirdə həmin qanlı hadisədən bəhs edən sənədli film göstərilib. Həmçinin Baş konsulluqda fotosərgi təşkil edilib və ehsan süfrəsi açılıb.**

Mərasimdə İranın Şərqi Azərbaycan valiliyinin siyasi və ictimai məsələlər üzrə müavini Torab Məhəmmədi, Şərqi Azərbaycan valiliyinin siyasi bürosunun




baş direktoru Həsən Həqiqian, Şərqi Azərbaycan valiliyinin ümumi və beynəlxalq əlaqələr üzrə idarəsinin baş direktoru Məhəmməd Əzizi Rad, İR XİN-in Şimal-Qərb nümayəndəliyinin rəhbəri Tohid Nəzəfzadə, Türkiyənin Təbrizdəki baş konsulu Çetin Taner və Baş konsulluğun əməkdaşları, Təbriz Mətbuat Evinin rəhbəri Mürtəza Şəfiyi, bu şəhərdə yaşayan Azərbaycan vətəndaşları və onların ailə üzvləri, tələbələr iştirak ediblər.

Baş konsul Əliyənnağı Hüseynov bildirib ki, 34 il bundan əvvəl, şaxtalı bir qış axşamında keçmiş SSRİ-nin qoşun birləşmələri bir neçə istiqamətdən Azərbaycana daxil olaraq, paytaxt Bakıda, ardınca isə ayrı-ayrı rayonlarda insanlıq əleyhinə cinayət törədib, bütün bunlar azmış kimi, o dövrdə faciənin əsl mahiyyətini ört-basdır etmək üçün Azərbaycan xalqına qarşı şər və böhtan kampaniyası aparıblar. Qanlı Yanvar hadisələri təcavüzkar Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları səbəbindən baş vermiş prosesdir. Ermənistanın işğalçılığına, Moskva hakimiyyətinin bu məsələyə birtərəfli və riyakar münasibətinə kəskin etiraz edən Azərbaycan xalqı küçə və meydanlara axışaraq ərazi bütövlüyünün təmin olunmasını tələb edib.

Qorbaçovun əmri ilə Bakıda qətllər törədən ordu birləşmələri qadın, uşaq və qocalara belə rəhm etmədən dinc əhaliyə divan tutublar. Lakin Azərbaycan xalqı sonadək öz hüquqlarını müdafiə edib və sonda müstəqilliyinə qovuşub.

*

**Azərbaycanın Küveyt Dövlətindəki səfirliyində bu ölkədə yaşayan və çalışan icma üzvlərinin, həmçinin Küveytdə təhsil alan azərbaycanlı və türk tələbələrin iştirakı ilə 20 Yanvar – Ümumxalq Hüzn Günü ilə qeyd olunub.**

Səfir Emil Kərimov Azərbaycan xalqının tarixinə hüzn və qəhrəmanlıq günü kimi daxil olmuş Qanlı Yanvar hadisələri ilə bağlı çıxış edib. O, ötən əsrin sonlarında, SSRİ-nin süqutu ərəfəsində erməni millətçilərinin Azərbaycana qarşı növbəti ərazi iddiaları qaldırmaları, Qarabağın Ermənistana birləşdirilməsini tələb etmələri, eyni zamanda ekoloji terrorun həyata keçirilməsinin xalqımızın haqlı narazılığına və etirazlarına səbəb olduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, qətliamla nəticələnən hərbi əməliyyat SSRİ və Azərbaycan Sovet Sosialist Respublikasının konstitusiyalarının, habelə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktın kobud şəkildə pozulması demək idi.

Səfir çıxışında Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə 20 Yanvar şəhidlərinin ailə üzvlərinə göstərilən qayğı barədə də məlumat verib.

"Vətənsevər" Azərbaycan–Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin sədri Könül Hacızadə çıxış edərək 20 Yanvar faciəsinin xalqımızın iradəsinin sarsılmazlığının, mətinliyinin göstəricisi olduğunu diqqətə çatdırıb.

Sonra tədbir iştirakçıları Qanlı Yanvar hadisələri barədə Azərbaycan dövlət televiziyasının istehsalı olan "Qəhrəmanlıq tariximizin 20 Yanvar səhifəsi" adlı sənədli filmə baxıblar. Bununla yanaşı, tədbirin keçirildiyi zalda fotostend quraşdırılıb, müxtəlif dövrlərdə nəşr edilmiş kitab və jurnallar təqdim edilib.

*

**Azərbaycanın Livandakı səfirliyində təşkil olunan mərasimdə 20 Yanvar hadisələrinin xalqımızın**



**müstəqillik mübarizəsində mühüm yer tutduğu qeyd edilib, bu faciənin həm də Azərbaycanın tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olduğu vurğulanıb.**

Çıxışlarda 20 Yanvar faciəsinin Azərbaycanın müstəqilliyinin bərpası yolunda dönüş nöqtəsi olduğu bildirilib. Böyük təzyiq və çətinliklərə baxmayaraq, Ümummilli lider Heydər Əliyevin həmin dövrdə güclü siyasi iradə nümayiş etdirdiyi xüsusi qeyd olunub.

Anım tədbirində, həmçinin müstəqilliyin bərpasından sonra Azərbaycanın keçdiyi yol, əldə etdiyi iqtisadi yüksəliş, xalqımızın qəhrəmanlıq salnaməsində yeni parlaq səhifə olan 44 günlük Vətən müharibəsi və postmünaqişə mərhələsində atılan addımlardan da danışılıb.

*

**Stokholmdakı "Zorakılığa qarşı" abidəsinin qarşısında 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar toplantı keçirilib. Azərbaycanın İsveçdəki səfiri Zaur Əhmədov bu günün xalqımızın tarixinə əsl qəhrəmanlıq səhifəsi kimi həkk olunduğunu vurğulayıb.**

Səfir qeyd edib ki, toplantının Stokholmun mərkəzində – "Zorakılığa qarşı" abidəsinin önündə baş tutması rəmzi məna kəsb edir. Bu, xalqımızın hər zaman sülhpərvər olmasına dəlalət edir. Tarixi Qələbə nəticəsində suverenliyi və ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycan öz qonşuları ilə dinc və mehriban şəraitdə yaşamağa önəm verir.




Anım mərasiminin iştirakçıları şəhidlərin xatirəsini dərin ehtiramla yad edib, abidənin önünə əklil qoyublar.

**Qulu KƏNGƏRLİ,**
**Namiq QƏDİMOĞLU,**
**Səxavət NAZİMOĞLU**
**XQ**

# 11 minə yaxın müraciətə baxılıb



**Yanvarın 19-da Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2023-cü ilin yekunlarına dair geniş əməliyyat müşavirəsi keçirilib.**

Baş prokuror Kamran Əliyev 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi, dahi liderin hüquq sisteminin təkmilləşdirilməsi, habelə inkişafı istiqamətində gördüyü işlər, prokurorluq orqanlarının inkişafına verdiyi töhfələrdən danışıb.

Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov hesabat dövrü ərzində Baş İdarədə baxılmış müraciətlər, cinayət xarakterli məlumatlar, həyata keçirilmiş əməliyyat və qabaqlayıcı tədbirlər, onların müsbət nəticələri, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əməkdaşlıq, Baş İdarədə başlanmış, ibtidai istintaqı tamamlanmış və məhkəmələrə göndərilmiş cinayət işləri, istintaq zamanı vurulmuş ziyanın ödənilməsi ilə əlaqədar görülmüş tədbirlər barədə olan statistik məlumatları müqayisəli şəkildə təhlil etməklə müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

Bildirilib ki, qeyd olunan dövrdə Baş İdarə tərəfindən vətəndaşların 10 min 897 müraciətinə baxılıb. Bundan başqa, əlaqəli dövlət qurumları ilə birgə yerinə yetirilmiş tədbirlər nəticəsində vətəndaşlar tərəfindən "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərdən böyük əksəriyyətinin müsbət həll edilməsi təmin edilib, zəruri hallarda cinayət-hüquqi tədbirlər görülüb.

Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətlərinə şərait yaradan halların aradan qaldırılması istiqamətində prokuror təsir tədbirlərinin tətbiqindən də müvafiq dövr ərzində istifadə edilib, yol verilmiş qanun pozuntularının səbəblərinin müəyyən edilməsi və gələcəkdə bir daha törədilməməsi üçün müxtəlif qurumlara 204 təqdimat göndərilib.

Qeyd edilən müddət ərzində Baş İdarədə 382 müraciət və digər məlumatlara cinayət xarakterli material kimi baxılıb, 301 material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanılıb, 81 material üzrə isə vurulmuş maddi ziyan məbləğlərinin ödənilməsi də nəzərə alınmaqla cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarlar qəbul edilib və digər prokuror təsir tədbirləri tətbiq edilib.

Əməliyyat qurumları tərəfindən 158 cinayət işi başlanılıb, keçirilmiş 49 əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 56 şəxs cinayət başında yaxalanıb, habelə axtarışda olan 30 nəfər saxlanılıb.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Kamran Əliyev növbəti dövr üçün tapşırıq və tövsiyələrini verib.

**XQ**

# Azərbaycanla mədəni körpüləri yandırmaq ən son addımdır

**Xarici ölkələrlə münasibətlərimizin tarixində ilk dəfə hər hansı bir ölkə ikitərəfli münasibətlərimizə əsaslanmayan və erməni diasporunun təzyiqi altında bu qədər çoxlu sayda qərəzli qətnamələr qəbul edir.**



Bu barədə Fransanın "Le Monde" qəzetinə müsahibəsində XIX əsr Azərbaycan şairəsi Xurşidbanu Natəvanın 2017-ci ildə fransız Evianında qoyulmuş abidəsinə qarşı ötən il dekabrın 30-da törədilən vandalizm aktını pisləyən Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bildirib.

Paris ilə Bakı arasında münasibətlərdə davam edən diplomatik böhrana həsr olunmuş yazıda bu il yanvarın 18-də Milli Məclisin Fransa Senatının bir gün əvvəl qəbul etdiyi növbəti anti-Azərbaycan qətnaməsinə reaksiyası qismində Azərbaycan hökumətinə Fransa ilə bütün iqtisadi əlaqələri kəsmək barədə çağırışı da xatırladılır.

**XQ**

# Paytaxt polisinin fəaliyyəti müsbət qiymətləndirilib

**Yanvarın 19-da daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə Bakı Şəhər Baş Polis İdarəsində 2023-cü ilin yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**




Müşavirəni giriş sözü ilə açan nazir V.Eyvazov tarixə "Heydər Əliyev İli" kimi daxil olan 2023-cü ilin Azərbaycanın işğala məruz qalan ölkədən Zəfər ölkəsinə çevrildiyini, ərazi bütövlüyümüzün, suverenliyimizin tam təmin edildiyini, Qarabağda separatizmin kökünün birdəfəlik kəsildiyini vurğulayıb.



Sonra hesabat dövründə paytaxtda cinayətkarlıqla mübarizə, ictimai qaydanın və təhlükəsizliyin təmin olunması, əldə olunmuş nəticələr və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edən Bakı Şəhər Baş Polis İdarəsinin (BPİ) rəisi, polis general-mayoru Əkbər İsmayılov bildirib ki, ötən il paytaxtda qeydə alınan 15 min 759 cinayətin 82,8 faizi az ağır və böyük ictimai təhlükə törətməyən, 17,2 faizi ağır və xüsusilə ağır növlər olub. 2022-ci illə müqayisədə hesabat dövründə ehtiyatsızlıqdan adam öldürmə 2 dəfə, ümumi cinayətlər 5,8, ağır və xüsusilə ağır cinayətlər 14,8, az ağır cinayətlər 5,7, soyğunçuluq 27,5, quldurluq 23 faiz azalıb, ümumilikdə 167 odlu silah, 65 qumbara, 3834 ədəd döyüş sursatı yığılıb, qanunsuz saxlanılan və gəzdirilən 78 odlu silah əməliyyat yolu ilə götürülüb.

Hesabat dövründə 49 soyğunçuluq və quldurluq cinayəti törədən 103 nəfərdən ibarət 42 qrup, eləcə də 56 mənzil oğurluğunda şübhəli bilinən 56 nəfərdən ibarət 26 cinayətkar qrup ifşa olunub, istintaqı tamamlanan cinayət işləri üzrə vətəndaşlara vurulan maddi ziyanın 76,6 faizinin (33 milyon 748 min 928 manat) ödətdirilməsi təmin olunub.

Məruzə ətrafında çıxış edən Bakı Şəhər BPİ-nin aidiyyəti struktur qurumlarının və rayon polis idarələrinin rəisləri hesabat ilində əldə olunan müsbət nəticələrlə yanaşı, xidməti fəaliyyətdə yol verilən bəzi nöqsan və çatışmazlıqlara da toxunaraq onların aradan qaldırılması üçün həyata keçiriləcək tədbirlər barədə məlumat veriblər.

Müşavirəyə yekun vuran daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov 2023-cü ildə paytaxtın polis orqanlarının cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsindəki xidməti fəaliyyətini ümumən müsbət qiymətləndirib. Konkret tapşırıq və tövsiyələrini verən nazir Baş İdarənin və onun struktur qurumlarının rəislərindən 2024-cü ildə xidməti fəaliyyətdə əsas diqqəti şəxsi heyət arasında nizam-intizamın möhkəmləndirilməsinə, cinayətkarlığın və digər hüquqazidd əməllərin qarşısının alınmasına, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin qətiyyətlə aparılmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunmasına, ən əsası isə vətəndaş məmnunluğunun yüksək səviyyədə təmin olunmasına yönəltməyi tələb edib.

**XQ**

# Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi təqdir edilib

**Yanvarın 19-da xarici işlər naziri Ceyhun Bayramov Uqandanın paytaxtı Kampalada Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının 19-cu Zirvə görüşündə iştirak edib.**




Zirvə görüşündə Hərəkatın sədri qismində açılış nitqi ilə çıxış edən nazir Azərbaycanın dörd il əvvəl Hərəkata sədrliyi beynəlxalq münasibətlər sistemi üçün olduqca mürəkkəb bir dövrdə təhvil aldığını vurğulayıb. Nazir ölkəmizin bu təsisata uğurla sədrlik etdiyini, Hərəkatın mövcud çağırışlarla mübarizədə səmərəliliyinin artırılması üçün substantiv və institusional tədbirlər gördüyünü diqqətə çatdırıb.

Sonra Hərəkatın 19-cu Zirvə görüşünün gündəliyi qəbul edilib. Gündəliyə əsasən, Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının sədri qismində uğurlu fəaliyyətini və təşəbbüslərini əks etdirən videoçarx nümayiş olunub. Sonra nazir Ceyhun Bayramovun Azərbaycanın Hərəkata sədrliyinin yekunlarına dair çıxışı dinlənilib.

2019-cu ildə Hərəkata sədrliyi təhvil alan Azərbaycanın sədrliyinin 2022-ci ildə üzv ölkələrin yekdil qərarı ilə daha bir il müddətinə uzadılmasının ölkəmizə göstərilən inam və etimadın təcəssümü olduğunu qeyd edən nazir Azərbaycanın sədrlik dövründə öz fəaliyyətini tarixi Bandunq prinsipləri əsasında qurduğunu bildirib. Bu istiqamətdə Azərbaycanın Qoşulmama Hərəkatının fəaliyyətinin əlaqələndirilməsinin, çevikliyinin təmini istiqamətində əməli tədbirlər gördüyü, bu işlər nəticəsində yüzlərlə bəyanat, kommünike və bəyannamələrin razılaşdırıldığı, Hərəkat üzvləri tərəfindən müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən BMT Baş Assambleyası və İnsan Hüquqları Şurasında irəli sürülmüş qətnamələrin qəbul edildiyi diqqətə çatdırılıb.

Tədbirdə iştirak edən digər üzv dövlətlərin nümayəndələri Azərbaycanın Hərəkata dördillik uğurlu sədrliyini təqdir ediblər.

Zirvə görüşündə qəbul edilən Yekun Sənəddə ölkəmizin maraqlarını əks etdirən müddəalar əks olunub.

Azərbaycanın İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyanın növbəti Tərəflər Görüşünə (COP29) ev sahibliyi etməsi Qoşulmama Hərəkatına üzv ölkələr tərəfindən yekdilliklə alqışlanıb.

Daha sonra Qoşulmama Hərəkatının sədrliyi Azərbaycan tərəfindən Uqandaya təqdim edilib, Zirvə görüşü Uqanda Respublikasının Prezidenti Yoveri Museveninin sədrliyi ilə davam edib.

## Azərbaycanın xarici işlər naziri Uqanda Prezidenti ilə görüşüb

**Xarici işlər naziri Ceyhun Bayramov Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının 19-cu Zirvə görüşündə iştirak məqsədilə Uqanda Respublikasına səfəri çərçivəsində bu ölkənin Prezidenti Yoveri Kaquta Museveni ilə görüşüb.**

Görüşdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyin Uqandaya təhvil verilməsi ilə bağlı təbrikləri bu ölkənin dövlət başçısına çatdırılıb. Eyni zamanda, Azərbaycanın sədrlik təcrübəsini Uqanda ilə bölüşməyə hazır olduğu bildirilib.

Görüşdə iki dövlət arasında siyasi münasibətlərin müxtəlif istiqamətləri üzrə əsas gündəm mövzuları ətrafında fikir mübadiləsi aparılıb və əlaqələrin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub. Həm ikitərəfli əsasda, həm də BMT, Qoşulmama Hərəkatı və digər çoxtərəfli əməkdaşlıq platformaları çərçivəsində əhəmiyyətli məsələlər üzrə əlaqələndirmə və qarşılıqlı dəstək təcrübəsinin davam etdirilməsinin önəmi vurğulanıb.

Azərbaycan-Uqanda ikitərəfli əlaqələrinin inkişafı, iqtisadi, sosial və humanitar sahələrdə təmasların və işgüzar münasibətlərin intensivləşdirilməsinə dair həmfikirlik ifadə olunub.

Söhbət zamanı Ermənistanın ölkəmizə qarşı təcavüzü, qaçqın və məcburi köçkün probleminə toxunularaq, keçmiş münaqişənin tarixçəsi barədə qarşı tərəfə ətraflı məlumat verilib. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsini və sonrakı qısamüddətli antiterror tədbirlərini şərtləndirən amillərdən bəhs olunub. Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət barədə danışılıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

**XQ**

# Hərbi mövzuda yazan jurnalistlərlə görüş

**Yanvarın 19-da Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyinin kommunikasiyaya cavabdeh şəxsləri ilə hərbi mövzuda yazan jurnalistlər və ekspertlər arasında görüş keçirilib.**

Əvvəlcə xalqımızın Ümummilli lideri Heydər Əliyevin, eləcə də milli azadlıq uğrunda mübarizəyə qalxmış 20 Yanvar şəhidlərinin, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş həmvətənlərimizin, həmçinin şəhid jurnalistlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin nümayəndələri tərəfindən müdafiə naziri, general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş Kommunikasiya Strategiyasının hesabatı təqdim olunub və Azərbaycan Ordusunda 2023-cü ildə icra edilən döyüş hazırlığı üzrə tədbirlərin icmalından ibarət videoçarx nümayiş etdirilib. Bildirilib ki, Azərbaycan Ordusunda 2023-cü il ərzində 143 taktiki-xüsusi, 261 taktiki, 8 taktiki uçuş, 7 gəmi-döyüş, 4 komanda-qərargah səfərbərlik təlimi, komando başlanğıc və snayper hazırlığı kursları keçirilib, eləcə də hərbi qulluqçularımız Azərbaycanda və digər ölkələrdə keçirilən 21 beynəlxalq təlimdə iştirak ediblər.




Hesabatda qeyd olunub ki, tədbirlərin işıqlandırılması və nazirliyin kommunikasiya strategiyasının icrası ilə bağlı Müdafiə Nazirliyi tərəfindən 2023-cü il ərzində ümumilikdə 955 məlumat, 4224 foto və 403 videomaterial rəsmi internet səhifəsində və sosial media hesablarında paylaşılıb. Məlumatlardan 854-ü rus və ingilis dillərinə tərcümə edilib. İl ərzində media subyektləri tərəfindən Azərbaycan Ordusunun maddi-texniki bazasından istifadə edilməklə çəkilişlərin aparılması məqsədilə ünvanlanmış 186 məktub icra olunub. Müraciətlərə əsasən təşkil olunmuş çəkilişlərdə 11 dövlət qurumu, 160 yerli media subyekti, 6 ictimai birlik, 9 prodakşn, radio, xarici media və media mərkəzləri iştirak edib. Bundan başqa, 171 media subyektinin 347 nümayəndəsinin iştirakı ilə hərbi hissələrə 26 media-tur təşkil edilib. Burada müxtəlif mövzularda çəkilişlər təşkil olunub və hərbi qulluqçuların gündəlik fəaliyyəti jurnalistlərə təqdim edilib. Media nümayəndələri tərəfindən daxil olan 91 sorğu cavablandırılıb.

Ordu rəhbərliyinin ictimaiyyətə bilavasitə açıqlama verməsinin əhəmiyyəti qeyd edilərək, cari il ərzində müdafiə nazirinin 3 müsahibəsi və mətbuat konfransının təşkil edildiyi bildirilib. Nazirliyin rəsmi sosial media hesablarında - instaqramda 1437, feysbukda 1478, X-də (tvitter) 1593, teleqramda 1567, yutubda isə 446 paylaşım edilib.

Görüş zamanı media subyektləri ilə qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi, səmərəliliyin artırılması məqsədilə perspektiv planlar müzakirə olunub. Hərbi və dövlət sirlərinin qorunması məqsədilə bu tip məlumatların yayılmasına yol verilməməsi, qarşısının alınması və birgə mübarizə aparılmasının zəruriliyi diqqətə çatdırılıb. Sonda media nümayəndələri əməkdaşlığın inkişafına dair təkliflərini veriblər.

**Rizvan FİKRƏTOĞLU**
**XQ**




**20 Yanvar – Ümumxalq Hüzn Günündə ərazi bütövlüyümüz və müstəqilliyimiz uğrunda canlarından keçən şəhidlərimizin ölməz xatirəsini dərin hüzn və sonsuz ehtiramla yad edirik.**

# Şəhid: “Mənim günümə ağlamayın”

**1990-cı ilin 20 yanvar – “qanlı şənbə” gecəsində şəhid olan insanlar arasında tanınmış pəhləvan Müşfiq İsayev də olub. 21 yaşlı gənc Vətənin azadlığı uğrunda sinəsini tankın qarşısına verməkdən çəkinməyib. Ən böyük arzusu Azərbaycanı müstəqil görmək olan ağdaşlı güləşçi parlaq gələcəyimizə böyük inam bəsləyirdi. Məhz işqlı sabahlara olan ümidi də yüzminlərcə insan kimi onu da meydanlara çıxarmışdı.**

Həmin müdhiş gecədə qoşunların axşam saatlarında şəhərə girməsi ilə bağlı məlumat onu da narahat etdiyindən evdə qərar tuta bilməmiş, metronun “Gənclik” stansiyası yaxınlığındakı mitinq və etiraz aksiyalarında sonacan dayanmağı qərara almışdı. Milli Azadlıq Hərəkatının öncüllərindən biri olan Müşviq bu zaman xalq birliyinin nə qədər vacib olduğunu yaxşı anlayırdı.

Dostu Elxanın şəhid idmançı ilə bağlı dedikləri:

–Həmin gecə ikimiz bir yerdəydik. Birdən stadiondan tanklar çıxmağa başladı. Çıxmaqlarıyla da oradakıları işıq saçan güllələrə tutmaqları bir oldu. Birdən Müşfiq yıxıldı. Qışqırdım ki, dur, qaçaq. Dedi ki, ayağım tutulub, ovxala. Bu an gördüm ki, tanklar yaxınlaşır. Müşfiqin yanına uzandım. Onlar bizi ölmüş bilib keçdilər. Tanklar aralanan kimi onu qucağıma götürüb yaxınlıqdakı ağaclığa qaçdım. Aparanda əlim qana bulaşdı. Orada gördüm ki, güllə ürəyinin üstündən dəyib, sağ çiynindən çıxmışdı. O tez-tez nəfəs alırdı. Hiss edirdim ki, son dəqiqələrini yaşayır. Burda məni ağlamaq tutdu. O dedi: — Mənim günümə ağlamayın, öz gününüzə ağlayın ki, sabah... Burda sözlərin düzümü qırıldı. Başı çiyninə düşdü.

Nə deyəcəkdi görən Müşfiq? Kəşməkeşli tarixi olan Azərbaycan dövləti əsrlər boyu öz müstəqilliyi və dövlətçiliyi uğrunda şərəflə mübarizə aparıb. Bu müqəddəs mübarizədə məhz xalqımızın qəhrəman oğul və qızları Vətəni diz çökməyə qoymayıblar. Müşfiq də canından əziz bildiyi yurdu uğrunda qurban gedən minlərcə Vətən övladı kimi şəhid oldu. Şəhidlər üçün ağlamırlar. Məhz onların özlərindən sonra qoyduqları mübariz ruh Vətəni ucadan uca edir. Müşfiq də məhz bunu demək istəyirdi. Çünki hər kəsə şəhidlik zirvəsi qismət olmur.

Müşfiq İsayev sərbəst güləş üzrə dünya çempionu Xəzər İsayevin kiçik qardaşı idi. Rusiyada qida sənayesi ixtisası üzrə ali təhsil almışdı. 1987–1989-cu illərdə hərbi xidmətini başa vurduqdan sonra Bakıya qayıtmış, sərbəst güləş üzrə məşqlərini davam etdirmişdir.

Bu gün xalqımızın qəhrəman şəhid övladının xatirəsi ürəklərdə yaşayır. Hər il Bakıda Müşfiq İsayevin xatirəsinə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə beynəlxalq turnirlər təşkil edilir. Doğulduğu Ağdaş şəhərinin mərkəzində onun



xatirəsinə küçə və orta məktəb də var. Rayonda şəhidin büstü qoyulub. Şəhid Müşfiq İsayevin xatirəsi xalqımızın qəlbində həmişə yaşayacaq.

*Leyla QURBANOVA*
*XQ*

# “Kədərli və şərəfli tarixin dərsləri”





**Yanvarın 19-da Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində 20 Yanvar Ümumxalq Hüzn Gününün 34-cü ildönümünə həsr olunmuş elmi sessiya keçirilib.**

Tədbiri giriş sözü ilə açan muzeyin direktoru, akademik Rafael Hüseynov “Kədərli və şərəfli tarixin dərsləri” mövzusunda məruzəsini diqqətə çatdırdı. Natiq bildirdi ki, bu gün – yanvar ayının 19-u Azərbaycan millət təqvimində son dərəcə əlamətdar bir gündür. Çünki illər öncə – 1990-cı ilin 19 yanvarından 20-nə keçən gecə Azərbaycanın tarixində baş verən hadisə hələ çox onilliklər insanları düşündürəcək, keçmişdə baş verən hadisələri təhlil etmək üçün yönəldəcək. Hər bir millətin tarixində elə səhifələr var ki, gərək unudulmasın. Həmin səhifələr yalnız onların haqqında danışmaq, olub keçənləri vərəqləmək üçün deyil, həm də onlardan dərs almaq və gələcəkdə inamla addımlamaq öyrənmək fürsətidir.

Sovet İttifaqının silahlı qüvvələri 1990-cı il yanvar ayının 19-da Azərbaycana hücum etdi. Xalqımız həmin günlər qurbanlar verdi. Yalın əlli dinc insanlar təpədən-dırnağa kimi silahlanmış böyük bir ordu ilə üz-üzə dayanmışdılar. Azərbaycan üçün o gün, əlbəttə ki, faciə idi. Tarixin gedişi sübut etdi ki, həmin gün həm də Sovet Ordusu üçün faciə idi, Sovet İttifaqı üçün faciə idi, sovet ideologiyası üçün faciə idi. Çünki o gün Azərbaycan xalqı itkilər verdi. Verilən itkilərin hər birinin əvəzində yeni-yeni insanlar yetişdi. Azərbaycan insanının mübarizlik ruhu birəbeş artdı. Ancaq həmin gün sovet imperiyasının süqutu günü idi.

Azərbaycan insanı həmin gecə öz rəşadət və mərdliyi ilə gələcək istiqlalımızın, az sonra başlanacaq dövlət müstəqilliyimizin təməlini qoydu. Yanvarın 19-dan 20-nə keçən gecə baş verənlər faciə idi, ancaq o gecə daha aydın sabaha açılırdı. O gecə sübut etdi ki, Azərbaycan xalqının iradəsini qırmaq mümkün deyil, Azərbaycan xalqını diz çokdürmək mümkün deyil. Bu hücumun məqsədi Azərbaycana göz dağı verərək, həm də Sovet İttifaqına daxil olan digər respublikalara dərs vermək idi ki, əgər mərkəzi hakimiyyətə qarşı qalxsanız, müstəqillik ideyası irəli sürsəniz, sizin də aqibətiniz belə olacaq. Azərbaycan həmin gün verdiyi qurbanlarla həm də Sovet İttifaqında yaşayan digər xalqların sonrakı taleyinə öz töhfəsini verdi. Onların da müstəqilliyə gedən yolunu açmış oldu.

R.Hüseynov həmin günlərdə xalqımızın haqq səsinin dünyaya çatdırılmasının qarşısını almaq məqsədilə Azərbaycan Televiziyasının enerji blokunun partladıldığı, respublika televiziyası və radiosunun verilişlərinin tamamilə kəsildiyi bir vaxtda ulu öndər Heydər Əliyevin xidmətlərini xüsusi qeyd etdi. Bu qanlı hadisənin ertəsi günü ümummilli lider Heydər Əliyevin özünün və ailəsinin həyatını təhlükəyə ataraq İlham Əliyevlə birlikdə Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gedərək 20 Yanvar faciəsini bütün dünyaya bəyan etdiyini xatırlatdı.

Akademik 20 Yanvar hadisələri zamanı qəhrəmanlıq göstərmiş jurnalist və mətbuat işçilərinin də fəaliyyətindən söz açdı, “Səhər” qəzetinin xüsusi nömrəsinin böyük tirajla nəşr olunduğunu xatırlatdı. Azərbaycanın çətin və ağrılı günlərində qazax xalqının böyük oğlu Oljas Süleymenovun xalqımızın yanında olduğunu və böyük dəstək göstərdiyini vurğuladı.

Çıxışının sonunda R.Hüseynov 20 Yanvarın təkcə faciə deyil, həm də zəfər, qürur günü kimi qeyd edildiyini bildirdi. O, 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edildiyini, Azərbaycanın böyük tarixi Zəfər qazanaraq ərazi bütövlüyünün, suverenliyinin tam bərpa edildiyini və bu gün dünyanın güclü dövlətləri sırasında dayandığını dedi. R.Hüseynov xalqımızın hər zaman Azərbaycanın müstəqilliyi, torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının, şəhidlərinin xatirəsini əziz tutduğunu, heç zaman onları unutmayacağını bildirdi.

Sonda Mədəniyyət Nazirliyinin sifarişi ilə “Salnaməfilm” studiyasında hazırlanmış “Silahdaşlar” filmi nümayiş olundu. Film 1990-cı il 20 Yanvar hadisələrini lentə alan kino işçilərinin fədakarlığından bəhs edir.

*Qabil YUSİFOĞLU*
*XQ*

# “Əcəlin əlindən aldıq onları”

**20 Yanvar faciəsinin 34-cü ildönümü ərəfəsində Bakı qırğınının başlandığı “20 Yanvar” meydanının 5 addımlığında yerləşən Respublika Klinik Xəstəxanasında olduq. Həmin günlərin şahidi – Gülnaz Mehdiyeva ilə o qanlı-qadalı anları xatırladıq. O, ortopediya və travmatologiya şöbəsinin baş tibb bacısıdır. Hadisələrin ən qaynar nöqtəsində olub desək, yanılmarıq. 41 ildən bəri burada çalışan həmsöhbətim 34 il əvvəlki o müdhiş günlərə qayıdır:**



– Xalqımız üçün ağır olan o günlər getsin, bir də dönməsin. Bugünkü müstəqilliyimizin ilk savaşından üzüağ çıxan oğullarımız bizim baş tacımızdır. Xəstəxanada 20 Yanvar faciəsinin şahidlərindən indi az adam qalıb. “O gecəni necə xatırlayıram”,– deyə soruşursunuz? – Çox ağrılı... Evimiz 9-cu mikrorayonda idi. Atəş səsləri gecənin sükutunu pozanda, artıq bildik ki, şəhərə yeridilən qoşun etiraz məqsədilə tankların qabağına çıxanları atəşə tutub. Səhər obaşdan qardaşıma dedim ki, məni xəstəxanaya çatdır. Yolboyu gördüm ki, “Şamaxinka” adlanan ərazi, 20 Yanvar dairəsi qan içindədir.

İşə çatanda məni vahimə bürüdü. Qızlar, qadınlar, bir-birinə qarışmışdı. Hamısının üst-başı qan içində yaralı daşıyırdı. Tibb bacıları Südabənin, Lalənin və digər kiçik tibb işçilərinin necə böyük canfəşanlıqla, ağlaya-ağlaya yaralı daşıdıqları hələ də gözümün önündədir. Ağacların dibində, künc-bucaqda yaralanıb qalanları Südabə göz yaşları içində, “sizə bu uşaqlar neyləmişdilər, ay cəlladlar” – deyə-deyə çiynində gətirirdi. Xəstəxanada işıq yox idi. Lampa, şam işığında əməliyyatlar aparırdılar. Hemotoloqlar, cərrahlar, ortopedlər, bir sözlə, bütün həkimlər səfərbər olunmuşdu. 5 mərtəbənin hamısındakı əməliyyat otaqları yaralı ilə dolmuşdu. Bir xəstənin əməliyyatı bitirdi, çıxarıb növbəti xəstəni içəri alırdılar. Dəhlizlərdə yaralı əlindən tərpənmək mümkün deyildi. İşıq olmadığından, kimin daha çox qan itirdiyini seçmək belə olmurdu.

Həmin gecə bacımın həyat yoldaşı Fərahim Mahmudovu da qolun bazu sümüyünün güllə yarası ilə xəstəxanaya gətirmişdilər. Bütün üst-başı qan içində idi. Həkimlər rentgenə ehtiyac duymadan onu da lampa işığında əməliyyat etdilər, qoluna şvift qoydular. Çünki sümük çox zədə aldığından, mil sınıqları saxlaya bilməzdi. O, ömrünün sonunadək həmin şviftlə gəzdi.

Biz o günlərdə nələr görmədik... “Zaporojets”in üstündən keçən tank maşını tamamilə əzmişdi. Təsəvvür edin ki, içəridə Nazim Ələkbərov adlı sürücü qol-qıçındakı sınıqları, əzikləri nəzərə almasaq, sağ qalmışdı. Nə kəllə-beyin travması vardı, nə daxili qanaxması olmuşdu. Deməli, onun qismətində hələ yaşamaq varmış. Bilirəm ki, Nazim Ələkbərov o günlərin acı xatirəsi olaraq, həmin maşını olduğu kimi indiyədək həyatində saxlayır.

O vaxt ortopediya və travmatologiya şöbəsinin müdiri vardı, Şofiq Əhmədov. O, digər həmkarları ilə əsil qəhrəmanlıq nümunəsi göstərdilər. Natiq Əliyev, Natiq Əhmədov, Həsən Abdullayev yorulmaq nədir bilmədən, həmin gecə və sonrakı günlərdə istirahətsiz xəstələrin qulluğunda durdular. Qeyd edim ki, Natiq Əliyev həm də 1-ci Qarabağ müharibəsinin veteranıdır. Həmin müharibədə ayağından zədə alıb. Hemotoloq Fuad Əfəndiyev gecə-gündüz cərrahlarımızla birgə yaralılara yardım etdi. O vaxtdan 34 il keçib. Həm həmin həkimlər indi işləmir, həm də soyadlarını unutmuşam. Amma o günlər bütün xəstəxanada çalışanların bir amalı vardı: yaralılara lazımınca xidmət göstərmək. Vətənin müstəqilliyi uğrunda qanlarından keçənlərə bu, bizim vətəndaşlıq borcumuz idi, həm də peşəmiz bunu tələb edirdi.

**Ağır yaralıları xatırlayan həmsöhbətim deyir ki, yardım və əməliyyat edilənlərdən dünyasını dəyişən olmasa da, ayağı, qolu amputasiya edilənlər vardı. O, həmin günlərdə şəhərdə gəzməyin də təhlükəli olduğunu xatırlayır:**



– “Şamaxinka”dan yaralıları maşınla gətirirdilər. Qubalı Əfqan vardı. Deyirdi ki, maşınla gəlirdik. Hər tərəfin qan olduğunu gördüm. Qapını açıb maşından yerə düşəndə atəş açdılar. Güllə onun sağ budunu parçalamışdı. Xəstəxanaya gətirilən yaralılardan kimsə həyatını itirmədi. İlk tibbi yardım göstərilənlər də vardı. Yüngül yaralananlardan şəhərdə yaşayanlar da yer çatmazlığı səbəbindən yardım göstəriləndən sonra evlərinə gedirdilər. Bir gün sonra xəstəxanaya generator qoydular. Şöbəmiz 70 nəfərlikdir, amma biz ora 150 yaralı yerləşdirmişdik. Dəhlizə adyalları, matrasları yerə atıb xəstələri ora uzadırdıq. Həmin gecə yaralılardan xəbər tutan yaxınları xəstəxanaya axışmışdı. Qışqırtı, ah-nalə, ağlaşma səsləri yadıma düşəndə əhvalım dəyişir. ...5 sutka ev üzü görmədim, yuxu bilmədim, burada qaldım.

**O anda fikrimə gəldi ki, soruşum: “Sonralar heç o yardım göstərdiklərinizdən rastlaşdığınız oldumu?” Gülnaz xanım fikrimi oxuyurmuş kimi söhbəti dəyişdi:**



– Yenicə ailə qurmuşdum. Bir dəfə həyat yoldaşımla bir taksiyə mindik. Güzgüdən sürücü mənə tanış gəldi, amma yoldaşıma görə susdum. Sonra özümü saxlaya bilməyib dedim: “Sən Raufsan?” Qayıtdi ki, Gülnaz xanım, mən sizi o dəqiqə tanıdım. Utandım deməyə. Yoldaşımla tanış oldu. Sonralar uzun müddət get-gəlimiz oldu. Qubadan Əfqan adlı bir yaralımız vardı. Toyuma da gəlmişdi. İndiyəcən də ailəvi əlaqələrimiz var. Onlar özlərini ölümün ağuşuna atmışdılar.

O gün bizim müstəqilliyə gedən ilk addımımız atıldı. 20 Yanvar bizim şərəf və qürur günümüz, qan yaddaşımızdır. Həmin gün azadlıq üçün can verənlərin övladları bizə 3 il öncə böyük zəfəri yaşatdı.

*Zərifə BƏŞİRQIZI*
*XQ*




# Türk dünyasının böyük uğuru

**Alper Gezeravcı Türkiyənin Milli Kosmos Proqramı çərçivəsində həyata keçirilən "ilk insanlı kosmos missiyasını" uğurla həyata keçirib.**



Türkiyə Hərbi Hava Qüvvələrinin polkovniki Alper Gezeravcı Beynəlxalq Kosmik Stansiyaya iki həftəlik missiya ilə kosmosa çıxıb və Türkiyə kosmonavtlarını uğurla kosmosa göndərən ölkələrdən birinə çevrilib. Polkovnik Gezeravcı TRT World-ə eksklüziv müsahibəsində deyib ki, bu, çox simvolik və mühüm bir addımdır: "Bununla belə, bu, böyük ölkəmiz üçün səyahətin yalnız başlanğıcıdır".

Türkiyəli astronavt müsahibəsində bildirib ki, uşaqlıqda heç vaxt astronavt olmaq arzusunda olmayıb, çünki bu, yalnız digər ölkələrdən olan uşaqlar üçün mümkün görünürdü. Ancaq yanvarın 17-də kosmosa səyahətə başlayan polkovnik Gezeravcı Türkiyənin kosmos xəyalını gerçəkləşdirdi. Videomüsahibəsində türkiyəli astronavt bildirib ki, bundan sonra Türkiyənin güclü iradə və qətiyyət nümayiş etdirərək kosmosa insanlı bir uçuş həyata keçirdiyini anlamaqdan qürur duyacaq. Şübhəsiz, bu, qardaş ölkənin yüz illik tarixində əlamətdar hadisədir gələcək nəsillər üçün kosmosun kəşf edilməsində ilham mənbəyi olacaq".

Alper Gezeravcıdan başqa daha 3 nəfər kosmosa yollanıb. Bunlar ABŞ və İspaniyanı təmsil edən Maykl Lopes Alegria, İtaliya Hərbi Hava Qüvvələrinin pilotu Valter Villadei və İsveç vətəndaşı Markus Vandtdır. Qeyd edək ki, Alper Gezeravcının Beynəlxalq Kosmik Stansiyada 14 gün qalacağı və 13 fərqli elmi təcrübə həyata keçirəcəyi bildirilir. Biologiya, tibb, materialşünaslıq və genetika kimi sahələrdə aparılacaq təcrübələrdən birinin Muş Elm və Sənət Mərkəzində tələbələr tərəfindən hazırlandığı açıqlanıb. Polkovnik Gezeravcı vurğulayıb ki, türk astronavtının Beynəlxalq Kosmik Stansiyada (BKS) olması türk alimlərinə əhəmiyyətli tədqiqatlar apardıqları elm sahələrində "rəqabət etmək üçün bərabər imkanlar" yaradır.

Xatırladaq ki, Türkiyənin ilk kosmonavtı, hərbi pilot Alper Gezeravcı 44 yaşındadır və 1979-cu il dekabrın 2-də Mersin şəhərində anadan olub. O, ABŞ Hərbi Hava Qüvvələri Texnologiya İnstitutunda əməliyyat tədqiqatları üzrə magistr dərəcəsi alıb və Türkiyə Hərbi Hava Qüvvələri Akademiyasını elektronika mühəndisliyi ixtisası üzrə bitirib. Türkiyə Hərbi Hava Qüvvələrində xidmət edib.

**S.ELAY**
**XQ**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun Dəniz Nəqliyyatı Donanmasının inzibati binasının ventilyasiya və kondisioner sisteminin quraşdırılması xidmətlərinin (mal-material və işçi qüvvəsi) satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 30-u saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2.

# Böyük Britaniyada 1973-cü il fəlakəti təkrarlana bilər

**Son onillik bütün dünya üçün çox uğursuz oldu. Çində alovlanan pandemiya bütün dünyanı başına aldı. Enerji sarsıntıları və Yaxın Şərqdə lokal müharibələr dünya iqtisadiyyatına ağır zərbə vurdu. Nəticədə inflyasiyanın və işsizliyin səviyyəsi sürətlə qalxdı, Böyük Britaniya iqtisadaiyyatı isə resessiyaya uğradı.**

"The Telegraph" bu hadisələrin fonunda Böyük Britaniyanın sosial-iqtisadi mənzərəsini cızmağa çalışır və yazır: "Staqflyasiya adlanan zəhərli proses siyasi qarışıqlıq yaradaraq ölkəyə zərbə vurdu. Həmkarlar ittifaqlarının aramsız tətilləri bir sıra sənaye sahələrini tamamilə iflic etdi. Qəzəbli ictimaiyyət bütün bu baş verənlərə görə, son dərəcə qeyri-sabit olan siyasi sistemi günahlandırdı və nəticədə on il ərzində beş hökumət, dörd baş nazir dəyişdi.

Adamda belə bir təəssürat yaranır ki, 2020-ci illərdə baş verənlər 1970-ci illəri təkrarlayır. Əgər leyborist Key Starmer növbəti seçkilərdə qalib gəlsə, paralellik demək olar ki, tamamlanacaq. Amma bəzi fərqlərin olacağını da inkar etmək olmaz. Nəhayət, axı 1973-74-cü illəri heç də əsassız yerə ötən əsrdə Böyük Britaniya üçün ən pis illər hesab etmirlər: inflyasiya 9 faizə qalxmışdı, yanacaq çatışmazlığı ölkəni iki illik tənəzzülə sürükləmişdi, hətta müəssisə və idarələr üç günlük iş həftəsinə keçməyə məcbur olmuşdular. Üstəlik, bütün bu hadisələrin baş verdiyi illərdə İngiltərə milli futbol komandası dünya çempionatına vəsiqə qazana bilməmişdi.

"The Telegraph" qeyd edir ki, bazarların son çərşənbə günü açıqlanan inflyasiya məlumatlarına kəskin reaksiyasını diktə edən də məhz bu hisslərdir. Onun göstəricilərinin 2023-cü ilin fevralından bəri ilk dəfə olaraq aylıq 3,9 faizdən 4 faizə yüksəldiyi məlum olanda, Britaniya Fond Birjasının FTSE 100 indeksi, demək olar ki, 2 faizə düşüb.

Bəzilərinə elə görünə bilər ki, bunlar həddindən artıq şişirdilir, çünki artımın əsas hissəsi tütün məmulatlarına daha yüksək tariflərlə şərtlənir, əsas inflyasiya isə sabit qalır. Lakin bu, Britaniya iqtisadiyyatının uçurumun kənarında olması üzündən yaranan həyəcanın daha da artdığını əks etdirir. Hətta aydın görünür ki, İngiltərə Bankı da dərəcəni 5,25 faizdən aşağı salmağa tələsmir və özünü sığortalamağa üstünlük verir.

İngiltərədə vəziyyət, həqiqətən, çox ciddidir. Bunu təkcə "The Telegraph" yazmır. İnflyasiya həyəcanverici dərəcədə sabitdir. İqtisadiyyat ciddi sarsıntıya məruz qalmaqla yanaşı, meydana çıxan bir çox problemlər də onun vəziyyətini daha da ağırlaşdırır: karantin, Rusiyanın Ukraynadakı xüsusi hərbi əməliyyatı və bununla əlaqədar enerji daşıyıcılarının qiymətlərindəki sıçrayış, Qırmızı dənizdə ticarət gəmilərinə hücumlar, Yaxın Şərqdə lokal münaqişə...

Bunlar öz yerində. İngiltərə nəşri yazır ki, Böyük Britaniya sübut edir ki, özü də inflyasiyanı "çox yaxşı" sürətləndirə bilər: davamlı karantinlər səbəbindən hökumət əldə etdiyi gəlirdən təxminən 400 milyard funt sterlinq daha çox borc alıb.

1973-cü ili böhran həddinə çatdıran həm də siyasi uğursuzluqlarla iqtisadi təlatümlərin üst-üstə düşməsi olmuşdu. Neftin qiyməti qalxanda hökumət kömürə üz tutmuşdu. Sonra mədənçilərin həmkarlar ittifaqları inflyasiyanın təsirini bir qədər yumşaltmaq ümidi ilə dərhal maaşların artırılmasını tələb etmişdilər. Gözlənilən nəticə dərhal özünü göstərmişdi və silsilə tətillər başlamışdı. Bundan əlavə, elektrik enerjisinin kommersiya təchizatının həftədə yalnız üç gün təmin ediləcəyi təhlükəsi yaranmışdı.

Nəşr yazır: "Enerji məhdudiyyətləri Britaniya iqtisadiyyatını cənginə alıb onu tamamilə iflic vəziyyətinə saldı. İstehlakçılar tezliklə aydınlaşdırdılar ki, məhsul çeşidi azalır və iqtisadiyyatın durğunluğuna baxmayaraq, bu, qiymətlərin artmasına səbəb olur".

Əslində indinin özündə də İngiltərədə buna bənzər ssenarini təsəvvür etmək çətin deyil. Düzdür, mexanizmlər bir qədər fərqlidir. Şərhçilər qeyd edirlər ki, keçənilki tətillərin yaratdığı səs-küy və narahatlıqlara baxmayaraq, Britaniya siyasətində həmkarlar ittifaqlarının çəkisi və təsir imkanları artıq əvvəlki kimi deyil.



1970-ci illərdə onlar, həqiqətən, bütün işçilərin təxminən yarısını təmsil etdiklərini iddia edirdilər. Bu gün onların payı təxminən 20 faizə düşüb.

"The Telegraph" bütün günahı hökumətdə görür və bildirir ki, fəlakətə aparan "ən etibarlı yol" dövlət siyasətidir. Bir anlığa təsəvvür edin ki, Avropaya yanacaq xammalı idxalı yenidən pozulacaq. Bütün qitədə enerji daşıyıcılarının qiymətləri artacaq. Britaniyanın əmək bazarı bunu çox sakit qəbul edəcək. Real əmək haqqını saxlamaq üçün, həmkarlar ittifaqları ilə kəskin danışıqlar aparmadan, məşğulluğu yüksək saxlamaq mümkün olsa da, inflyasiya əmək haqqını "yeyəcək". Yeni leyborist hökuməti işə qarışmayana qədər, sistem nəzərdə tutulduğu kimi işləməyə davam edəcək.

"Müavinətlərin dəqiq necə – inflyasiya əsasında və ya orta əməkhaqqı əsasında artırılmasının seçilməsinə gəlincə, hökumət öz büdcə qaydalarını pozaraq, birinci variantı seçir. Bu isə nəinki istehlak tələbinin (bununla bərabər həm də qiymətlərin), artmasına səbəb olacaq, həm də işləmək həvəsini söndürəcək", – deyə "The Telegraph" yazır.

Müşahidələr göstərir ki, son iki ildə bu vəziyyətdə əksər britaniyalının zəif müqavimət yolu tutduğu açıq-aydın görünür. Bu da əsasən ondan irəli gəlir ki, vergi yüklərinin rekord həddə qaldırılması özü-özlüyündə insanların işləmək stimulunu məhv edir.

Əgər Starmer 2030-cu ilə qədər enerji sistemini "karbonsuzlaşdırmaq" planını irəli sürərsə, vəziyyət daha da pisləşəcək. O zaman Böyük Britaniya işıqların kütləvi şəkildə kəsilməsinə artıq təhlükəli dərəcədə yaxınlaşacaq, çünki indinin özündə ölkənin milli enerji sistemi artıq insanlara qənaət etmələrinə görə əlavə pul ödəyir, təklif isə tələb ilə zorla ayaqlaşır.

Bu gün ölkə qaranlıq və küləksiz günlərdə mədən yanacağı yandırmaqla keçinir - əsasən qazla işləyən elektrik stansiyaları fəaliyyət göstərir. Əlbəttə, bəzi tədbirləri gerçəkləşdirməklə, karbon qazının tutulması və saxlanması vasitələri ilə xalis sıfır hədəfinə çatmaq bəlkə də mümkündür. Lakin elektrik enerjisi istehsalında fasilələrlə bərpa olunan enerji mənbələrinin payı daim artdığından (tələbat kimi - xüsusən də qazla işləyən isitmə sistemlərini tədricən istilik nasosları əvəz etdikcə) mövcud güclərin kifayət etməyəcəyi istisna edilmir.

Çətin ki, leyboristlər mədən yanacağı ilə işləyəcək elektrik stansiyaları tikmək yolunu seçsinlər. Əlbəttə, nüvə layihələri son dərəcə əladır, lakin bunlar həddən artıq yüklənmiş İngiltərənin planlaşdırma sisteminin öhdəsindən gələ biləcəyi iş deyil. Beləliklə, qlobal enerji qiymətlərində qəfil sıçrayış olmasa belə, elektrik enerjisinin verilməsində fasilələrin olması ehtimalı böyükdür.

"Nəhayət, pul-kredit siyasətində səhv hesablamalar "tabuta vurulan son mismar" olacaq, - deyə "The Telegraph" yazır. "1970-ci illərdə həm hökumət, həm də İngiltərə Bankı faiz dərəcələrini artırmadan inflyasiyanı cilovlaya biləcəklərini güman edirdilər. Onların fikrincə, inflyasiya ilə mübarizənin ən etibarlı yolu qiymətlərə nəzarət, vergi dərəcələrinin dəyişdirilməsi və digər fiskal tədbirlərdən ibarətdir. Nəticədə 1975-ci ilə qədər inflyasiya, demək olar ki, 23 faizə çatdı ki, bu da son 700 ildə görünməmiş bir səviyyə idi.

Bugünkü İngiltərə Bankı inflyasiyaya nəzarət etməyin pul sahibi kimi hakimiyyətin məsuliyyəti olduğunu yaxşı bilir. Məsələ bundadır ki, onlar bunu çox pis həyata keçirirlər. Bankın son iki ildəki korlanmış nüfuzu inflyasiyanın sürətlə aradan qaldırıla biləcəyinə olan ümidləri puça çıxarmalıdır".

Qəzet sonra yazır: "Beləcə, yeganə çatışmayan şey böhranın başlaması üçün bir təkandır".

Hələ ki, Yaxın Şərqdəki lokal döyüşlərin əvvəlki kimi genişlənə və bütün regionu əhatə edə biləcəyi ehtimalı böyükdür. Qlobal ticarətin 12 faizinin Süveyş kanalından və qlobal neft ixracının 20 faizinin Hörmüz boğazından keçdiyini nəzərə alsaq, istənilən geniş münaqişə təchizatı kəskin şəkildə azaldacaq və qiymətlər sürətlə qalxacaq. Eyni şeyi Çinin ərazi bütövlüyünü bərpa etmək üçün Tayvana hücum perspektivi və bunun ardınca gələcək iqtisadiyyatın Şərq və Qərbə bölünməsi haqqında da demək olar.

"The Telegraph" sonda belə yazır: "Bunlar yalnız ən gerçək problemlərdir. Kataklizmlərin xüsusiyyətləri ondadır ki, mahiyyətinə görə onları proqnozlaşdırmaq çətindir. "Sıfır emissiya"sının ardınca qaçıb, İngiltərə Bankının səhv hesablamaları və ümumi siyasi iğtişaşlar səbəbindən biz 1973-cü il hadisələrinin təkrarlanması ilə üz-üzə qala bilərik".

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 12 (30416) 20 yanvar 2024-cü il, şənbə


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# M.Y.Lermontov “Azərbaycan” pavilyonunda



**Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki “Azərbaycan” pavilyonunda yanvarın 24-də Mixail Lermontova həsr olunmuş sərgi açılacaq.**

Şairin 210 illiyinə həsr olunacaq “Lermontov zamanı. Dahi şair Azərbaycanın mədəniyyətində” adlı sərgidə ziyarətçilər ilk dəfə Lermontovun həyatda olarkən çəkilmiş portretinə baxa biləcəklər.

Qeyd edək ki, həmin rəsm əsəri “Lermontov zamanı” regional ictimai təşkilatının və fərdi kolleksiyaçının səyləri sayəsində ABŞ-dan Rusiyaya qaytarılıb.

*XQ*

# Qış birinciliyinin qalib atletləri

**2007-2008-ci il təvəllüdlü qız və oğlan atletlər arasında keçirilən Bakı şəhər qış birinciliyində qaliblər bəlli olub.**



Müxtəlif kateqoriyalar üzrə oğlanlar arasında Hüseyn İsmayılzadə, Nihat Tağıyev, Ələkbər Əsgərov, Rəvan Behbudov, Nihat Qafarov və Kənan Vəliyev birinci yeri tutublar.

Qızların yarışında isə Ləman İsfəndiyarova, Safiya Kərimova və Zeynəb Qəmbərova qalib adını qazanıblar.

# Cüdo millimiz Soçidə

**Azərbaycanın cüdo üzrə qadınlardan ibarət millisi Rusiyanın Soçi şəhərindədir.**



Yığma üzvləri bu şəhərdə yanvarın 14-dən beynəlxalq təlim-məşqləri davam etdirirlər. Toplanış ayın 18-dək davam edəcək.

Təlim-məşq prosesi qarşıdan gələn irimiqraslı beynəlxalq yarışlara hazırlıq məqsədi daşıyır.

# Ən yaxşı hücumçular

**Futbol üzrə peşəkar karyerasını davam etdirən ən yaxşı hücumçuların adı açıqlanıb.**



“FourFourTwo” nəşrinə görə, siyahının ilk pilləsində İngiltərə millisinin və Almaniyanın “Bavariya” klubunun futbolçusu Harri Keyn qərarlaşıb.

“Mançester Siti”də çıxış edən İngiltərənin digər təmsilçisi, norveçli forvard Erlinq Holann ikinci pillədə yer alıb.

Fransa yığmasının və PSJ-nin hücumçusu Kilian Mbappe ilk “üçlüy”ü tamamlayır.

*Leyla SABİRQIZI*
*XQ*

# “Unudulmaz yaddaş”

**Yanvarın 18-də Azərbaycan İstiqlal Muzeyində 20 Yanvar hadisələrinin 34-cü ildönümünə həsr olunmuş “Unudulmaz yaddaş” adlı toplantı keçirilib. Tədbirdə 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin dərnək üzvlərinin hazırladığı bədii kompozisiya təqdim olunub.**



Qeyd olunub ki, otuz dörd il əvvəl yanvarın 19-dan 20-nə ötən gecə doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar.

Bildirilib ki, Vətənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman şəhidlərimizin uyuduqları Şəhidlər xiyabanı bizim müqəddəs and yerimizə çevrilib. Hər il minlərlə insan bu and yerini ziyarət edərək əbədiyaşar şəhidlərimizin xatirəsini yad edir.

Tədbirdə 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin rəhbərliyi və dərnək üzvləri, Səbail rayonu 7 nömrəli tam orta məktəbin müəllimləri, şagirdləri və digər qonaqlar iştirak ediblər.

*XQ*



# Biz sizdən öyrəndik qəhrəmanlığı!

**Müstəqilliyə aparan cığırları 20 Yanvar şəhidləri açdılar. Onlar öz mübarizlik, cəsurluq və fədakarlıqları ilə tarix yazdılar. Həmin gecə dünyanın ən böyük dövlətinin təpədən-dırnağa qədər silahlanmış ordusu Bakıda əliyalın sadə vətəndaşlar qarşısında məğlub oldu. Bu məğlubiyyət sonralar həmin ordunun qoruduğu nəhəng imperiyanın da süqutunda həlledici və əhəmiyyətli rol oynadı.**

Həmin hadisədən sonra ölkəmizin müstəqilliyi haqqında Konstitusiya aktı qəbul edildi.

Xalqımızın yurd təəssübü çəkən vətənpərvər övladları Birinci Qarabağ döyüşlərində silaha sarılaraq torpaqlarımızın müdafiəsinə qalxdılar.

Aprel döyüşlərində Böyük Qələbənin təməli qoyuldu.

2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində 30 ilə qədər işğal altında olan torpaqlarımız azad edildi, xalqımızın hərb tarixində möhtəşəm Zəfər qazanıldı.

Ötən ilin sentyabrında həyata keçirilən lokal antiterror əməliyyatları nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi.

1990-cı ilin 20 Yanvarında Bakı küçələrində sinəsini xalqımızın süverenliyi və azadlığı uğrunda tankların, topların və zirehli texnikanın qabağında sipər edənlərin arzuları çiçək açdı!

Onların müqəddəs arzularını gerçəkləşdirən davamçıları bu gün Şəhidlər xiyabanında hesabat verirlər: rahat yatın, rahat uyuyun! Sizin başladığınız yolu canımız-qanımız bahasına olsa da, uğura daşıdıq. Əziz və unudulmaz şəhidlər, sizin bütün arzularınız üstünüzə düzdüyümüz qərənfillər kimi qıpqırmızı çiçək açıb. Şuşada, Xankəndidə üçrəngli Azərbaycan bayrağı dalğalanır. Ölkəmizin müstəqilliyi əbədi və dönməzdir! Xalqımızın qazandığı Zəfər yolumuza nur ələyir...

Yeriniz behişt, torpağınız yumşaq olsun, şəhidlər!

*Süleyman QARADAĞLI*

**Hava**

# Dəyişkən buludlu, yağmursuz...



***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 20-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.***

Mülayim cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 5-8°, gündüz 8-12° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 755 mm civə sütununa enəcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 10-15° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 3-8° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

**Sağlamlıq**

# Sümüklərdə probleminiz varsa...

**Son illər sümük ağrısı problemi təkcə yaşlılarda yox, gənclərdə də başlayıb. Buna səbəb zərərli qidalanma və sümük əridən qazlı içki, çay və qəhvənin çox içilməsidir.**

Osteoporoz – sümüklərin zəifləməsi, nazikləşməsi, sıxlığının azalmasıdır. Bu, əsasən, qadınlarda estrogen hormonu düşdükdə baş verir. Zamanla insanın qaməti, beli əyilir, ağrı olur və boyu qısalır. Beynəlxalq Sağlamlıq Fondunun ekspertləri bildiriblər ki, sümüklərin sağlamlığı üçün insana 3 əlavə maddə – kalsium, zülal və fosfor lazımdır.

Ayrılıqda bu əlavələr faydalıdır, amma onlar digər mikroelementlərlə birlikdə qəbul edildikdə, optimal nəticə verir.



Kalsium əsasən, D vitamini və maqneziumla birgə yaxşı təsir edir.

Kalsium. Süd məhsullarından əlavə küncüt, brokkoli, ispanaq, kələm, əncir, mərci, noxud, çia toxumu kalsiumla zəngindir.

Zülal. Hər gün 150 qram qəbul etmək lazımdır: yağsız ət, toyuq, balıq, mərci, avokado, çərəzlər, sparja, yumurtada boldur.

Fosfor. Kakao, mal qaraciyəri, toxumlar, balqabaq, soya, mərci, paxlalıların tərkibində olur.

*Z.HÜSEYNLİ*
*XQ*

# ALLAH RƏHMƏT ELƏSİN

Məhərrəm Səfərli ailəsi ilə birlikdə “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşova bacısı

**GÜLƏBATIN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəyə və Milli Məclisin deputatı Cavanşir Paşazadəyə əzizləri

**ŞƏRİF ƏSƏDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3233
SİFARİŞ 104
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00